

# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 5 İL


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN






№ 239 (9984) 8 noyabr 2025-ci il ŞƏNBƏ | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI | QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# "Dəmir yumruğ"un yaratdığı ƏSL REALLIQ

- Şuşanın Azərbaycan tarixində xüsusi yeri var.
- Şuşa bizim qədim, tarixi şəhərimizdir.
- Şuşa nəinki Azərbaycanın, bütün Qarabağın incisidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad edilmə xəbərini xalqımıza böyük sevinc, böyük qürur və fəxarət hissi ilə çatdırdı:

"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm".

"28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq".

Şuşanın azad olunmasının daha bir rəmzi mənası da vardı.

Ulu Öndər Heydər Əliyevin müqəddəs vəsiyyətlərindən biri də Şuşa ilə bağlı olub!

Xalqına müraciətində Müzəffər Ali Baş Komandan İlham Əliyev bu məqamı da xatırlatdı:

"Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Şuşanı azad etməklə Azərbaycan Ordusu qarşısına qoyduğu ən böyük hədəflərdən birinə çatmış oldu!

Əslində, bu həm də Ermənistan ordusunun mühasirəyə salınması demək idi!

Bundan sonra düşmənin təslim olmaqdan, ağ bayraq qaldıraraq yalvarmaqdan başqa çarəsi qalmırdı!

Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa ilə bağlı tarixi müraciətini artıq məşhurlaşan kəlamı ilə başa çatdırdı:

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Artıq yeni yaradılan Azərbaycan Ordusunun qüdrətini, yeni texnologiyalara əsaslanan silahlarımızın dəqiqliyini və dağıdıcılıq imkanlarını müharibə meydanında görən, böyük itkilər yaşayan və on iki min əsgəri fərariyə çevrilən Ermənistan müharibənin dayandırılması, mühasirədə qalan iyirmiminlik ordusunun xilas edilməsi üçün havadarlarına yalvarır, kapitulyasiyaya hazır olduğunu bildirirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin ilk tələbi bu oldu:

Ermənistan öz qoşunlarının Azərbaycan ərazisindən çıxarılması qrafikini təqdim etməlidir!

Azərbaycan Prezidentinin bütün şərtləri yerinə yetirildi və onun tələbləri əsasında Rusiya Prezidenti V.Putinin vasitəçiliyi ilə 10 noyabr 2020-ci ildə kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanat imzalandı.

Üçtərəfli Bəyanatın 2-ci və 6-cı bəndləri Ağdam, Laçın və Kəlbəcər rayonlarının geri qaytarılması ilə bağlı idi.

Ermənistan Laçın və Kəlbəcəri geri qaytarmaq fikrində deyildi.

Kəlbəcərə də ayrıca yol çəkərək özünə birləşdirmişdi!

Hər iki rayonu keçmiş DQMV-yə qataraq "Artsax" respublikası yaratmaq niyyətində idi.

Ağdamda isə ən çox müdafiə istehkamları quraraq, ən böyük mina sahələri yaratmışdı.

Lakin bu üç böyük rayonu bir güllə atılmadan geri qaytarmalı oldu!

2020-ci il noyabrın 23-də Ağdam şəhərinə səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev əvvəlcə Ağdam məscidinə gəldi, oraya Məkkədən gətirdiyi "Qurani-Kərim"i bağışladı, sonra məscidin qarşısında dayanaraq xalqa müraciət etdi.

7

## Prezident İlham Əliyev Zəfər Günü münasibətilə paylaşım edib

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib

"Əziz həmvətənlər! Vətən müharibəsində əldə edilən şanlı Zəfərin beşinci ildönümü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm! Bugünkü bayramı qəhrəman xalq kimi başımız uca qeyd etdiyimizə görə bizim Prezidentimizə, cəsarətli əsgər və zabitlərimizə təşəkkür edirəm!

Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin! Uca Tanrı xalqımızı və Vətənimizi qorusun!".

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, Əziz Qardaşım!

Vətən müharibəsində Zəfərin beşinci ildönümü münasibətilə xalqım adından və öz adımdan zati-alinizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu şanlı Zəfərdən sonra həyata keçirilən sülh prosesi çərçivəsində atılan konstruktiv addımların davamlı bir razılaşma ilə nəticələnəcəyinə ümid edirəm. İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun rifahına xidmət edəcək və Qafqazın qlobal siyasətdə strateji əhəmiyyətini daha da artıracaqdır.

Azad edilmiş vətən torpaqlarının sürətli dirçəlişi və yenidən qurulmasında əldə edilən irəliləyiş təqdirəlayiqdir. Bu əlamətdar günün ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci hesab etdiyi qardaş Azərbaycanın həm regionda, həm də ondan kənarda inamlı addımlarla nail olduğu irəliləyişin şahidi olmaqdan böyük qürur hissi keçirir.

"Bir millət, iki dövlət" prinsipi ilə qurulmuş yüksəksəviyyəli münasibətlərimiz və öz gücünü ortaq taleyimizdən alan sarsılmaz qardaşlıq bağlarımız keçmişdə olduğu kimi, bu gün də möhkəmlənməkdə davam edir.

Güclü təməl üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və bütün sahələrdə nümayiş etdirdiyimiz xüsusi əməkdaşlıq regional sülhün, etimadın və sabitliyin ən vacib sütunlarından birinə çevrilmişdir.

Şübhəsiz ki, Sizin müdrik rəhbərliyinizlə can Azərbaycanın əldə etdiyi nailiyyətlər bundan sonra da regionumuzun çiçəklənməsinə əhəmiyyətli töhfələr verəcəkdir.

Fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı, dost və qardaş Azərbaycan xalqına xoş günlər və rifah arzulayıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Zati-alinizə və Sizin simanızda Azərbaycan Respublikasının Hökumətinə və qardaş Azərbaycan xalqına Zəfər Gününün beşinci ildönümü, həmçinin Dövlət Bayrağı Günü münasibətilə səmimi-qəlbdən təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Azərbaycana, hökumətinizə və xalqınıza daha böyük tərəqqi və rifah arzulayıram. Qürur duyduğumuz dostluq, qardaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin daha da inkişaf edib möhkəmlənəcəyinə əminliyimi bildirirəm.

Zati-aliləri, hörmətli qardaşım, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və qardaş Azərbaycan xalqını Zəfər Günü münasibətilə şəxsən öz adımdan və bütün Qırğız xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası böyük uğurlar qazanıb, beynəlxalq aləmdə layiqli yer tutub və sabit inkişaf edir.

Əminəm ki, Qırğızıstan və Azərbaycan arasında siyasi, iqtisadi-ticari və mədəni-humanitar əməkdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə möhkəmlənəcək və dərinləşəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

# Azərbaycan ilə Pakistan arasında qardaşlıq əlaqələri daha da inkişaf edir

## Prezident İlham Əliyevin Pakistanın Baş naziri ilə məhdud tərkibdə görüşü olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 7-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşıladı.

Dövlətimizin başçısı və Pakistanın Baş naziri birgə foto çəkdirdilər.

Görüşdə dövlətimizin başçısı Vətən müharibəsində şanlı Qələbənin beşinci ildönümü münasibətilə bu gün Bakıda keçiriləcək hərbi paradda iştiraka görə Məhəmməd Şahbaz Şərifə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında qardaşlığın nümunəsi kimi qiymətləndirdi.

Parada dəvətə görə minnətdarlığını bildirən Pakistanın Baş naziri burada iştirak etməkdən məmnunluğunu vurğuladı. Qonaq Prezident İlham Əliyevi və xalqımızı möhtəşəm Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edərək paytaxt İslamabadın Azərbaycanın Qələbəsi şərəfinə ölkəmizin üçrəngli bayrağı ilə bəzədildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyi bildirildi, Azərbaycan və Pakistanın beynəlxalq təşkilatlarda biri-birinə göstərdikləri qarşılıqlı dəstəyə toxunuldu. İkitərəfli ticarət dövriyyəsində artım məmnunluqla vurğulanaraq, siyasi münasibətlərimizin ruhuna uyğun olaraq iqtisadi-ticari əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycan tərəfindən Pakistandan idxal olunan düyüyə və 15 adda digər məhsula güzəştli ticarət tariflərinin tətbiqinin iqtisadi-ticari əlaqələrin inkişafında mühüm amil olduğu bildirildi.

Bu ilin birinci yarısında Hökumətlərarası Komissiyanın iclasının uğurla keçirildiyi xatırlandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələləri müzakirə edildi.

Hökumət nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin tezliklə qarşılıqlı səfərlər həyata keçirməsi ilə bağlı razılıq əldə olundu.

İşğaldan azad olunmuş ərazilərimizdə icra edilən bərpa və quruculuq işlərində Pakistan şirkətlərinin iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə ikitərəfli münasibətlərimizin perspektivləri müzakirə edildi.

# Prezident İlham Əliyev və Pakistanın Baş naziri birgə nahar ediblər



Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif birgə nahar ediblər.

# Azərbaycanla Slovakiya arasında ikitərəfli münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır

## Prezident İlham Əliyev Slovakiya Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**





AZƏRTAC xəbər verir ki, Slovakiya Baş nazirinin müavini və müdafiə naziri Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik edərək bununla bağlı keçiriləcək hərbi parada dəvətə görə təşəkkürünü bildirdi.

Qonaq həmçinin Slovakiyanın Baş naziri Robert Fitsonun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Slovakiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Robert Kalinakın rəhbərlik etdiyi nümayəndə heyətinin bu gün Bakıda keçiriləcək Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda iştirakını yüksək qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ABŞ Prezidentinin iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması məqsədilə imzalanmış sənədlərin tarixi əhəmiyyətinə toxunaraq bunun regionda davamlı sülhün təmin edilməsində rolunu vurğuladı.

Robert Kalinak Prezident İlham Əliyevin Slovakiyaya səfərini məmnunluqla gözlədiklərini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında qarşılıqlı anlaşma və dəstəyə əsaslanan ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirildi, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi və hərbi-sənaye sahələrində genişləndirilməsi üçün imkanların olduğu diqqətə çatdırıldı.

Həmçinin Slovakiyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əlaqələrinin genişləndirilməsinə göstərdiyi dəstəyə toxunuldu.

# "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4(Cild I);2024, № 11,maddə 1182, № 12 (II kitab), maddələr 1332,1348; 2025,№ 1, maddə 16, № 3, maddə 218, № 8, maddə 743) aşağıdakı dəyişikliklər edilsin:

1. 15-2-ci maddə üzrə:

1.1. 15-2.1-ci maddəyə "himayəyə götürülmüş" sözlərindən sonra ", habelə həbs edilmiş, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən (məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkənlər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 15-2.3-cü maddədən "həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla)," sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 15-2.4-cü maddə əlavə edilsin:

"15-2.4. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibbi xidmətlərin göstərilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) zəruri tibbi avadanlıq və (və ya) müvafiq sahə üzrə işçilərinin olmaması səbəbindən mümkün olmadıqda, həmin şəxslərə icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi bu Qanunun 15-17.2.3-3-cü maddəsi nəzərə alınmaqla həyata keçirilir.".

2. Aşağıdakı məzmunda 15-17.2.3-3-cü maddə əlavə edilsin:

"15-17.2.3-3. xidmətlər zərfinin həbs edilmiş şəxslər, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər istisna olmaqla) münasibətdə tətbiqi şərtləri;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

# "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 276-VIIQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 276-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Tibbi sığorta haqqında"Azərbaycan Respublikası Qanununun 15-2.4-cü maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15-2.4-cü maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. "Tibbi sığorta haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 92 (Cild I); 2024, № 12 (II kitab), maddə 1361) 6-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.1-ci bəndə "15-2.2.1-ci," sözlərindən sonra "15-2.4-cü," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 6.7-1-ci bənd əlavə edilsin:

"6.7-1. həmin Qanunun 15-2.4-cü maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2025-ci il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**

general-mayor Kənan Əlihüseyn oğlu Seyidova
general-mayor Ağamir Əzizxan oğlu Sultanova

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Zaur Qəzənfər oğlu Yusifliyə
polkovnik Ümüdvar Əzizalı oğlu Quliyevə
polkovnik Anar Tofiq oğlu Hüseynova
polkovnik Etibar İsmayıl oğlu Məhərrəmova

**"kontr-admiral" ali hərbi rütbəsi**

1-ci dərəcəli kapitan Şahin Oruc oğlu Məmmədova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr2025-ci il*

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri igidliyə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycanın Milli Qəhrəmanı" adı ilə**

Qurbanov Vaqif Bəxtiyar oğlu - baş leytenant (ölümündən sonra)

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Quliyev Akif Bayram oğlu - ehtiyatda olan baş gizir

**"İgidliyə görə" medalı ilə**

Binyətov Gülbudağ Əli oğlu - ehtiyatda olan polkovnik-leytenant
Əliyev Bəşir İman oğlu - ehtiyatda olan mayor
Cəlilov Elman Səyyad oğlu - ehtiyatda olan kapitan
Şalbuzov Tofik Şıxbala oğlu - ehtiyatda olan baş gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2025-ci il*

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycanın Milli Qəhrəmanı" adı ilə:**

Teymurov Pəncəli Nurməmməd oğlu - gizir (ölümündən sonra)

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Ələsgərov Əlvan Əsədulla oğlu - 3-cü dərəcəli kapitan

**2-ci dərəcəli "Rəşadət" ordeni ilə**

Abbasəliyev Yasin Yusif oğlu - polkovnik

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

İslamzadə Namiq Sərəfruz oğlu - general-leytenant
Nuriyev Ramin Sabir oğlu - polkovnik
Əmirov Zakir Oruc oğlu - polkovnik-leytenant

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Babayev Aqil İnşallah oğlu - general-mayor
Məmmədov Əyyub Vəli oğlu - general-mayor

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Həsənov Arif Həsən oğlu - general-mayor
İbrahimov Elmir Zülfüqar oğlu - general-mayor
Kazımov Elnur Sadıq oğlu - general-mayor
Nəbiyev Ceyhun Həsən oğlu - general-mayor
Niftullayev Zaur Rəşid oğlu - general-mayor
Abdulxalıqov İlqar Səftər oğlu - polkovnik
Alıyev Fuad Məhəmmədəli oğlu - polkovnik
Bağırov Vüsal Fazil oğlu - polkovnik
Dəmirov Rüstəm Nadir oğlu - polkovnik
Dünyamalıyev Əziz Dünyamalı oğlu - polkovnik
Əsədullayev Asif Azadxan oğlu - polkovnik
Gözəlov Bəxtiyar Telman oğlu - polkovnik
Həsənov Anar Məmmədzadə oğlu - polkovnik
Xəlilov Ramil Vəlixan oğlu - polkovnik
İbrahimov İbrahim Əzizağa oğlu - polkovnik
İbrahimov Şəhadət Əlövsət oğlu - polkovnik
Qəhrəmanov Şahin Orduxan oğlu - polkovnik
Məmmədov İntiqam Qəhrəman oğlu - polkovnik
Mirzəyev Anar Mehman oğlu - polkovnik
Soltanov Bağır Eyvaz oğlu - polkovnik
Sulxayev Aslan Əlixan oğlu - polkovnik
Yusibov Zəfər Qəzənfər oğlu - polkovnik
Ağamalıyev Teymur Ələsgər oğlu - polkovnik-leytenant
Ələkbərov Rasim Vahidoviç - 2-ci dərəcəli kapitan
Kərimov Nihad Məmmədhəsən oğlu - polkovnik-leytenant
Məmmədov Rəşad Arif oğlu - polkovnik-leytenant
Siracov Sirac Məmmədağa oğlu - 2-ci dərəcəli kapitan
Zülfüqarov Əli Salman oğlu - polkovnik-leytenant
Abbaszadə Abbas Zahir oğlu - mayor
Əhmədzadə Fuad Nadir oğlu-mayor
Əzimov Cavid İsa oğlu - mayor
Həsənov Mərdalı Mircəlil oğlu - mayor
İsayev Ehtiram Teymur oğlu - mayor
Kələşov Cahangir İlham oğlu - mayor
Əhmədov Pərviz Zahid oğlu-kapitan

**"Vətən uğrunda" medalı ilə**

Xəlilov Vasif Tofiq oğlu - general-mayor
Allahverdiyev Babək Asəf oğlu - polkovnik
Əlizadə Elqar Məmmədsadıq oğlu - polkovnik
Əsgərov Əliyar Arif oğlu - polkovnik
Əzizov Elvin Tofiq oğlu - polkovnik
Fətullayev İlkin Oruc oğlu - polkovnik
Hacıyev Elçin Akif oğlu - polkovnik
Hüseynov Bəhruz Səməd oğlu - polkovnik
Xəlilov Səməd Adil oğlu - polkovnik
İsmayılov Abasqulu Süleyman oğlu - polkovnik
Kərimov Mehman Abdulla oğlu - polkovnik
Quliyev Vüsal Aslan oğlu - polkovnik
Quliyev Zaur Hikmət oğlu - 1-ci dərəcəli kapitan
Məmmədov Azər Xutbəddin oğlu - polkovnik
Mirzəyev İntiqam Fərəməz oğlu - polkovnik
Muxtarov Rəşadət Tofiq oğlu - ədliyyə polkovniki
Orucov Mehman Qurbanəli oğlu - polkovnik
Bəhramzadə Məhəmməd Əsəbəli oğlu - polkovnik-leytenant
Əliyev Amid Adil oğlu - polkovnik-leytenant
Həsənov Elşən Rövşən oğlu - polkovnik-leytenant
Həsənov Elvin Asif oğlu - polkovnik-leytenant
Hüseynov Sabit Vəkil oğlu - polkovnik-leytenant
İbrahimov Tural Hikmət oğlu - polkovnik-leytenant
Qurbanəliyev Sərxan Zülfüqar oğlu - polkovnik-leytenant
Manafov Ağabala Elşad oğlu - polkovnik-leytenant
Məmmədov Rüfət Firudin oğlu - polkovnik-leytenant
Mürsəlov Şirəli Rizvan oğlu - polkovnik-leytenant
Rzayev Rafiq Qurban oğlu - polkovnik-leytenant
Salmanov Rafael Faiq oğlu - polkovnik-leytenant
Zeynalov Heydər Teymur oğlu - polkovnik-leytenant
Abdullayev Aqşin İsmayıl oğlu - mayor (ölümündən sonra)
Cəfərov Heydər Əkrəm oğlu - mayor
Əhmədov Elmin Tanırverdi oğlu - mayor
Əmirov Əfqan Fəxrəddin oğlu - mayor
Hacəliyev Şahin Hacəli oğlu - mayor
Hacıyev Teymur Ədalət oğlu - ehtiyatda olan mayor
İsmayılov Nicat İlyas oğlu - mayor
Məmmədov Vaqif Alxalovoviç - mayor
Rüstəmov Coşqun Rüfət oğlu - mayor
Səfərov Həsən İlqar oğlu - mayor
Şahbazzadə Səlim Elman oğlu - mayor
Tapdıqov Pərviz Ələkbər oğlu - mayor
Vəliyev Elçin Vəli oğlu - 3-cü dərəcəli kapitan
Abbasov Hüseyn Rizvan oğlu - kapitan
Abutalıbov Ramil Yaşar oğlu - kapitan
Əliyev Fəqan Ramiz oğlu - kapitan
Əzizli Ziya Bəy Əliqismət oğlu - kapitan
Həsənli Arif Fizuli oğlu - kapitan
Həsənli Kəmaləddin Camaləddin oğlu - kapitan
İsmayılov Orxan Elxan oğlu - kapitan
İsmayılov Sahil Fərman oğlu - kapitan
Qədirli Vüqar Ağakərim oğlu - kapitan
Mancanov Abdurəhman Fəxrəddin oğlu - kapitan
Məmmədli Sahil Səfalı oğlu - kapitan
Nəcəfli Damət Elşad oğlu - kapitan
Orucov Emil Alik oğlu - kapitan
Rzayev Məhəbbət Səfiyar oğlu - kapitan
Salahov Vaqif Əliyar oğlu - kapitan
Sarıyev Sabutay Asif oğlu - kapitan
Şakirov Sərvət Seyid oğlu - kapitan
Ağazadə Məlik Mehman oğlu - baş leytenant
Dədəkişiyev Cavid Gülbaba oğlu - baş leytenant (ölümündən sonra)
Haşımlı Tural Əbdül oğlu - baş leytenant (ölümündən sonra)
Həsənov Firudin Valeh oğlu - baş leytenant
Həsənov Xəyyam Asif oğlu - baş leytenant
Həsənov Ziya Niyazi oğlu - baş leytenant (ölümündən sonra)
İbayev Ağaxan Azər oğlu - baş leytenant
Nəzərov Şahlar Yaşar oğlu - baş leytenant (ölümündən sonra)
Orucəliyev Qabil Əbdüləli oğlu - leytenant (ölümündən sonra)
Şirinov Sahil Həsrət oğlu - leytenant (ölümündən sonra)
Əliyev Kənan Adil oğlu - baş gizir
Kərimov Əhməd Şərif oğlu - baş gizir
Murtuzayev Narvik Minbala oğlu - baş gizir
Niftullayev Vasid Sadiq oğlu - baş gizir
Abdullazadə Nurlan Rasim oğlu - gizir (ölümündən sonra)
Ağayev Rusif İbrahim oğlu - miçman (ölümündən sonra)
Hümmətov Orxan Kazım oğlu - gizir (ölümündən sonra)
Qarayev Dilsuz Məmmədağa oğlu - gizir (ölümündən sonra)
Qasımov İlqar Vüqar oğlu - gizir
Tağıyev Rahim Qara oğlu - gizir (ölümündən sonra)
Zeynallı İlqar Ayaz oğlu - gizir (ölümündən sonra)
Abidov Babək Vəfadar oğlu - kiçik gizir (ölümündən sonra)
Baxışov Seymur Qulamhüseyn oğlu - kiçik gizir (ölümündən sonra)
Bayramov Sərxan Oqtay oğlu - kiçik gizir (ölümündən sonra)
Cavadzadə Şahin Yaşar oğlu - kiçik gizir (ölümündən sonra)
Fərəczadə Toğrul Habil oğlu - kiçik gizir (ölümündən sonra)
Hüseynov Bəxtiyar Rafayıl oğlu - kiçik gizir (ölümündən sonra)
Qasımov Teymur Sabir oğlu - kiçik gizir (ölümündən sonra)
Qurbanov Tural Gürşad oğlu - kiçik gizir (ölümündən sonra)
Müstəcəbov Orxan Ələsgər oğlu - kiçik gizir (ölümündən sonra)
Novruzov Ravil Elman oğlu - kiçik gizir (ölümündən sonra)
Səfərov Elimdar Səlimxan oğlu - kiçik gizir (ölümündən sonra)
Şeydayev Şeyda Bəslan oğlu-çavuş
Əsgərov Təbriz Hamlet oğlu - kiçik çavuş (ölümündən sonra)
Quliyev Səyyar Qınyaz oğlu - kiçik çavuş (ölümündən sonra)
Məmmədov Elşad Dönməz oğlu - baş əsgər (ölümündən sonra)
Abdullayev Qulam Əbdül oğlu - əsgər
Adilzadə Adil Kamran oğlu - əsgər (ölümündən sonra)
Axundov Əbdülməcid Nadirşah oğlu - əsgər (ölümündən sonra)
Alıyev Vüsal İlham oğlu - əsgər (ölümündən sonra)
Bağırov Emin İmran oğlu - əsgər (ölümündən sonra)
Bağırov Sərxan Azər oğlu - əsgər (ölümündən sonra)
Bağırzadə Firdovsi Əliş oğlu - əsgər (ölümündən sonra)
Bayramov Şulan Bayram oğlu - əsgər (ölümündən sonra)
Cəbrayılov Ömər Məzahir oğlu - əsgər (ölümündən sonra)
Cəfərov Zakir Nazim oğlu - əsgər (ölümündən sonra)
Dadaşov Tural Sabir oğlu - əsgər (ölümündən sonra)
Daşdəmirov Xəyyam Məhəmməd oğlu - əsgər (ölümündən sonra)
Dəmirli Altun Fərman oğlu - əsgər (ölümündən sonra)
Dəmirli Hüseyn Zeynal oğlu - əsgər (ölümündən sonra)
Əliyev Orxan Məhəmməd oğlu - əsgər (ölümündən sonra)
Əsgərli Nurlan Bayram oğlu - əsgər (ölümündən sonra)
Əzizzadə Xaliq Həsən oğlu - əsgər (ölümündən sonra)
Hacıağayev Cabbarxan İlham oğlu - əsgər (ölümündən sonra)
Hüseynov Ayaz Ələkbər oğlu - əsgər (ölümündən sonra)
Xeyirbəyov Əmiraslan Xəlil oğlu - əsgər (ölümündən sonra)
İbrahimov Mahmud Azər oğlu - əsgər (ölümündən sonra)
İslamov Əlizaman Fərrux oğlu - əsgər (ölümündən sonra)
İsmayılov Nazim Əfqan oğlu - əsgər (ölümündən sonra)
Qasımov Nurlan Cəmil oğlu - əsgər (ölümündən sonra)
Qasımov Teymur Mikayıl oğlu - əsgər (ölümündən sonra)
Qayıbov Elvin Sədrəddin oğlu - əsgər (ölümündən sonra)
Qədimov Zülfü Rəhim oğlu - əsgər (ölümündən sonra)
Quliyev Mahir Qadir oğlu - əsgər (ölümündən sonra)
Qurbanlı Fəxrəddin Seyfəddin oğlu - əsgər (ölümündən sonra)
Məmmədov Murad Vaqif oğlu - əsgər (ölümündən sonra)
Məmmədov Ülvin Camaləddin oğlu - əsgər (ölümündən sonra)
Mirzəyev Elvin Azadxan oğlu - əsgər (ölümündən sonra)
Mirzəyev Mahir Sabir oğlu - əsgər (ölümündən sonra)
Mirzəyev Məhəbbət Ədalət oğlu - əsgər (ölümündən sonra)
Mirzəyev Nurəddin Etimad oğlu - əsgər (ölümündən sonra)
Muradov Rizvan Telman oğlu - əsgər (ölümündən sonra)
Mustafazadə Elçin Arif oğlu - əsgər (ölümündən sonra)
Nəsirov Röyal İmran oğlu - əsgər (ölümündən sonra)
Niftalılı Rəşad Şakir oğlu - əsgər (ölümündən sonra)
Novruzov Fəraim Nadir oğlu - əsgər (ölümündən sonra)
Nurayev Rəvan İsmayıl oğlu - əsgər (ölümündən sonra)
Səmədov Elşən Səlim oğlu - əsgər (ölümündən sonra)
Süleymanov Vüqar Natiq oğlu - əsgər (ölümündən sonra)
Şirəliyev Kamran Faiq oğlu - əsgər (ölümündən sonra)
Vahabzadə Mikayıl Yaqub oğlu - əsgər (ölümündən sonra)
Zəkərəyev Nazim Nadir oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**

Xankişiyev İlqar İmran oğlu - polkovnik
Sulxayev Rəfail Əli oğlu - polkovnik
Eybalıyev Bəhmən Mirzə oğlu - polkovnik-leytenant
Əliyev Afiq Əli oğlu - polkovnik-leytenant
İbrahimov Adil İbrahim oğlu - polkovnik-leytenant
Məmmədov Mehman Rüstəm oğlu - polkovnik-leytenant
Məmmədov Sərxan Süleyman oğlu - polkovnik-leytenant
Nəsirov Sabir Səbran oğlu - polkovnik-leytenant
Tarverdiyev Hilal Əjdər oğlu - polkovnik-leytenant
Abuşov Elşad Ərzulla oğlu - mayor
Eynullayev Ruslan Həzrətəli oğlu - mayor
Səmədov Mirhaşim Nəcəfəli oğlu - mayor
Əfəndiyev Coşqun Səlim oğlu - kapitan
Hüseyinli Toğrul Sahib oğlu - kapitan
Əsgərov Sunay Tağı oğlu - baş leytenant
Məhərrəmov Nurlan Sahib oğlu - baş leytenant
Nəsibli Xəzər İntiqam oğlu - baş leytenant
Şirəlizadə Elsevər Zabit oğlu - baş leytenant
Yaqubov Hümbət Arzu oğlu - baş leytenant
Əliyev Ceyhun Alxan oğlu - leytenant
Quluyev Etibar Nizami oğlu - leytenant
Cəfərov Asif Kamil oğlu - gizir
Hüseynov Kamran Davud oğlu - gizir
Bozuyev Yalçın Bəylər oğlu - baş çavuş
Əliyev Emil Ehtiram oğlu - baş çavuş
Həsənov Şamo Lütviyar oğlu-çavuş
Məmmərzəyev Məhəmməd Murğuz oğlu-əsgər

**"Cəsur döyüşçü" medalı ilə**

Səfərli Ramil Fərman oğlu- polkovnik
Əlizadə Nihad Bəhman oğlu - mayor
Hüseynov Vüqar Vidadi oğlu - mayor
Kərimov Anar Hidayət oğlu - mayor
Quliyev Vüqar Məhəmməd oğlu - mayor
Rəsulzadə Rəsul Cavid oğlu - mayor
Səfərov İsmayıl Talıb oğlu - mayor
Hüseynli Etibar Cavid oğlu - kapitan
Quliyev Qadir Famil oğlu - kapitan
Musazadə Elçin İsa oğlu - kapitan
Nəsirli Laçın Çingiz oğlu - kapitan
Abdullayev Aslan Mətləb oğlu - baş leytenant
Nəcəfov Asif Malik oğlu - baş leytenant
Ocaxverdiyev Nemət Nazim oğlu - baş leytenant
Bağırov Nemət Xanlar oğlu - leytenant
Əlizadə Emil Zaur oğlu - leytenant
Qarayev Səddam Abdulhəmid oğlu- baş gizir
Həsənov Röyam Famil oğlu- gizir
Əhmədov Qurban Vidadi oğlu-baş çavuş
Qasımov Akif Engels oğlu - çavuş
Yusibov Qiyas Əliyusif oğlu - çavuş
Abuzərov Müslüm Şahin oğlu-kiçik çavuş
Əliyev Elmar Cavanşir oğlu-əsgər

**"Döyüşdə fərqlənməyə görə" medalı ilə**

Əliyev Hüseyn İsbəndiyar oğlu- tibb xidməti polkovniki
Əhmədov Cavid Sevindik oğlu- polkovnik-leytenant
İbrahimov Emin Fətəli oğlu- polkovnik-leytenant
Cəfərli Ayaz Qorxmaz oğlu- mayor
Gözəlov Əlqəm Əhəd oğlu- mayor
Hüseynli Tural Fərhad oğlu- mayor
Hüseynov Mansur Samit oğlu- mayor
Mustafayev Vaqif Nemət oğlu- mayor
Həsənli Sənan Rəşid oğlu- kapitan
Hüseynzadə Ülvi Elçin oğlu- kapitan
Nəsirli Cavad Cəlal oğlu- kapitan
Qurbanov Fərman Beybala oğlu- baş leytenant
Məmmədov Kamran Lətif oğlu- baş leytenant
Alyarov Elman Məhərrəm oğlu- leytenant
Əliyev Orxan Əliyar oğlu- leytenant
Qafarov Nazim Mehman oğlu- baş gizir
Qurbanov Əli Yadigar oğlu- baş gizir
Əskər-zadə Yadigar Fərhad oğlu- gizir
Kərimov Rauf Yusif oğlu- gizir
Muradov Rahim Rəfail oğlu- gizir
Musayev Vüqar Arif oğlu- gizir
Novruzov Elmidar Mehman oğlu- gizir
Əzizov Rahib Müslüm oğlu- çavuş
Səmədov Səməd Şəmsəddin oğlu- çavuş
Əliyev Zaur Qoca oğlu- əsgər
Mirzəyev Dəyanət Səxavət oğlu- əsgər
Şirəliyev Ramiz Əkbər oğlu- əsgər

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Aslanov Rüfət Talıb oğlu - polkovnik
Atakişiyev Məzahir Mirzə oğlu-polkovnik
Bayramov Vüqar Əsəd oğlu - polkovnik
Əliyev Mütəllim Rəhim oğlu- polkovnik
Əzizov Yengibar Səmənd oğlu - polkovnik
Həbibullahov Seymur Musa oğlu- polkovnik
Məmmədov Yəhya Səməd oğlu- polkovnik
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik
Nəbiyev Ramil Ramiz oğlu- polkovnik
Paşayev Vüqar Murad oğlu-tibb xidməti polkovniki
Rəhimov Elşən Nütvəli oğlu- polkovnik
Şabanov Mübariz Əziz oğlu-polkovnik
Şıxlinski Vüqar Zakir oğlu- polkovnik
Tarverdiyev Anar Xanverdi oğlu - polkovnik
Abbasov Vüqar Malik oğlu- polkovnik-leytenant
Abdullayev Azər Abazər oğlu - polkovnik-leytenant
Abdullayev Teymur Ağabəy oğlu- polkovnik-leytenant
Axundov Elsevər Elşən oğlu- polkovnik-leytenant
Axundov Rais Nadir oğlu- polkovnik-leytenant
Aslanov Novruz Tacı oğlu- polkovnik-leytenant
Atayev Rusif Elşən oğlu- polkovnik-leytenant
Bayramov Ramil Yusif oğlu- polkovnik-leytenant
Bəxtiyarov Cabir Elman oğlu- polkovnik-leytenant
Cəbrayılov Şəhriyar Vahid oğlu- polkovnik-leytenant
Əmirov Şükür Ağamir oğlu- polkovnik-leytenant
Fətullayev Anar Şahrza oğlu- polkovnik-leytenant
Hadıyev Elman Əbülfət oğlu- polkovnik-leytenant
Hüseynov Əkbər Ənvər oğlu- polkovnik-leytenant
Xoyluyev Vüsal Sərraf oğlu- polkovnik-leytenant
Xudeynatov Elnur Kamal oğlu- polkovnik-leytenant
İskəndərov Elnur Qurban oğlu- polkovnik-leytenant
Quliyev İsmayıl Zirəddin oğlu - polkovnik-leytenant
Maksudov Bəhruz Azər oğlu- polkovnik-leytenant
Məhərrəmov Roman Rafiq oğlu- polkovnik-leytenant
Mərdanov Mərdan Gülbaba oğlu- polkovnik-leytenant
Nəzərov Xəndan Aydın oğlu - polkovnik-leytenant
Səfərov Siyavuş Akif oğlu- polkovnik-leytenant
Şalanov Azər Əli oğlu - polkovnik-leytenant
Zalov Emil Fuad oğlu - polkovnik-leytenant
Zeynalov Ziya Vaqif oğlu- polkovnik-leytenant
Abbaszadə Məiş Sadiq oğlu- mayor
Ağasiyev Rəşad Zeynal oğlu - mayor
Balıyev Turac Vidadi oğlu - mayor
Əbilov Cavid Səyavuş oğlu - mayor
Əliyev Məfdun Tahir oğlu - mayor
Əsgərov Cəlal Elçin oğlu - mayor
Əsgərov Mübariz Tahir oğlu - mayor
Əzizov Asim Əziz oğlu - mayor
Xantəmirov Şamil Şahsəddin oğlu - mayor
İbrahimov Abdal Rafiq oğlu - mayor
İsmixanov Əhmədağa Nürəliyeviç - mayor
Kəlbiyev Rasim Faiq oğlu - mayor
Kərimov Şəhriyar İxtiyar oğlu - mayor
Qarayev Elvin Telman oğlu - mayor
Mamedov Vüqar Əli oğlu - mayor
Namazov Samir İkram oğlu - mayor
Novruzəliyev Pərviz Yaqub oğlu - mayor
Orucov Mahmud Həmid oğlu - mayor
Paşayev Ziyad Məmmədxan oğlu - mayor
Ramazanov Rafiq Gündüz oğlu - mayor
Seyidov Mirməhəmməd Mirəhməd oğlu - mayor
Şərifov Nadir Tahir oğlu - mayor
Vəliyev Cəfər Şıxeyib oğlu - mayor
Zamanov Yaşar Yusifəli oğlu - mayor
Abdullayev Cəmil Səxavət oğlu - kapitan
Cəfərov Ayxan Seymur oğlu - kapitan
Əhmədov Rəşadət Fərman oğlu- kapitan
Əliyev Elvin İnqilab oğlu - kapitan
Əliyev Rzali Rəşid oğlu - kapitan
Əsədov Eltun Sərbəst oğlu - kapitan
Heybətli Seymur Hikmət oğlu - kapitan
Hüseynov Pənah Filman oğlu - kapitan
Xəlilov Qəhrəman Tahir oğlu - kapitan
İskəndərov Vüsal Vahid oğlu - kapitan
Kərimov Sabir İlham oğlu - kapitan
Qasımov Röyal Sədrəddin oğlu - kapitan
Məmmədov Kənan Qaryağdı oğlu - kapitan
Məmmədov Məhəmməd Həsən oğlu - kapitan
Muradov Emin İftixar oğlu - kapitan
Namazov İlqar Vüqar oğlu- tibb xidməti kapitanı
Nəsirov Fəhmin Nurəddin oğlu - kapitan
Oruclu Əmiraslan İbrahim oğlu - kapitan-leytenant
Paşayev Fariz Yusif oğlu- kapitan
Rəhmanov Orxan Tofiq oğlu - kapitan
Səfərov Şahin Elsevər oğlu- kapitan
Şalbuzov Nail Çərkəs oğlu - kapitan
Umudov Mehman Adil oğlu- kapitan
Dünyamalıyev Röyal Adil oğlu - baş leytenant
Əliyev Azad Məhəmmədşah oğlu - baş leytenant
Həsənzadə Bünyad Əlibala oğlu - baş leytenant
Həşimov Əfqan Fuad oğlu - baş leytenant
İbrahimli İsa Vidadi oğlu - baş leytenant
Məmmədov Rövşən Üzeyir oğlu - baş leytenant
Muğalov İsa Mahir oğlu - baş leytenant
Paşazadə Heydər Yalçın oğlu- baş leytenant
Soltanov Tural Hərbi oğlu - baş leytenant
Ələkbərov Xəyyam Ələkrəm oğlu - leytenant
Vəliyev Elvin Nizaməddin oğlu - leytenant
Bayramov Tahir Pirnazar oğlu - baş gizir
Əmirov Tərzan Oktay oğlu - baş gizir
Hacıyev Kənan Kamran oğlu - baş gizir
Həsənov Asəf Müslüm oğlu - baş gizir
Həsənov Babək Ataş oğlu - baş gizir
Hüseynov Amil Adil oğlu - baş gizir
Hüseynov Pərvin Elxan oğlu - baş gizir
Məmmədov Baxşalı İdris oğlu - baş gizir
Muxtarlı Tərlan Ataş oğlu - baş gizir
Ovçiyev İlkin Müzaməddin oğlu - baş gizir
Rəşidov Mənsur Tahir oğlu - baş gizir
Səfərov Cavidan Fərhad oğlu - baş gizir
Sultanov Yusif Seyfəddin oğlu - baş gizir
Vəlişov Mərdan Vaqif oğlu - baş gizir
Abbaslı Kənan Rasim oğlu- gizir
Abbasov Elvin İlham oğlu- gizir
Alıyev Elmir İlqar oğlu- gizir
Alıyev Elmir Pərviz oğlu- gizir
Dövlətov Ramid Balaxan oğlu- gizir
Əlizadə Cavid Balayar oğlu- gizir
Əlizadə Rəşad Allahqulu oğlu- gizir
Əmirov Namiq Əmir oğlu- gizir
Fətəliyev Xanlar Barat oğlu - miçman
Xəlilov Yolçu Qorçu oğlu - gizir
Xidirov Yəhya Rasim oğlu- gizir
İsgəndərov Bəhruz Allahverdi oğlu - gizir
Quliyev Bahadur Məmməd oğlu- gizir
Mehdiyev Vüqar Qədir oğlu- gizir
Məmmədov Ravid Rantik oğlu- gizir
Mikaylov Elşad İsrayıl oğlu - gizir
Niftəliyev Əhməd Sahib oğlu- gizir
Pəncəliyev Təbriz Sərdar oğlu- gizir
Sadıqov Xəqani Akif oğlu - gizir
Şahmuradov Rəşad Dilşad oğlu - gizir
Tarıverdiyev Rahib Razin oğlu - gizir
Allahyarlı Ayxan Şöhrəd oğlu- baş çavuş
Kiçibəyov Elvin Yüzbəy oğlu - baş çavuş
Musayev Musa Mirzalı oğlu - baş çavuş
Yaqubov Şəhriyar Əflatun oğlu - baş çavuş
Alışov Pünhan Vidadi oğlu -çavuş
Allahverdiyev Əli Mehman oğlu - çavuş
Cəfərov Elgün Adışirin oğlu - çavuş
İsayev İskəndər Sevindik oğlu - çavuş
Kazımov Rəvan Fərhad oğlu - çavuş
Abbasov Elvin Bəylər oğlu - kiçik çavuş
Qasımov Eyvaz Arzuman oğlu- istefada olan kiçik çavuş
Alagözov Fərrux Mikayıl oğlu - baş əsgər
Cəbrayılov Elçin Tufan oğlu - əsgər
Tapdıqov Ziyaməddin Akif oğlu- əsgər
Usubov Araz Afis oğlu- əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2025-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Braziliyada COP30-un Liderlər Sammitində çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Braziliya Federativ Respublikasının Belem şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasının (COP30) Liderlər Sammitində çıxış edib.**







Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri çıxışında Azərbaycanın təşkilatçılığı ilə COP29-un əldə etdiyi mühüm nailiyyətlər barədə geniş məlumat verib. Onun sözlərinə görə, böyük maneələrə, qeyri-müəyyənliklərə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ən uğurlu COP-lardan birinə evsahibliyi edərək bu prosesi qətiyyətlə həyata keçirdi. COP29-da Azərbaycan tərəflər arasında fikir ayrılıqlarını aradan qaldırmağı və əvvəlki danışıqlarda həll oluna bilməyən məsələlər üzrə tarixi konsensus əldə etməyi bacardı.

Spiker Sahibə Qafarova xatırladıb ki, Azərbaycan COP29-da Bakı Maliyyə Hədəfinin qəbul olunmasına nail oldu ki, bu da 2025-ci ildən inkişaf etməkdə olan ölkələr üçün hər il 300 milyard ABŞ dollarının səfərbər edilməsini nəzərdə tutur. Sahibə Qafarovanın sözlərinə görə, bu, Birləşmiş Millətlər Təşkilatı tərəfindən bu günə qədər əldə edilmiş ən böyük maliyyə paketidir. Həmçinin COP29-da inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər iqlim maliyyəsinin illik ən azı 1,3 trilyon dollara çatdırılması hədəfi ortaya qoyuldu. Bu hədəfə nail olmaq üçün Azərbaycan Bakı-Belem Yol Xəritəsini hazırlamaq üçün Braziliya tərəfi ilə sıx əməkdaşlıq edib.

Milli Məclisin Sədri COP29-un öz üzərinə götürdüyü bir sıra digər əsas mandatların reallaşdırılması istiqamətində də uğurlu nəticələr əldə etdiyini xatırladıb. Onun sözlərinə görə, bunlardan biri də Paris Sazişinin 6-cı maddəsi çərçivəsində karbon bazarlarını tənzimləyən qaydaların tamamlanmasıdır ki, bununla da o, Paris Sazişinin qəbulundan 10 il sonra tam işlək hala gəlmişdir.

Diqqətə çatdırılıb ki, COP29 həmçinin 2025-ci ildən başlayaraq İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını və resursları ödəməyə hazır olmasını təmin edib. Qlobal iqlim fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin edilməsində mühüm addım olan Genişləndirilmiş Şəffaflıq Çərçivəsi də aktivləşdirilib. Bundan əlavə, zərərin təsirinin azaldılması, uyğunlaşma, gender, yerli xalqlar və digər bir-biri ilə əlaqəli olan prioritetlərlə bağlı geniş spektrli mühüm mandatlar üzrə də razılığa gəlindi.

Azərbaycanın ən həssas qrupların dəstəklənməsinə böyük diqqət yetirdiyini söyləyən Milli Məclisin Sədri vurğulayıb ki, ölkəmiz bu öhdəliyi özünün COP29 Sədrliyinin əsas elementinə çevirib. Bu məqsədlə Azərbaycan İnkişaf etməkdə olan Kiçik Ada Dövlətlərinin (SIDS) və Ən Az İnkişaf Etmiş Ölkələrin (LDCS) nümayəndələrinin COP29-da iştirakı üçün maliyyə dəstəyi göstərib. Azərbaycan COP29-da Liderlər Zirvəsi zamanı SIDS üçün xüsusi konfrans təşkil edərək, onların xüsusi narahatlıqları və prioritetlərinin yüksək siyasi səviyyədə dinlənilməsi üçün platforma təmin edib.

Çıxışda məlumat verilib ki, COP29 Sədrliyi, danışıqlara paralel olaraq, Paris Sazişinin bütün əsas məqamlarını əhatə edən 14 təşəbbüsdən ibarət Fəaliyyət Gündəliyi hazırlayıb. Bu gündəliyin əsas məqsədi təkcə hədəflər müəyyən etmək deyil, həm də bu hədəflərə çatmaq üçün lazımi infrastrukturun yaradılmasına və əməli tədbirlərin həyata keçirilməsinə nail olmaqdır. Lakin bu nəticələrdən savayı, COP29-un çoxtərəfli sistemə inamı da bərpa etdiyi vurğulanıb. Spiker Sahibə Qafarovanın sözlərinə görə, COP29 göstərdi ki, hətta geosiyasi gərginlik, etimadsızlıq və iqtisadi qeyri-müəyyənlik dövründə belə, ölkələr yenə də bir araya gəlib ümumi mənafe üçün birgə hərəkət edə bilərlər. Bu, Azərbaycanın davamlı sınaqlarla üzləşməsinə baxmayaraq, bərqərar edə bildiyi çoxtərəfliliyin zəfərinin əsl nümayişi idi.

Milli Məclisin Sədri daha sonra bildirib ki, Azərbaycan COP28 və COP30 Sədrlikləri ilə birlikdə iddialı Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC) təşviq etmək üçün güclü öhdəlik nümayiş etdirdi. Azərbaycan, eyni zamanda milli səviyyədə müəyyən edilmiş töhfələrini hazırlayarkən də eyni qətiyyəti göstərdi. Belə ki, 2050-ci il üçün müəyyən edilmiş hədəfin reallaşdırılmasını 15 il önə çəkərək, bu hədəflərin 2035-ci ildə növbəti milli səviyyədə müəyyən edilmiş töhfələr tsikli dövründə reallaşdırmağı hədəflədi. Bu, son üç onillikdə ərazilərimizin işğal edilmiş və dağıdılmış iyirmi faizində genişmiqyaslı yenidənqurma və minalardan təmizləmə fəaliyyətlərini davam etdirdiyimiz şəraitdə belə, iqlim fəaliyyətinə davamlı öhdəliyimizi əks etdirir.

Çıxışının sonunda Milli Məclisin Sədri bir daha bəyan edib ki, COP29-da iqlim fəaliyyəti üzrə mümkün şərtlərin formalaşmasından sonra COP30 iqlim planlarının irəliyə aparılması üçün daha bir imkan təmin edir. Azərbaycan COP30 prezidentliyinin icra COPu baxışının reallaşdırılmasında COP30 prezidentliyini tam dəstəkləməyə və töhfə verməyə hazırdır. Spiker Sahibə Qafarova, Braziliyanı bu mühüm prosesdə dəstəkləməyə, vacib qərarları qəbul etməyə, planetimiz və gələcəyimiz üçün olduqca həlledici olan fəaliyyətlərin həyata keçirilməsinə çağırıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova COP30 çərçivəsində "Enerji Keçidi" mövzusunda sessiyada çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Braziliya Federativ Respublikasının Belem şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası (COP30) çərçivəsində "Enerji Keçidi" mövzusunda tematik sessiyada çıxış edib.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin spikeri çıxışında qeyd edib ki, təmiz enerjiyə keçidin sürətləndirilməsi istixana qazı emissiyalarının azaldılması, iqlim dəyişikliyinə qarşı mübarizə aparılması və dayanıqlı inkişafın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, bu məqsədə nail olmaq üçün indiyədək əldə olunmuş nailiyyətlər əsasında ardıcıl və qətiyyətli səylər göstərilməlidir. Bununla yanaşı, enerji istehsalı, paylanması və istehlakı sahəsində köklü transformasiyanın həyata keçirilməsi tələb olunur ki, bu da həm qlobal ehtiyacların ödənilməsinə, həm də iqlim dəyişikliyinin yaratdığı çağırışların effektiv şəkildə həll olunmasına xidmət etməlidir.

Milli Məclisin Sədri xatırladıb ki, enerji keçidi COP29 sədrliyinin fəaliyyətində əsas prioritetlərdən biri olub. Azərbaycan Beynəlxalq Enerji Agentliyi ilə birgə dörd Yüksək Səviyyəli Enerji Keçidi Dialoqu təşkil edib, dünyanın müxtəlif regionlarından tərəfdaşları bir araya gətirib. Bu müzakirələr enerji sahəsində gündəliyin formalaşdırılmasına istiqamət verib. Nəticə etibarilə, BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO), Avropa İqtisadi Komissiyası (UNECE), Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), Beynəlxalq Enerji Agentliyi (IEA) və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) ilə sıx əməkdaşlıq çərçivəsində COP29 sədrliyi üç mühüm enerji təşəbbüsünü təqdim edib: Qlobal Enerji Saxlancı və Şəbəkələri Vədi, "Yaşıl Enerji" Zonaları və Dəhlizləri Vədi və COP29 Hidrogen Bəyannaməsi.

Milli Məclisin Sədri deyib ki, bu təşəbbüslər Paris Sazişi çərçivəsində aparılmış ilk Qlobal Qiymətləndirmədən əldə olunan nəticələrə və mövcud öhdəliklərə əsaslanır, icra boşluğunun aradan qaldırılmasının və təxirəsalınmaz addımların zəruriliyini əks etdirir.

Çıxışda həmçinin qeyd olunub ki, hər bir təşəbbüs təmiz enerji infrastrukturu, tətbiqi, saxlanması, ötürülməsi və paylanması sahəsində strateji prioritetləri hədəfləyir. Onlar bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində məqsədlər üzrə tərəqqini sürətləndirməyə, əməkdaşlığı gücləndirməyə və praktik tədbirlərin həyata keçirilməsinə dair siyasi iradəni möhkəmləndirməyə yönəlib. Spikerin bildirdiyinə görə, bu təşəbbüslər həm də innovasiyaların təşviqi, texnologiya transferi, enerji şəbəkələrinin qarşılıqlı əlaqəsinin təkmilləşdirilməsi və yeni investisiya mexanizmlərinin formalaşdırılmasını nəzərdə tutur. Əsas məqsəd isə hər bir ölkə və icmanın bu prosesdə ədalətli və bərabər şəkildə iştirakının təmin olunduğu enerji keçidinə nail olmaqdır.

Milli Məclisin Sədri çıxışında həmçinin ölkəmizdə bərpaolunan enerji istehsalının genişləndirilməsi istiqamətində görülən işlər və əldə olunan uğurlar barədə də məlumat verib. O deyib ki, Azərbaycan təmiz enerji siyasətini ardıcıl şəkildə həyata keçirərək enerji balansında bərpaolunan enerjinin payını artırmaqdadır və ölkəmiz bərpaolunan enerjinin inkişafı sahəsində lider dövlətlərdən birinə çevrilməkdədir.

Bərpaolunan enerji resurslarımızın texniki potensialı quruda 135 QVt, dənizdə isə 157 QVt, bu resursların iqtisadi potensialı isə təxminən 27 QVt səviyyəsində qiymətləndirilir. Hazırda bərpaolunan enerjinin payı ümumi quraşdırılmış enerji gücünün təxminən 18,8 faizini təşkil edir ki, bu da təqribən 1,8 QVt-a bərabərdir. 2027-ci ilə qədər ümumi gücü 2 QVt-dan artıq olan "yaşıl enerji" layihələrinin həyata keçirilməsi planlaşdırılır.

Eyni zamanda qeyd olunub ki, 2030-cu ilə qədər ölkəmizdə istehsal edilən enerjinin təxminən 40 faizinin bərpaolunan enerji mənbələrindən əldə olunması nəzərdə tutulur.

Parlamentin spikeri deyib ki, təmiz enerji sahəsinə bu investisiya öhdəliyi, zəngin ənənəvi enerji ehtiyatlarımıza baxmayaraq, ölkəmizin aşağıkarbonlu gələcək qurmaq istiqamətində qətiyyətini nümayiş etdirir.

Sahibə Qafarovanın sözlərinə görə, Azərbaycan həmçinin təmiz enerjinin inkişafı ərazilərinin təyin olunmasında, yeni standartların müəyyənləşdirilməsində də aparıcı rol oynayır. Otuz ilə yaxın işğal altında qalmış və dağıdılmış ərazilərimizdə "Yaşıl Enerji" Zonası yaradılması dayanıqlı bərpa və regional transformasiya istiqamətində strateji baxışın bariz nümunəsidir.

Çıxışının sonunda Milli Məclisin Sədri qeyd edib ki, beynəlxalq ictimaiyyətin məsul üzvü kimi Azərbaycan bərpaolunan enerji gücünü artırmaq, hidroenerji potensialını inkişaf etdirmək və enerji səmərəliliyi tədbirlərini gücləndirmək istiqamətində səylərini davam etdirəcək. Ölkəmiz qlobal iqlim məqsədlərini dəstəkləməyə və inklüziv, təhlükəsiz enerji gələcəyinin qurulması naminə birgə fəaliyyətə sadiq qalır.

*"Azərbaycan"*

# 2026-cı ilin dövlət büdcəsi layihəsi inkişafla bağlı bütün parametrləri özündə ehtiva edir

**Noyabrın 7-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Regional məsələlər komitələrinin birgə iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.**



İclası açan Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov bildirib ki, Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə Azərbaycan böyük inkişaf yolu keçmiş, siyasi-iqtisadi uğurlar əldə etmiş, qlobal layihələr reallaşdırmış və dövlət suverenliyini tam bərpa etmişdir. Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistan-Azərbaycan sülh müqaviləsinin paraflanması isə ölkəmiz üçün yeni mərhələ açmışdır.

Vitse-spiker qeyd edib ki, büdcə layihəsi təkcə dövlətin əsas maliyyə sənədi deyil, həm də qarşıya qoyulan məqsəd və vəzifələrin bir il ərzində idarə olunmasını və həyata keçirilməsini təmin edən strateji sənəddir. Sədr müavini dövlət büdcəsinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də nəzərdə tutulmuş beş milli prioritetin reallaşdırılması üçün etibarlı maliyyə bazası yaratdığını, bu prioritetlər sırasında dayanıqlı sosial-iqtisadi inkişafın, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı məsələlərinin cari ildə də diqqət mərkəzində saxlanılacağını söyləyib.

Ziyafət Əsgərov deyib ki, milli təhlükəsizliyin möhkəmləndirilməsi hər bir dövlət üçün prioritet məsələdir. O vurğulayıb ki, ölkəmizdə də bu istiqamətdə ardıcıl addımlar atılır və müdafiə qabiliyyətinin artırılması daim diqqət mərkəzində saxlanılır. Ziyafət Əsgərov, ümumilikdə 2026-cı ilin dövlət büdcəsinin ölkənin sosial rifahını, iqtisadi sabitliyini və milli təhlükəsizliyini təmin edən, qarşıya qoyulan strateji hədəflərə uyğun sənəd olduğunu bildirib.

Sonra iclasda maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsini diqqətə çatdırıb. O, 2026-cı ilin dövlət büdcəsinin Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətin əsas parametrləri rəhbər tutularaq hazırlandığını vurğulayıb. Həm 2026-cı il, həm də ortamüddətli dövr ərzində bu parametrlərin əsas hədəflərinin müəyyən edildiyini və bu çərçivədə ölkəmizdə makroiqtisadi, monetar və fiskal sabitliyin təmin olunacağanı bildirib. Qeyd edilib ki, büdcə paketi çərçivəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi, habelə əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində tədbirlərin maliyyələşdirilməsi önəmli hesab olunur. Bununla yanaşı, Böyük qayıdış proqramının icrası, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və bərpası, keçmiş məcburi köçkünlərin bu ərazilərə geri qayıtması üçün maliyyə təminatı yaradılıb. Həmçinin iqtisadiyyatın inkişafı, davamlı kapital qoyuluşunun təmin edilməsi, infrastrukturun daha da yaxşılaşdırılması üçün müvafiq təminatlar nəzərdə tutulub.

Əsas makroiqtisadi göstəriciləri təqdim edən Sahil Babayev bildirib ki, icmal büdcənin xərcləri 48,8 milyard manat, dövlət büdcəsinin xərcləri isə 41,7 milyard manat məbləğində müəyyən olunub. Qeyd olunub ki, 2026-cı ildə icmal büdcənin gəlirləri 45 milyard manat, dövlət büdcəsinin gəlirləri isə 38,6 milyard manat təşkil edəcək.

Sahil Babayev vurğulayıb ki, dövlət büdcəsinin 2026-cı il üçün proqnozları və ortamüddətli dövr üçün müəyyən edilmiş çərçivə ölkəmizin sosial-iqtisadi inkişafı üçün bütün vacib parametrləri özündə ehtiva edir.

Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov bildirib ki, Palatanın hazırladığı rəy 2026-cı il üçün dövlət büdcəsinə dair qanun layihəsinin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, həmçinin bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə kənar dövlət maliyyə nəzarəti orqanının mövqeyini ifadə edir. Diqqətə çatdırılıb ki, 2026-cı ilin dövlət büdcəsinin layihəsi ilə bağlı təqdim olunmuş məlumatlarda "Büdcə sistemi haqqında" Qanunda büdcə sisteminin vahidliyi və bu sistemə aid olan büdcələrin müstəqilliyi ilə bağlı təsbit edilmiş tələblər təmin olunub, layihə vahid büdcə təsnifatı tətbiq edilməklə tərtib edilib.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, dövlətin iqtisadi siyasətinin əsas məqsədlərindən biri sosial-iqtisadi potensialın gücləndirilməsi və dayanıqlı inkişafın təmin edilməsidir. O qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə cəlb edilməsi istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. 2021-2025-ci illərdə bu məqsədlə dövlət büdcəsindən 22 milyard manatdan çox vəsait ayrılıb və bu, sosial rifahın yüksəldilməsi və dövlətçiliyin möhkəmləndirilməsi baxımından prioritet sərmayə istiqaməti olaraq qalır.

Nazir müavini əlavə edib ki, 2022-2025-ci illərdə ÜDM-in orta illik artım tempinin 3,3 faiz olacağı, bu artımın isə tamamilə qeyri-neft-qaz sektorunun hesabına təmin ediləcəyi gözlənilir. ÜDM-in orta illik artım tempinin 6,1 faiz təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da sosial-iqtisadi inkişaf strategiyasında müəyyən edilmiş göstəricidən daha yüksəkdir.

Bildirilib ki, cari ilin ilk doqquz ayında əsas kapitala 13 milyard manat investisiya yönəldilib. Qeyri-neft-qaz sektoru üzrə əsas kapitala yatırımlar 7 faiz, özəl qeyri-neft investisiyaları isə 10,8 faiz artıb və bu göstərici qeyri-neft ÜDM-in artım tempini 3,7 faiz üstələyib.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib ki, ölkə Prezidentinin yürütdüyü uğurlu daxili və xarici siyasət, habelə onun rəhbərliyi ilə insan hüquqları sahəsində həyata keçirilən ardıcıl islahatlar və qəbul edilən mühüm qərarlar insan hüquqlarına verilən yüksək dəyəri, beynəlxalq öhdəliklərə sadiqliyi nümayiş etdirir. Ombudsman insan hüquqlarının qorunması sahəsində dövlət qurumlarının fəaliyyətinin, habelə qanunvericiliyin davamlı olaraq təkmilləşdirilməsinin zəruriliyini qeyd edərək, daxil olan müraciətlərin araşdırılması və təhlili prosesində narahatlıq yaradan bəzi məsələlərin gələn ilin dövlət büdcəsində nəzərdə tutulmasına ehtiyac olduğunu söyləyib və bir sıra sahələr üzrə təkliflərini səsləndirib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında bildirib ki ölkədə sabit və proqnozlaşdırıla bilən ictimai-siyasi mühitin mövcudluğu, iqtisadiyyatın dayanıqlı inkişafı, ərazi bütövlüyünün və suverenliyin tam bərpa olunması dövlətin strateji kursunun düzgünlüyünü bir daha təsdiqləyir. Onun sözlərinə görə, eyni zamanda Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzu və regionda formalaşan yeni geosiyasi reallıqlar ölkəmizin investisiyaya cəlbediciliyini artırıb. Komitə sədri əlavə edib ki, gələcək illərdə bu müsbət tendensiyanın daha da güclənəcəyi, yeni investisiyaların cəlb olunacağı və iqtisadiyyatın struktur baxımından daha da möhkəmlənəcəyi gözlənilir. Əli Hüseynli həmçinin növbəti ilin dövlət büdcəsində məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarına ayrılan vəsaitin 4,7 faiz artırılmasını mühüm addım kimi dəyərləndirib. Onun fikrincə, bu artım həmin qurumların maddi-texniki təminatının yaxşılaşdırılmasına və ədalət mühakiməsinin daha effektiv və şəffaf həyata keçirilməsinə töhfə verəcək.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, regionların inkişafı və sosial rifahın qorunması dövlətin uzunmüddətli strategiyasının əsas prioritetlərindəndir və gələn ilin büdcəsində bu istiqamətdə nəzərdə tutulan xərclərin qorunması və artırılması vətəndaşların həyat səviyyəsinin daha da yüksəlməsinə xidmət edəcək. Komitə sədri çıxışında regionların və yerli özünüidarəetmə orqanlarının maliyyə dayanıqlığının gücləndirilməsinin, yerli resursların səmərəli istifadəsinin vacibliyini diqqətə çatdırıb.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev çıxışında qeyd edib ki, 2026-cı ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərclərinin 8 milyard 714,8 milyon manat səviyyəsində müəyyən edilməsi ölkəmizin daxili sabitliyinin, müdafiə qabiliyyətinin və regional təhlükəsizlik siyasətinin möhkəmləndirilməsinə yönəlib. O deyib ki, təhlükəsizlik xərclərinin artırılması sadəcə maliyyə göstəricilərinin böyüməsi deyil, Azərbaycanın qarşısında duran yeni geosiyasi və təhlükəsizlik çağırışlarına adekvat cavabın ifadəsidir. Vurğulanıb ki, 2026-cı il üçün təhlükəsizlik büdcəsinin artırılması, ilk növbədə dövlətimizin qarşısında duran yeni təhlükəsizlik reallıqları və milli maraqlarımızın qorunması baxımından zəruri addımdır.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc gələn ilin Dövlət Büdcəsini bütövlüyün, qayıdışın büdcəsi kimi dəyərləndirib, sənəddə hərbi qüdrətin artırılması, iqtisadi inkişafın davamı və əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması tədbirlərini yüksək qiymətləndirib. Vurğulanıb ki, büdcə həm milli təhlükəsizliyin, həm insan hüquqlarının təmininə, həm də insan kapitalının inkişafına xidmət edən sosialyönümlü sənəddir. Komitə sədri məhkəmə qərarlarının icrası ilə bağlı mövcud vəziyyətə toxunub, son dövrlərdə bu istiqamətdə atılan mühüm addımlardan bəhs edib, sistemin daha səmərəli fəaliyyət göstərməsi, həmçinin məşğulluq sahəsindəki vergi siyasəti ilə bağlı bəzi qeydlərini bildirib.

Parlamentin İntizam komissiyasının sədri Eldar İbrahimov bildirib ki, 2026-cı ilin dövlət büdcəsi Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasını dəstəkləyən, real iqtisadi artımı və sosial rifahı təmin etməyə yönəlmiş sənəddir. Komissiya sədri vurğulayıb ki, qeyri-neft-qaz sektorundan daxilolmaların artımı Azərbaycanın iqtisadiyyatında aparılan islahatların və şaxələndirmə siyasətinin müsbət nəticəsidir. Komissiya sədri gələn ilin büdcəsinin əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, ərzaq təhlükəsizliyinin təmininə və kənd təsərrüfatının inkişafına xüsusi diqqət ayırdığını qeyd edib, gələn ilin büdcəsinin icrasının Azərbaycanın iqtisadi, sosial və təhlükəsizlik dayaqlarını daha da möhkəmləndirəcəyini vurğulayıb.

Təqdim olunan qanun layihəsinin müzakirəsində çıxış edən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, deputatlar Səyyad Aran, Razi Nurullayev, Azər Allahverənov, Səbinə Salmanova, Elman Nəsirov, Kamran Bayramov və Samir Vəliyev növbəti ilin dövlət büdcə layihəsi ilə bağlı fikirlərini açıqlayıblar, bəzi qeydlərini bildiriblər.

Maliyyə naziri Sahil Babayev və iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra gündəlikdəki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarovanın ünvanına Zəfər Günü münasibətilə təbriklər gəlməkdə davam edir

**Azərbaycan Respublikası Milli Məclisinin və parlamentin spikeri Sahibə Qafarovanın ünvanına 8 Noyabr - Zəfər Günü münasibətilə təbriklər gəlməkdə davam edir.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviç, Kamboca Krallığı Milli Assambleyasının Sədri Xuon Sudari, Tolerantlıq və Sülh naminə Qlobal Şuranın Sədri Əhməd Bin Məhəmməd Əlcərvan, Şimali Kipr Türk Cümhuriyyəti Parlamentinin Sədri Ziya Öztürkler, TÜRKPA-nın baş katibi Ramil Həsən, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, İtaliya Deputatlar Palatasının Sədr müavini Giorgio Mule, Malayziya Parlamenti Senatının Sədr müavini, senator Nur Jazlan Mohamed, Macarıstan Parlamentinin vitse-spikeri Lezsak Sandor, Cənubi Afrika Respublikası Parlamentinin Beynəlxalq əlaqələr komitəsinin sədri Hon Supra Mahumapelo, İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, senator Marko Skurria və Senatın üzvü, senator Ernesto Rapani, İtaliya Parlamentinin üzvü Salvatore Kayata, İtaliya Deputatlar Palatasının üzvü Ettore Rosato, Argentina parlamentinin üzvü Marselo Paqano, Kamboca Milli Assambleyasında Azərbaycan üzrə dostluq qrupunun rəhbəri, Assambleyanın Beynəlxalq əlaqələr komitəsinin sədri Sous Yara, Ukrayna Ali Radasının Azərbaycanla dostluq qrupunun həmsədrləri Valeriy Koliux və Volodimir Krediyonko spiker Sahibə Qafarovaya ünvanladıqları məktublarda 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə təbriklərini, xalqımıza sülh və əmin-amanlıq arzularını çatdırırlar.

Məktublarda, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsinin əlamətdar hadisə kimi xalqımızın tarixinə qızıl hərflərlə yazıldığı, xalqımızın milli birliyinin, qətiyyəti və cəsarətinin ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasına imkan verdiyi qeyd edilir.

Həmçinin təbrik məktublarında münaqişənin həll olunmasının regiona sülh və sabitlik gətirdiyi diqqətə çatdırılır. Xüsusilə, bu ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanmasından, həmçinin sülhə dair saziş layihəsinin paraflanmasından bir daha məmnunluq ifadə edilir və bu, onilliklərlə davam edən Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması istiqamətində tarixi addım kimi qiymətləndirilir.

*"Azərbaycan"*

# Qazaxıstan Parlamenti Senatının Sədri Maulen Aşimbayev Zəfər Günü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu göndərib

**Qazaxıstan Parlamenti Senatının Sədri Maulen Aşimbayev 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda Azərbaycanın BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etməsinin ildönümü münasibətilə xoş sözlər ifadə olunur. Bildirilir ki, biz qardaş xalqımızın nailiyyətlərini həmişə sevinclə izləyir və ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da gücləndirilməsinə böyük əhəmiyyət veririk.

Məktubda Qazaxıstan və Azərbaycan arasında ikitərəfli və çoxtərəfli formatlarda parlamentlərarası əməkdaşlığın dostluq və etimad ənənələrinə əsaslanan güclü dövlətlərarası münasibətlərin inkişafına töhfə verməyə davam edəcəyinə əminlik bildirilir.

*"Azərbaycan"*

# Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva Zəfər Günü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu göndərib

**Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr - Zəfər Gününün ildönümü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda 2020-ci ilin payızında baş vermiş 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin Azərbaycan xalqı üçün əvəzsiz nailiyyət olduğu qeyd edilir, ölkənin ərazi bütövlüyünün bərpası uğrunda gedən şiddətli döyüşlərdə ordunun və xalqın yüksək birlik, sarsılmaz iradə nümayiş etdirməsindən məmnunluqla danışılır.

Məktubda Özbəkistan və Azərbaycan arasında qarşılıqlı dostluğa, dərin hörmətə və dövlət başçılarının etimadına əsaslanan strateji tərəfdaşlığın bundan sonra da möhkəmlənəcəyinə dərin inam ifadə olunur.

*"Azərbaycan"*

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana səfərə gəlib



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif noyabrın 7-də Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

# Nazir Fərid Əhmədov Masallı şəhərində vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 7 noyabr tarixində Masallı şəhərində vətəndaşları qəbul edib.**



Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad və Yardımlı rayonlarından, ümumilikdə, 145 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Yunanıstan səfirinin Azərbaycandakı diplomatik fəaliyyəti başa çatır



**Noyabrın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kristo Kapodistrianla ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı nazir Ceyhun Bayramov səfir Kapodistrianın Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin inkişafındakı xidmətlərini yüksək qiymətləndirərək, ona təşəkkür edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfirlə söhbət zamanı son dövrlər ikitərəfli münasibətlərdəki dinamika müsbət qiymətləndirilib. Bu çərçivədə 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29 və eləcə də 2025-ci ilin sentyabrında Nyu York şəhərində BMT Baş Assambleyası çərçivəsində Prezident İlham Əliyev ilə Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis arasında keçirilmiş görüşlərin əhəmiyyəti vurğulanıb.

Ölkələrimiz arasında siyasi dialoqun davam etdirilməsinin ikitərəfli əlaqələrin inkişafı baxımından əhəmiyyət daşıdığı qeyd olunub. İqtisadiyyat, ticarət, investisiyalar, enerji, nəqliyyat-tranzit, turizm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensialın mövcud olduğu diqqətə çatdırılıb.

Səfir Kristo Kapodistria öz növbəsində Yunanıstanın Azərbaycanda səfiri kimi fəaliyyətini xoş təəssüratlarla xatırlayacağını bildirib, ona fəaliyyətində göstərilən dəstəyə görə təşəkkür edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Zəfər Günü ilə bağlı tədbir keçirilib




**Noyabrın 7-də Dövlət Gömrük Komitəsində 8 Noyabr - Zəfər Günü ilə bağlı tədbir keçirilib.**

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə torpaqlarımızın müdafiəsi zamanı canlarından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu davamlı inkişaf strategiyası, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün sahələrdə, xüsusilə ordu quruculuğu istiqamətində həyata keçirdiyi düşünülmüş və qətiyyətli siyasət, ordumuzun rəşadəti, xalqımızın birliyi 44 günlük Vətən müharibəsində tarixi zəfərin qazanılmasına şərait yaratdı. Suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa olunması ilə nəticələnən şanlı qələbəmiz, eyni zamanda tarixi ədalətin bərpası, regional sülhün və inkişafın bərqərar edilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır.

O da qeyd olunub ki, torpaqlarımızın müdafiəsi zamanı canından keçən şəhidlərimizin əziz xatirəsi, qazilərimizin qəhrəmanlıqları hər zaman xalqımızın qəlbində yaşayacaq, gələcək nəsillər üçün nümunə olacaq.

Tədbir çərçivəsində təşkil edilən panel müzakirədə Vətən müharibəsində iştirak edən gömrük əməkdaşları xatirələrini bölüşüblər.

Həmçinin Vətən müharibəsindən, tarixi zəfərimizdən bəhs edən videoçarxlar da nümayiş etdirilib.

# Azərbaycan QHT-ləri müharibənin qalibi və sülhün müəllifi kimi Prezident İlham Əliyevin tarixi missiyasını alqışlayırlar

**Bu günlərdə Azərbaycan QHT-ləri Xankəndidə Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.**

AZƏRTAC xatırladır ki, müraciətdə QHT-lər dövlətimizin başçısının Azərbaycanı qələbədən-qələbəyə aparan siyasətini tam müdafiə edir, müharibənin qalibi və sülhün müəllifi kimi Prezident İlham Əliyevin tarixi missiyasını alqışlayaraq bildiriblər: "Bu il avqustun 8-də keçirilmiş Vaşinqton Zirvə görüşü də sübut edir ki, "Konstitusiya və Suverenlik İli" Azərbaycan tarixinə yeni mərhələnin başlanğıcı kimi düşəcək. Biz Sizinlə fəxr edirik! Şəhidlərimizin qanı, veteranlarımızın şücaəti, xalqımızın birliyi, Sizin güclü liderliyiniz və "dəmir yumruğ"unuz sayəsində əldə edilmiş ərazi bütövlüyü və suverenliyimizi göz bəbəyi kimi qorumaq ilk növbədə vətəndaşlıq borcu, milli şərəfimizdir. Azərbaycan QHT-ləri bu yolda daim mübariz olacaqlar!".

Müraciətdə həmçinin Böyük qayıdışa güclü dəstək ifadə edilir: "Qarabağ və Şərqi Zəngəzurun azad edilməsi, sürətlə dirçəlişi Sizin yürütdüyünüz siyasətin təntənəsi, tarixi bəhrəsidir. İşğaldan azad olunmuş ərazilərdə - 30 il müddətində viran qalmış yerlərdə qısa müddətdə 6 şəhər, 2 qəsəbə və 20 kənd qurulub, 60 minə yaxın insan artıq bu yerlərdə məskunlaşıb, proses sürətlə davam etdirilir. Azərbaycan postmünaqişə bölgəsində şəhərsalma təcrübəsi ilə dünyada bənzərsiz nümunə, model yaradıb".

# Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar.**

AZƏRTAC bəyanatı təqdim edir:

"2020-ci il 27 sentyabr tarixində başlayan Azərbaycan xalqının haqq savaşı - Vətən müharibəsi azərbaycanlıların böyüklüyünü, əzmini və qəhrəmanlığını bütün dünyaya göstərdi. Uzun illər düşmən işğalında olan, torpağının üstü də, altı da talan edilən Qarabağ və Şərqi Zəngəzur əraziləri Vətən müharibəsi Zəfəri ilə öz azadlığına qovuşdu. 44 gün ərzində Azərbaycan Ordusunun cəsur döyüşçüləri öz arxalarında Azərbaycan xalqının tükənməz gücünü və birliyini hiss edərək düşməni - Ermənistan ordusunu darmadağın etdilər və bununla da Qafqazda uzun illər mövcud olan erməni mifini tarixin zülmətinə göndərdilər.

Vətən müharibəsində Azərbaycan xalqının və əzəmətli ordusunun qazandığı Zəfər dövlətçilik tariximizə qızıl hərflərlə həkk olunaraq Azərbaycanın növbəti qələbələrinin açarına çevrildi. Vətən müharibəsi Zəfərindən sonra Azərbaycan dövlətinin humanist, sülhpərvər və tolerant mövqeyi ilə hələ də Qarabağda yaşayan erməni separatçıları və onları qoruduğunu iddia edən silahlı dəstələrin işğaldan azad edilən ərazilərimizdə quruculuq işləri ilə məşğul olan vətəndaşlarımıza qarşı törətdikləri cinayətlər, eləcə də Ermənistanın imzaladığı kapitulyasiya aktında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yönəlik təhdidlərin



davam etməsi 2023-cü ilin 19 sentyabr tarixində başlanan birgünlük antiterror əməliyyatlarını labüd etdi. Milli həmrəyliyin təzahürü olan xalq-ordu birliyinin nəticəsində qalibiyyətlə başa çatan antiterror əməliyyatından sonra Azərbaycanda yer almış separatçı qüvvələrin kökü birdəfəlik kəsildi, tarixən azərbaycanlılara qarşı törətdiyi qanlı cinayətlərin hüquqi müstəvidə cəzasından qorxan ermənilər Azərbaycan dövlətinin ərazisini könüllü şəkildə birdəfəlik tərk etdilər.

Azərbaycan Ordusunun yüksək humanist keyfiyyətlərlə - bir nəfər də olsun sivil şəxsə toxunulmadan şərəf, namus və ləyaqətlə icra etdiyi bu tarixi missiya Azərbaycan dövlətinə tarixində ilk dəfə tam suverenlik qazandırdı. Azərbaycanın yüz illər ərzində apardığı haqq mübarizəsi, Vətən uğrunda verilən qurbanlar Azərbaycan xalqını tarixinin ən böyük Qələbəsinə qovuşdurdu və müzəffər xalqa çevirdi. Azərbaycan indi öz tarixinin ən güclü, şərəfli və məğrur dövrünü yaşamaqdadır.

Bütün dünya azərbaycanlıları dərindən dərk edir ki, 44 günlük Vətən müharibəsinin nəticəsində təkcə ərazi bütövlüyümüz bərpa edilməmiş, eyni zamanda Azərbaycan xalqının qüruru özünə qayıtmış və Azərbaycan dünya dövlətləri sırasında qalib dövlətə çevrilmişdir. Dünya tarixinin ən qarışıq və təhlükələrlə dolu zamanında Azərbaycan xalqının, Azərbaycan Ordusunun və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik tariximizə bəxş etdiyi bu şanlı səhifə daim xatırlanacaq və əbədi yaşayacaqdır.

Bu gün Azərbaycan beynəlxalq miqyasda söz sahibidir. İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda misli görünməmiş sürətlə həyata keçirilən bərpa-quruculuq işləri əzəli torpaqlarımıza həyat bəxş edir, eləcə də bütün dünyaya Azərbaycanın gücünü nümayiş etdirir. Erməni vandalizminin qurbanı olan tarixi abidələrimiz bərpa olunur, 30 il müddətində daşı-daş üstə qalmayan şəhərlər yenidən qurulur, Qarabağın hər bir guşəsinə həyat yenidən qayıdır, Şuşa, Xankəndi, Laçın və digər şəhərlər dünyanın nüfuzlu liderlərinin görüş məkanına çevrilir.

Sevindirici haldır ki, Qarabağda Azərbaycan dövlətinin həyata keçirdiyi quruculuq prosesi dost ölkələrin də yüksək diqqətindədir. Xüsusən türk dövlətlərinin rəhbərlərinin Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə dəstəyi gündən-günə daha da inkişaf edən türk birliyinin simvoluna çevrilir. Dünyanın super dövlətlərinin dəstəyi ilə qısa zamanda fəaliyyətə başlayacaq Zəngəzur dəhlizi layihəsi təkcə Azərbaycanın ərazilərini deyil, bütün türk dünyasını bir-biri ilə bağlayan, Uzaq Şərqi Avropa ilə birləşdirən tarixi İpək yolunun bir parçasına çevrilir.

Dövlətimizin dünya birliyində tutduğu layiqli mövqeyi, qalib dövlət nüfuzunun qorunması istiqamətində atılan böyük addımları yüksək dəyərləndirərək Vətənimiz naminə daim siyasi milli birliyi dəstəkləyən partiyalar xalqımızı və dünya azərbaycanlılarını Zəfər Gününün beşinci ildönümü münasibətilə təbrik edir və hər kəsi güclü Azərbaycan naminə sarsılmaz və daha möhkəm milli birliyə səsləyir.

1. Yeni Azərbaycan Partiyası
2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
3. "Ana Vətən" Partiyası - Fəzail Ağamalı
4. Ədalət, Hüquq, Demokratiya Partiyası - Qüdrət Həsənquliyev
5. Böyük Quruluş Partiyası - Fazil Mustafa
6. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
7. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
8. Milli Cəbhə Partiyası - Razi Nurullayev
9. "Azərbaycan Milli İstiqlal" Partiyası - Arzuxan Əlizadə
10. "Böyük Azərbaycan" Partiyası - Elşad Musayev
11. Haqq Ədalət Partiyası - Əli İnsanov
12. Azərbaycan Ümid Partiyası - İqbal Ağazadə
13. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
14. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
15. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
16. AĞ Partiyası - Tural Abbaslı
17. REAL Partiyası - Natiq Cəfərli
18. Azad Vətən Partiyası - Akif Nağı
19. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
20. Yeni Zaman Partiyası - Musa Ağayev
21. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu
22. Vəhdət Partiyası - Adəm İsmayılov
23. Ədalət Partiyası - Mütəllim Rəhimov.



## AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

**Tariximizi və dövlətçilik irsimizi Zəfərlə şərəfləndirən Vətən müharibəsinin başa çatmasından 5 il ötür. 5 il böyük zaman kəsiyi deyil. Lakin torpaqlarımızın işğaldan azad edilməsindən sonra ötən bu qısa dövrün reallıqları fonunda 44 günlük savaşın və hər bir azərbaycanlıya sonsuz qürur hissi yaşadan şanlı Zəfərin həm Azərbaycan tarixindəki yerini, həm də respublikamızın bu günü və gələcəyi baxımından rolunu və əhəmiyyətini daha dərindən dərk edirik. Çünki möhtərəm Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı və Silahlı Qüvvələrimizin qəhrəmanlığı sayəsində biz sadəcə Ermənistana deyil, onilliklər boyu erməni təəssübünü çəkən Qərb siyasi isteblişmentinə, beynəlxaq münasibətlər sistemində kök salmış ədalətsizliklərə, ikili standartlara qalib gəlmişik.**




# Dövlətçiliyimizi, müstəqilliyimizi və tariximizi qürurlandıran Zəfər

### Qələbənin siyasi, iqtisadi və diplomatik aspektləri

Vətən müharibəsindəki Zəfərimizdən və torpaqlarımızın işğal olunmasından bəhs edərkən hər şeydən əvvəl tariximizi qürurlandıran bu hadisələrin reallaşmasını təmin edən aspektlərə nəzər salmağımız mütləqdir. Çünki bu qalibiyyətin əldə olunması, dövlətimizin haqq işinin uğur qazanması ilk növbədə yaradılmış möhkəm siyasi, diplomatik, iqtisadi və hərbi təməllərə, o cümlədən milli və siyasi həmrəyliyə əsaslandı.

Artıq həllini tapmış Qarabağ məsələsi ilə bağlı həqiqətlər bu problemin hələ ilk vaxtlarından beynəlxalq ictimaiyyətə yaxşı məlum idi. BMT, ATƏT və 1992-ci ildən fəaliyyətdə olan Minsk qrupu, o cümlədən həmsədr dövlətlərin rəhbərləri, ümumilikdə, beynəlxalq siyasi münasibətlərin bütün subyektləri hər zaman əsl gerçəkliklərdən agah olublar. Yəni Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu dünyada bilməyən yox idi. 1991-ci il Alma-Ata Bəyannaməsi ilə Qarabağın Azərbaycan ərazisi olduğu təsbit edilmiş, Azərbaycan bu gerçəkliklər əsasında BMT-yə üzv qəbul olunmuşdu. Habelə 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamədə Ermənistandan işğal etdiyi Azərbaycan ərazilərini dərhal tərk etməsi tələb edilmişdi.

Bir sözlə, Azərbaycanın həqiqətləri masada olsa da, başda Fransa kimi dövlətlər olmaqla erməni təəssübünü çəkən Qərb siyasi dairələri özlərini ikiüzlü apardılar. Onlar obyektiv həqiqətlərə münasibətdə riyakarcasına davrandılar, ikili standartlardan çıxış edərək, dolayısı ilə işğalçıya dəstək verdilər. Qarabağ probleminin tarixində bir dəfə də olmadı ki, Qərb təşkilatları və ya artıq fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistana BMT qətnamələrinin tələblərini yerinə yetirməyə vadar etmək üçün hansısa siyasi təzyiq metodundan istifadə etsinlər. Təəssüf ki, bu, heç vaxt baş vermədi.

Təbii ki, Azərbaycan dövləti və xalqı heç vaxt torpaqlarının işğal altında qalması faktı ilə barışa bilməzdi. 1993-cü ildən respublikamızda başlanan Heydər Əliyev siyasi kursunun da ortaya qoyduğu əsas həqiqətlərdən biri bu idi ki, işğal altında olan torpaqlarımız mütləq azad ediləcək, məcburi köçkünlər öz evlərinə geri dönəcəklər. Ulu Öndər Heydər Əliyev 1998-ci ildə Novruz bayramı münasibətilə Mərdəkandakı "Abşeron" sanatoriyasında məcburi köçkünlərlə görüşündə inamlı şəkildə demişdi: “Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram”.

Başqa bir çıxışında isə Ulu Öndər torpaqlarımızın işğaldan azad olunması ilə bağlı inamını belə ifadə etmişdi: “Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerinə, yurduna qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir”.

Bu inam və əminlik Heydər Əliyevin siyasi təcrübəsinin, uzaqgörənliyinin və gələcəyə strateji baxışlarının nəticəsi olaraq ötən əsrin 90-cı illərindən etibarən torpaqlarımızın azadlığını təmin edəcək möhkəm siyasi, iqtisadi və hərbi bünövrənin yaradılmasından irəli gəlirdi. Ulu Öndərin müəyyən etdiyi strateji xətt Qarabağ probleminin həllinə kompleks yanaşmanı nəzərdə tuturdu. Yəni Heydər Əliyev problemin yoluna qoyulması istiqamətində yalnız ordu quruculuğu ilə kifayətlənmədi. Görkəmli dövlət xadimi kimi həm də təcrübəli strateq olan Heydər Əliyev yaxşı bilirdi ki, torpaqlarımızın azadlığına gedən yol həm də iqtisadi inkişafdan, Azərbaycanın güclü qlobal mövqelərə nail olmasından keçir. Ona görə Ulu Öndər respublikamızın iqtisadi inkişafı ilə bağlı məsələlərə xüsusi diqqət ayırdı, mütərəqqi enerji strategiyasını müəyyən edərək həyata keçirdi, respublikamızın beynəlxalq münasibətlər sistemindəki yerini möhkəmləndirdi. Tarix də göstərir ki, bu cür strateji məqsədlərə nail olunması Azərbaycanın öz milli maraq və mənafelərini qətiyyətlə təmin etməsində və torpaqlarımızın işğaldan azad edilməsinə gedən yolda güclü və effektiv vasitələr kimi özünü göstərdi.

Eyni zamanda məhz Heydər Əliyevin sayəsində sülh danışıqları prosesinin elə bir hüquqi əsasları yaradıldı ki, bu prosesdə istənilən həll variantında Qarabağın Azərbaycan ərazisi olduğu tanındı. Bu baxımdan 1996-cı ilin dekabr ayında Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən ATƏT-in Zirvə toplantısı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində respbulikamızın maraqlarının tam təmin olunduğu siyasi tədbir kimi tarixə düşdü. Ermənistanın etirazlarına baxmayaraq, münaqişənin Azərbaycanın maraqları çərçivəsində nizama salınmasına imkan verən baza formulu məhz bu görüşdə müəyyənləşdi ki, bu da Qarabağın Azərbaycanın ərazisi olduğunu təsbit edirdi.

Bütövlükdə, Azərbaycanın qlobal siyasi və iqtisadi mövqelərinin indiki qədər güclü olmadığı bir tarixi gerçəklikdə, erməni yalanlarının hökm sürdüyü bir konyunktur şəraitdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev Qarabağ probleminin nizama salınması məsələsində Azərbaycanın ədalətli mövqeyini qətiyyətlə qorudu, Qərb siyasi dairələrinin, Minsk qrupunun həmsədrlərinin bütün təzyiqlərini qətiyyətlə dəf etdi. Heydər Əliyev danışıqlar prosesində Azərbaycanın mənafelərinə zidd olan heç bir həll təklifini yaxına buraxmadı. Eyni zamanda məhz Ulu Öndərin respublikamıza prezidentliyi dövründən başlayaraq, Azərbaycan Cənubi Qafqazda Ermənistanın bütün regional iqtisadi inteqrasiya proseslərindən total təcridi siyasətini həyata keçirməyə başladı. Qərbin təzyiqlərinə baxmayaraq, Ermənistan bütün iqtisadi və enerji layihələrindən kənarda saxlanıldı.

### İlham ƏLİYEV: “Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”

Ulu Öndər Heydər Əliyevin torpaqlarımızın işğaldan azad olunması istiqamətində əsasını qoyduğu hərbi, siyasi-diplomatik və iqtisadi bünövrə Prezident İlham Əliyevin liderliyi ilə 2003-cü ildən sonra daha da möhkəmləndirildi. Bu məqamda möhtərəm İlham Əliyevin Azərbaycan Prezidenti kimi ilk dəfə and içərkən etdiyi çıxışında Qarabağ probleminin həlli ilə bağlı nümayiş etdirdiyi mövqeyini xüsusi qeyd etməliyik. Həmin çıxışında cənab İlham Əliyev demişdi: “Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”.

Bu fikirlər ilk növbədə onu göstərirdi ki, birincisi, cənab İlham Əliyevin Prezident kimi fəaliyyəti dövründə Qarabağ probleminin yoluna qoyulması Azərbaycan dövlətinin prioritet vəzifələrindən biri olacaq. İkincisi, cənab İlham Əliyev Prezident kimi ilk dəfə olaraq məhz həmin çıxışında bəyan etdi ki, problemin həllində heç bir güzəştə getməyəcək, Qarabağ ölkəmizin ayrılmaz ərazisi olaraq qalacaq. Üçüncüsü, Prezident İlham Əliyev Ermənistana və ATƏT-in Minsk qrupunun həmsədrlərinə aydın şəkildə ismarış verərək bildirdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan dövləti torpaqlarını müharibə yolu ilə işğaldan azad edəcəkdir.

Bu qətiyyətli və birmənalı mövqe Prezident İlham Əliyevin Vətən müharibəsinin başlanmasına qədər olan dövr ərzindəki fəaliyyətində aydın şəkildə özünü göstərdi. Dövlətimizin başçısı Qarabağ probleminin həlli məsələsində həmişə açıq siyasət apardı, həm sülh danışıqlarına sadiq qaldı, həm də Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılmasını həmişə xüsusi diqqət mərkəzində saxladı. Qürur hissi ilə qeyd etməliyik ki, 2003-cü ildən sonra dinamik vüsət alan iqtisadi inkişafın və enerji layihələrinin işə düşməsi nəticəsində Azərbaycanın artan maliyyə imkanlarının xüsusilə öz təsirini göstərdiyi sahələrdən biri Silahlı Qüvvələrimiz oldu. Cənab İlham Əliyevin respublikamıza hələ birinci müddət prezidentliyi dövründə ordumuzun döyüş qabiliyyətinin artırılması istiqamətində görülən işlər artıq göz önündə idi. Məhz həmin dövrdən etibarən Azərbaycanın dövlət büdcəsindən hərbi məqsədlər üçün ayrılan xərclər 1 milyard manatı ötdü. Hərbi sənaye baxımından inkişaf edən dövlətlərlə, o cümlədən Türkiyə və İsraillə səmərəli əməkdaşlıq ordumuzun ən müasir silah və texnikalarla təchiz edilməsində əvəzsiz rol oynadı. Respublikamızda müasir müdafiə sənayesi kompleksinin yaradılması da ölkəmizin hərbi qüdrətinin yüksəldilməsinə xidmət etdi.

Azərbaycan Prezidentinin müasir ordu quruculuğu istiqamətində atdığı məqsədyönlü addımlar, həyata keçirdiyi kompleks tədbirlər qısa zamanda ordumuzu dünyanın ən qüdrətli Silahlı Qüvvələri sırasında qərarlaşdırdı. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırması idi. Hələ 2008-ci ildə keçirilən hərbi paradda nümayiş etdirilən hərbi texnika Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusu üzərindəki əzici üstünlüyündən xəbər verirdi. 2016-cı ilin Aprel döyüşləri isə bunun ilk praktiki təsdiqi idi. Ermənistan oz ordusu ətrafında miflər yaradanda, məğlubedilməzlik yalanları uyduranda və danışıqlar prosesini imitasiya edəndə Azərbaycan müasir hərbi çağırışlar əsasında ordu quruculuğu həyata keçirdi, sülh prosesinin baş tutmayacağı təqdirdə torpaqlarımızın döyüş yolu ilə azad edilməsi üçün etibarlı zəmin formalaşdırdı. Zaman cənab Prezident İlham Əliyevin nə qədər uzaqgörən siyasət yürütdüyünü təsdiq etdi.

Hərbi quruculuqla yanaşı, Qarabağ probleminin həlli ilə bağlı siyasi-diplomatik sferada aparılan işlər yeni keyfiyyət mərhələsinə yüksəldildi. Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərlə Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyinin müdafiəsini təmin edən hüquqi baza möhkəmləndirildi. Bütün siyasi platformalarda Ermənistan diplomatik küncə sıxışdırıldı. Azərbaycanın yürütdüyü hücum diplomatiyası, o cümlədən informasiya savaşında həyata keçirdiyi sistemli fəaliyyət Ermənistanın işğal siyasətinin bütün səviyyələrdə ifşa olunmasında mühüm rol oynadı. Bunlarla yanaşı, Azərbaycanın uğurla reallaşdırdığı enerji və nəqliyyat siyasəti respublikamızın yalnız regionda deyil, qlobal müstəvidə mövqelərini daha da möhkəmləndirdi, Bakının strateji tərəfdaşlarının sayını artırdı. Bu sırada Azərbaycanın hələ Vətən müharibəsindən əvvəl Qoşulmama Hərəkatına sədrliyi dövründə həyata keçirdiyi fəaliyyəti xüsusi qeyd etməliyik. Məlum olduğu kimi, məhz bu çərçivədə görülən işlər Vətən müharibəsi günlərində Fransanın BMT səviyyəsində Azərbaycana qarşı qərarların qəbul edilməsinin qarşısını almışdı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq.

Torpaqlarımızın işğaldan azadlığına gedən yolda ən böyük uğurlardan biri Azərbaycanın iqtisadi inkişafı oldu. Azərbaycanın iqtisadi baxımdan heç bir kənar təsirdən asılı olmaması, etibarlı maliyyə dayaqlarını yaratması ölkəmizin Ermənistan qarşısındakı üstünlüyünü təmin edən əsas faktorlardan biri kimi özünü göstərdi. İqtisadi inkişafın nəticəsi olaraq respublikamızda həyata keçirilən quruculuq işləri, xüsusən cəbhəyanı rayonlarda yaradılan müasir səhiyyə və yol infrastrukturu da ərazilərimizin işğaldan azad olunmasına aparan yolun mühüm elementləri idi. Bu yollar ordumuzun sürətli hərəkətini təmin etdi, cəbhəyanı rayonlarda inşa olunan müasir xəstəxanalar isə müharibə günlərində yaralı hərbçilərimizi yenidən həyata qaytardılar.

Bütövlükdə, 2003-2020-ci illərin siyasi və iqtisadi mənzərəsi göstərir ki, Azərbaycan dövləti torpaqlarının işğaldan azad olunması üçün bütün müstəviləri əhatə edən komleks fəaliyyət həyata keçirib ki, bu da milli maraqları rəhbər tutan məqsədyönlü və uzaqgörən siyasi kursdan xəbər verir.

### Yenilməz qətiyyətin təcəssümü

Azərbaycan danışıqlar prosesində sonadək səbir etdi. Lakin İrəvanın bu prosesi imitasiya etməsi, destruktiv və qeyri-adekvat davranışları, davamlı şəkildə hərbi-siyasi təxribatlar törətməsi göstərirdi ki, danışıqların aparılmasının artıq mənası yoxdur. Xüsusən 2019-cu ildə Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” deməsi, danışıqların formatının dəyişdirilməsindən və prosesə separatçı rejimin cəlb edilməsindən dəm vurması, 2020-ci ilin iyul ayında Tovuz rayonu istiqamətində hərbi təxribatın törədilməsi, avqust ayında Ermənistanın Azərbaycan ərazisinə diversiya-kəşfiyyat qrupu göndərməyə cəhd etməsi, könüllü hərbi birliklər yaratması, cəbhə xəttinə yeni hərbi qüvvələr cəmləşdirməsi, Azərbaycanın işğal altındakı ərazilərində xaricdən gətirilən ermənilərin qanunsuz məskunlaşdırılması, Ermənistanın keçmiş müdafiə naziri tərəfindən “Yeni ərazilər üçün yeni müharibə” konsepsiyasının irəli sürülməsi göstərirdi ki, İrəvan sülhdə yox, təcavüzkar siyasətini davam etdirməkdə maraqlıdır.

Prezident İlham Əliyev 2020-ci il sentyabrın 21-də BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasında və bundan 3 gün sonra keçirilən BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında bütün bunlar barədə danışaraq, təcavüzkar ritorika və təxribatların Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirdiyini bildirdi. BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edən Azərbaycan Prezidenti təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bəyan etdi. 2020-ci il sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşdə isə Prezident İlham Əliyev xəbərdarlıq edərək bildirdi ki, əgər Ermənistan hücum etsə, peşman olacaq: “Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar”.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra baş verənlər Prezident İlham Əliyevin bu xəbərdarlığının sözün bütün mənalarında həyata vəsiqə aldığını təsdiq etdi. Öncə onu qeyd edək ki, həmin gün Silahlı Qüvvələrimizin başlatdığı “dəmir yumruq” əməliyyatı Azərbaycan dövlətinin hamılıqla qəbul edilmiş beynəlxalq sənədlərlə, o cümlədən BMT Nizamnaməsinin 51-ci maddəsi ilə təsbit olunmuş hüquqlarının təmin edilməsi üçün atdığı legitim addım idi. Beynəlxalq hüquqa tam riayət etməklə başladılan əks-hücum əməliyyatı və cavab tədbirləri ilk saatlardan düşmənin onilliklər boyu möhkəmləndirdiyi mövqelərinin yarılması və ərazilərimizin işğaldan azad edilməsi ilə nəticələndi. Müharibənin ilk günündə Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdulrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri, o cümlədən Kəlbəcər istiqamətində bir sıra mövqelər düşməndən azad olundu.

Müharibənin ilk saatlarından bütün dünya Prezident İlham Əliyevin yenilməz qətiyyətinə şahidlik etdi. Məlum olduğu kimi, müharibə başlayan kimi əsl simasını ortaya qoyan Fransanın siyasi rəhbərliyi və erməni təəssübünü çəkən digər siyasi mərkəzlər Azərbaycanı qondarma iddialarla ittiham etməyə başladılar, öz açıqlamaları, telefon zəngləri, digər ölkələrin rəhbərləri ilə apardığı danışıqlarla Azərbaycana qarşı təzyiq yolunu tutdular. Lakin Prezident İlham Əliyev sübut etdi ki, heç bir siyasi təzyiq onu yolundan döndərə, torpaqlarımızın işğaldan azad edilməsinin qarşısını ala bilməz. Bu baxımdan Vətən müharibəsi dövründə Prezident İlham Əliyevin qətiyyətli Ali Baş Komandanlığı ilə yanaşı, yürütdüyü müdrik siyasi-diplomatiya torpaqlarımızın işğaldan azad olunmasının və tarixi qələbəmizin əsasında dayanan mühüm faktor oldu. Dövlətimizin başçısının müharibənin gedişində Rusiyanın, “Rossiya-1, “Pervıy”, RBK televiziya kanallarına, “Ria Novosti”, TASS və “İnterfaks” agentliklərinə, Türkiyənin “TRT Haber”, CNN-Türk, “Haber Global”, “Haber Türk”, NTV, “A Haber” televiziyalarına, Fransanın “Sky News”, “France 24” televiziyalarına, “Figaro” qəzetinə, Almaniyanın ARD televiziyasına, Yaponiyanın “Nikkei” qəzetinə, ABŞ-nin “Fox News” televiziyasına, İtaliyanın “Rai-1” televiziyasına və “La Repubblica” qəzetinə, İspaniyanın EFE informasiya agentliyinə, dünyada yüz milyonlarla izləyicisi olan “Əl-Cəzirə”, “Əl-Ərəbiyə”, “Euronews”, “CNN International”, “BBC News” kimi televiziya kanallarına müsahibələrində respublikamızın beynəlxalq hüquq normalarından irəli gələn mövqeyini beynəlxalq auditoriyaya çatdırdı. Bu müsahibələrlə cənab İlham Əliyev həm də erməni yalanlarına qarşı informasiya savaşında Azərbaycanı qalib etdi, beynəlxalq müstəvidə ölkəmizə qarşı siyasi-diplomatik cəbhənin yaradılmasına imkan vermədi.

### Milli qürurumuzu ucaldan şərəf tariximiz

44 gün ərzində hər gün cəbhədən qələbə xəbərləri gəldi. Azərbaycan tarixinin ən şərəfli səhifələrinin müəllifinə çevrilən Prezident İlham Əliyevin rayonlarımızın, şəhər və kəndlərimizin azad edilməsi ilə bağlı müjdələri ölkədə bayrama döndü. “Dəmir yumruq” hücum əməliyyatını peşəkarlıqla yerinə yetirən ordumuz müharibə günlərində dayanmadan irəlilədi, hər bir uğurlu əməliyyat Vətən savaşının əlamətdar hadisəsi oldu. Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə şəhər və kəndlərimiz azad olunduqca bütün dünya Silahlı Qüvvələrimizin gücünə, peşəkarlığına, əsgər və zabitlərimizin yüksək döyüş əzminə, vətənpərvərliyinə, Azərbaycan cəmiyyətindəki milli və siyasi həmrəyliyə şahidlik etdi. Döyüşən oğullarımız bu savaşda sözün bütün mənalarında qəhrəmanlıq dastanı yazdılar, bu yolda şəhidlik məqamına ucaldılar. Vətən uğrunda canından keçən gənclərimiz Qarabağı heç vaxt görməmişdilər. Amma hər biri layiqli, məsuliyyətli, vətənpərvər vətəndaş kimi formalaşmışdı və onların qarşısında düşmən heç vaxt duruş gətirə bilməzdi. Zəfər Günündə şəhidlərimizin xatirəsini bir daha ehtiramla yad edir, qazilərimizə şəfa diləyirik.

Azərbaycan Silahlı Qüvvələrinin 2020-ci il sentyabrın 27-də başlatdığı uğurlu əks-hücum əməliyyatı nəticəsində 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi müharibənin gedişində həlledici mərhələ oldu. Şuşanın azad edilməsindən sonra Ermənistanın kapitulyasiya etməkdən və noyabrın 10-da Azərbaycanın şərtləri əsasında hazırlanan üçtərəfli Bəyanata imza atmaqdan başqa yolu qalmadı.

Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfərlə Prezident İlham Əliyevin hələ 2003-cü ildə söylədiyi “Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir” sözləri real həyatda təcəssümünü tapdı. Azərbaycanı təhdid edən, ölkəmizə qarşı şərtlər irəli sürən, vaxtı uzatmaqla işğala daha güclü beynəlxalq dəstək almaq istəyən Ermənistan döyüş yolu ilə torpaqlarımızdan qovuldu.

Vətən savaşının nəticəsi olaraq Azərbaycan yeni reallıq yaratdı. Əsas reallıq əlbəttə ki, torpaqlarımızın işğaldan azad olunmasıdır. Eyni zamanda bəzi beynəlxalq təşkilatların və dövlətlərin Ermənistanın işğal siyasətinə dəstək verən mövqelərinə tutarlı zərbə vuruldu. Azərbaycan yalnız Ermənistana deyil, erməni təəssübkeşi olan kollektiv Qərbə qalib gəldi.

2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyətinin və bölgədə yaranmış yeni reallığın hüquqi-siyasi təsdiqidir. Bu sənəd həm də regionda artıq bərqərar edilən sülhün və təhlükəsizliyin zəmanəti, siyasi bazasıdır. Bu sənədə imza atmaqla Ermənistan bir dövlət olaraq öz üzərinə öhdəliklər götürdü. Həmin öhdəliklərin bir qismi, o cümlədən Ağdam, Kəlbəcər və Laçın rayonlarından işğalçı ordunun qalıqlarının çıxarılması 2020-ci ilin noyabr və dekabr aylarında təmin olundu.

2023-cü ilin sentyabrında isə Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Ermənistanın üçtərəfli Bəyanatla üzərinə götürdüyü digər öhdəlik - erməni silahlı qüvvələrinin Qarabağı tərk etməsi məsələsi döyüş yolu ilə təmin olundu. Bununla həm də Vətən müharibəsindəki Zəfər yürüşünün davamı olaraq respublikamızın ərazisində erməni separatçılığına son qoyuldu, Qarabağ iqtisadi rayonunda Azərbaycanın konstitusiya quruluşu bərqərar edildi.

Azərbaycan Respublikası torpaqlarının işğaldan azadlığı üçün sistemli şəkildə bütün sahələrdə hazırlıq işləri həyata keçirdi və uğurlu nəticə üçün zəmin formalaşdırdı. Cəmi 44 gün ərzində Ermənistanın diz çökdürülməsi və qazanılan möhtəşəm zəfər bu hazırlığın siyasi-iqtisadi və strateji baxımdan necə yüksək peşəkarlıqla və həm də böyük təmkin və səbirlə həyata keçirildiyini nümayiş etdirir.

*Azərbaycan xalqı 8 Noyabr - Zəfər Gününü böyük təntənə və fəxrlə qarşılayır. Zəfər Günü dövlətçiliyimizin parlaq səhifəsi və milli qürurumuzu ucaldan şərəf tariximizdir. Zəfərimizin baş memarı olan cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu şanlı tarix üzərində həm də dövlətimizin yeni uğurlarına imza atır. Bu ilin avqustunda Vaşinqtonda əldə edilən razılaşmalar əsasında Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin paraflanması, ATƏT-in Minsk qrupu və onunla əlaqəli strukturların ləğv edilməsi, Ermənistanın Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə öhdəlik götürməsi göstərir ki, Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyan möhtərəm Prezident İlham Əliyevin liderliyi ilə həm də regionda sülh və etimad quruculuğu prosesi uğurla davam etdirilir.*

**Ziyafət ƏSGƏROV,**
***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL




# "Dəmir yumruğ"un yaratdığı əsl reallıq

Dünya böyükdür.

**Bu böyük dünyada böyük haqsızlıqlar və ədalətsizliklər də baş verir!**

**Bu ədalətsizlikləri güclü dövlətlər edirlər!**

Müxtəlif üsullarla, müxtəlif vasitələrlə, müxtəlif niyyətlərlə.

Bəzən öz niyyətlərinə çatmaq üçün birbaşa, açıq şəkildə hərəkət edir, bəzən isə əlaltılarını qabağa verərək özləri arxada dayanırlar.

*Bu oyunbazlıqlar qısa müddətdə də davam edə bilir, hərdən isə onilliklərlə uzanır.*

Nəticə eynidir:

- Uzaqgörən maraqlarını təmin etmək.
- Xalqların sərvətlərini əllərindən alaraq mənimsəmək.
- Hansısa dövlətə qarşı daimi təzyiq vasitəsi yaratmaq.
- İstənilən vaxt hərbi əməliyyatlara başlayaraq cızığından çıxan və ya çıxmaq istəyənləri cəzalandırmaq və s.

**Bəzən müharibələr dünyanın xəritəsini dəyişir!**

**Sənin olmayanı səninki edir və ya səninkini əlindən çıxarır!**

Güclülər, dünyaya meydan oxuyanlar həmişə güclü və imkanlı qalmırlar!

*Bir zamanlar Makedoniyalı İsgəndər dünya ağalığı niyyətinə düşmüşdü!*

Xeyli dövlətləri də işğal etdi!

İndi onun yaratdığı imperiya hanı?!

*Bir zamanlar monqollar dünyaya qan uddururdular!*

İndi qılıncla dünyanı özünə tabe etmək istəyən monqollar hanı?!

*Hitler də dünya hökmranlığı niyyətinə düşmüşdü!*

Aqibəti necə oldu?!

*Rusiya da Sovetlər İttifaqı (SSRİ) adlı bir superdövlət yaradaraq on dörd dövləti "müttəfiq respublika", "bərabər hüquq" adı ilə özünə birləşdirib hamısının taleyini özü həll edirdi!*

Superdövlət sayılan SSRİ necə oldu?!

**Dünya dəyişsə də, çoxsaylı yeniliklər baş versə də, bəzən iddialılar köhnə niyyətlərindən və köhnəlmiş üsullarından əl çəkmək istəmirlər!**

Nəticədə xalqlar və dövlətlər belə iddialılardan əziyyət çəkirlər, böyük itkilərə və dağıntılara məruz qalırlar, insanlar dünyadan vaxtsız gedirlər.

O şeylərə ki sülhlə, əməkdaşlıqla, qarşılıqlı əlaqələrlə və ticarətlə nail olmaq mümkündür, onu qan tökməklə əldə etmək istəyirlər.

Bu isə heç həmin dövlətlərin özlərinə və xalqlarına da xoşbəxtlik və səadət gətirmir!

Sadəcə zamana ehtiyac var!

Dünya fatehlərinin və dünyaya ağalıq etmək istəyənlərin sonunu bir daha yada salaq!

❖ ❖ ❖

Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan əlverişli geosiyasi mövqeyə, zəngin yeraltı və yerüstü sərvətlərə malikdir.

Çar Rusiyasının İranı məğlub edərək Azərbaycana sahib çıxmasından sonra buranın qara günləri başladı.

Türkiyəyə xəyanət edərək oradan qovulan, yurd-yuvası, vətəni olmayan, dünyanın müxtəlif ölkələrinə səpələnərək qaraçı həyatı yaşayan ermənilərin Azərbaycan ərazilərində yerləşdirilməsi və bizim torpaqlar hesabına onlara dövlət yaradılması buraların növrağını pozdu.

**Əlbəttə, Rusiya erməniləri çox istədiyi üçün onlara dövlət yaratmırdı!**

**Həmin gündən onu öz əlaltısına, alətinə çevirirdi!**

*Cənubi Qafqazda yaradılan yeni dövlətin isə bir neçə təyinatı vardı.*

Əvvəla, bu, Türkiyə əleyhinə idi və yeni dövlətin ərazisində qurulan rus hərbi bazası təhdid xarakteri daşıyırdı.

İkincisi, vassal dövlət türk dünyasına qarşı idi və türk dövlətlərinin quru yolla əlaqələrini kəsməklə onları bir-birindən ayırmaq, birliklərini parçalamaq niyyətini güdürdülər.

Üçüncüsü, bu, Azərbaycana qarşı idi, daim ölkəmizi təhdid altında saxlamaq, müstəqillik fikrinə düşən kimi cəzalandırmaq və ərazi qoparmaq, belə yağlı tikəni əldən buraxmamaq planından irəli gəlirdi.

Dördüncüsü, Ermənistan vasitəsilə bu bölgədə qalmaq, öz maraqlarını təmin etmək məkrindən irəli gəlirdi.

Beşincisi, belə vəziyyətdə istənilən vaxt Cənubi Qafqazda sabitliyi pozmaq, məkrli planları işə salmaq mümkün olurdu.

Ən nəhayət, burada daimi münaqişə ocağı yaratmaq, bu münaqişə vasitəsilə həm Ermənistanı, həm də Azərbaycanı təsir altında saxlamaq kimi hiyləyə hesablanmışdı.

**SSRİ dağıldıqdan sonra iki əsr əvvəl bölgədə basdırılan gecpartlayan bombanın işə salınmasına ehtiyac yarandı.**

❖ ❖ ❖

*Ermənistan bütün parametrlər üzrə Azərbaycandan qat-qat geridə qalan marionet dövlətdir.*

**Ərazicə bizdən qat-qat kiçik, əhalicə qat-qat az, təbii sərvətlər baxımından xeyli kasıb, coğrafi sarıdan isə istənilən zaman dalana salınacaq bir dövlət!**

- Ermənistan heç vaxt bizə öz ağzı ilə hürməyib!
- Ermənistan heç zaman bizimlə təkbaşına müharibə aparmayıb!
- Ermənistan təkbaşına bizdən ərazi qoparmayıb!
- Ermənistan bizim torpaqları öz gücünə otuz il işğalda saxlamayıb!

**Bunuları Ermənistan üçün dostları və havadarları ediblər!**

Ermənilər pərpətöyün toxumu kimi bütün dünyaya səpələniblər.

*Düşdükləri yerdə saylarını sürətlə artırır, əlbir hərəkət edir, hər ay pul ödəməklə müəyyən fond yaradır, bu fonddakı məbləğdən rüşvət verərək vəzifələrə keçir, dövlət məmurlarını, parlament üzvlərini satın alır, konqres və senatlarda, Avropa İttifaqı və AŞ PA-da öz xeyirlərinə qərarlar qəbul etdirir, prezident seçkilərində səslərini öz planlarını gerçəkləşdirə biləcək namizədlərə verir, bu yollarla olduqları dövlətlərin, yaşadıqları ölkələrin siyasətinə ciddi təsir göstərə bilirlər.*

**Müxtəlif ölkələrdəki erməni diasporları daim bir-birləri ilə əlaqə saxlayır, lazım gələndə əlbir hərəkət edirlər.**

**Buna dünya erməniliyi deyilir!**

44 günlük Zəfər müharibəsində Azərbaycanın məğlubiyyətə uğratdığı ən böyük düşməni dünya erməniliyi idi.

❖ ❖ ❖

- Azərbaycan niyə hərb variantına keçdi?
  ÇÜNKİ:
- BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnaməni icra etmirdi!
- ATƏT-in Minsk qrupu sülh yaratmaq əvəzinə sülh danışıqlarını uzatmaqla Azərbaycanı işğalla barışdırmaq niyyəti güdürdü!
- Beynəlxalq hüquq ayaqlar altında tapdalanırdı!
- Beynəlxalq təşkilatlar yaxalarını kənara çəkərək münaqişə tərəflərinə "siz hansı qərara gəlsəniz, biz onu müdafiə edəcəyik" deyirdi!
- ATƏT-in həmsədr dövlətləri münaqişə tərəflərini sülhə gətirmək əvəzinə Ermənistanı açıq və gizli şəkildə dəstəklədilər, ona müntəzəm şəkildə maliyyə, silah-sursat yardımı göstərdilər, beynəlxalq təşkilatlarda maraqlarını müdafiə etdilər!
- İşğalçı dövlətə heç bir təsir və təzyiq göstərilmədi, ona qarşı sanksiya tətbiq olunmadı!
- Ermənistanın Baş naziri N.Paşinyan isə "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh danışıqlarının mənasızlığını və həqiqi niyyətlərini ortaya qoydu!
- Üstəlik, Ermənistan Azərbaycana hədə-qorxu gəlməyə, "yeni müharibə yeni ərazilər olacaq" söyləyərək təhdid etməyə, Tovuz bölgəsində təxribatlar törətməyə başladı!

*Bütün bunların nəticəsində Azərbaycanın öz ərazilərini hərbi yolla azad etməkdən başqa yolu qalmadı!*

**Bütün baş verənləri, habelə nəyi nə vaxt və necə etməyi hamıdan gözəl bilən Azərbaycan Prezidenti cənab İlham Əliyev hamının çoxdan gözlədiyi "İrəli!" əmrini verməli oldu!**

Beləliklə, erməni azğınlığı və quduрğanlığı, torpaqları dinc yolla qaytarmaq istəməməsi səbəbindən İkinci Qarabağ müharibəsi başlandı!

❖ ❖ ❖

*Azərbaycanın yeni tarixinin başlanğıcı sayılan 44 günlük Zəfər müharibəsi heç zaman heç bir azərbaycanlının yadından çıxmayacaqdır!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu müharibənin anonsunu hələ dördgünlük Aprel müharibəsində vermişdi.**

*Çox qısa müddətdə davam etsə də, düşmənə böyük itkilər yaşadan, bir sıra vacib strateji mövqelərin geri qaytarılması ilə nəticələnən hərbi əməliyyatların gedişi və nəticələri göstərdi ki, artıq Azərbaycan yeni ordu yaradıb, yeni silahlara sahibdir və yeni müharibə aparacaqdır!*

Lakin ermənilər hələ də Birinci Qarabağ müharibəsinin eyforiyasını yaşayırdılar!

Hələ də özlərini "məğlubedilməz xalq", ordularını isə "məğlubedilməz ordu" hesab edirdilər.

Həm də təkcə özlərinə güvənmirdilər!

Çünki Rusiya daim onlara kifayət qədər pulsuz silah-sursat verir, erməni diasporları maliyyə yardımı göstərir, dünya erməniliyi beynəlxalq qurumlarda maraqlarını qoruyurdu.

**Ən əsası, belə hesab edirdilər ki, yeni müharibə başlayan kimi yenə 102-ci hərbi bazanın zabitləri köməyə gələcək, oradakı silahlar onların sərəncamına veriləcək, ən əsası, təkcə Rusiya deyil, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) onların əvəzinə Azərbaycanla döyüşərək torpaqları işğalda saxlamalarında yardım edəcəklər.**

Unutmuşdular ki, müharibə Azərbaycanın ərazisində gedir və Azərbaycan bu döyüşlərdə həm də BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin də icraçısıdır.

*Üstəlik, Azərbaycan yeni ordusu, yeni silahları ilə döyüşəcək, bu müharibə Birinci Qarabağ müharibəsinə bənzəməyəcək, yeni taktika və strategiya tətbiq olunmaqla XXI əsrin yeni müharibəsi aparılacaq, dünya müharibələri tarixində yeni səhifəyə çevriləcəkdir!*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hərbi əməliyyatlar başlayan günü xalqa 27 sentyabr 2020-ci il tarixli müraciətində müharibənin siyasi-nəzəri aspektini aydın şəkildə göstərdi:**

*"Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır".*

Həm də son hədəfi də dəqiqləşdirirdi:

*"Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!"*

**Hərbi əməliyyatların ilk günlərindən Azərbaycan Ordusu həm Ermənistanı, həm də onların havadarlarını və müdafiəçilərini çaşbaş vəziyyətə saldı.**

Ötən əsrin doxsanıncı illərində Ermənistan Rusiyanın ona bağışladığı və 102-ci bazadan əldə etdiyi zirehli texnika, top və "Qrad" qurğuları ilə silahsız Azərbaycanın yaşayış məntəqələrinə hücumlar edir, dinc əhalini daim atəş altında saxlamaqla vahimə yaradır, sonra isə soyqırımları törədərək kəndləri və şəhərləri boşaldırdılar.

Silahsız insanlara qarşı belə vəhşiliklər və qəddarlıqlar müdafiəsiz insanların canlarını götürərək qaçması, Qarabağın sürətlə boşalması ilə nəticələnirdi.

Ermənilər isə bunu şəxsi qəhrəmanlıqları, "məğlubedilməzlikləri" kimi başa düşürdülər.

İkinci Qarabağ müharibəsində isə daş qayaya rast gəlmişdi!

Ermənistan ordusu hücumu Ağdam-Laçın-Kəlbəcər istiqamətindən gözləyirdi...

Yerli relyefdən istifadə etməklə burada altıqat - "Ohanyan xətti", dərin xəndəklər, səngərlər, mina sahələri, tikanlı məftillər, atəş nöqtələrindən ibarət müdafiə sistemi yaradılmışdı.

Düşmən elə ilk hücumdaca Azərbaycan Ordusuna ciddi tələfat yaşadacağını, sonra özü əks-hücuma keçərək darmadağın edəcəyini, Azərbaycan tərəfinin ondan aman diləyəcəyini və bütün şərtlərini qəbul edəcəyini gözləyirdi.

Sən öz saydığını say...

**Azərbaycan Ordusu isə doxsanıncı illərin müharibəsini aparmırdı, Aprel müharibəsində başladıqlarını davam etdirirdi!**

Ağdam istiqamətindən hücum görüntüsü yaratmaqdan ötrü böyük miqdarda canlı qüvvə saxlasa da, sərhəd boyu sürətlə irəliləyir, bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını azad edirdi.

Təkcə yerdə döyüşmürdü!

*Göydən erməni hərbçilərinin başına od yağdırır, PUA-lar və dəqiq artilleriya zərbələri ilə düşmənin atəş nöqtələrini, canlı qüvvəsini, zirehli texnikasını, silah-sursat anbarlarını göyə sovururdu!*

**Bu, əslində, İlham Əliyevin tətbiq etdiyi yeni strategiya və taktika, bütövlükdə isə XXI əsrin ən yeni müharibəsi idi!**

Həm də bu müharibə təkcə hərb meydanında getmirdi.

*Dünya erməniliyi bizə qarşı informasiya savaşı da açmışdı.*

Dünya KİV-i, informasiya agentlikləri, telekanallar və qəzetlər Azərbaycana öz nümayəndələrini göndərir, əksəriyyəti ermənipərəst mövqedən çıxış edən müxbirlər isə qərəzli suallarla Azərbaycan haqqında mənfi rəy yaratmaq, həqiqəti təhrif edərək bizə qara yaxmaqdan ötrü əldən-ayaqdan gedirdilər.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi əməliyyatlar dövründə otuzdan çox KİV və telekanal müxbiri ilə görüşərək onların suallarını cavablandırdı, feyk xəbərləri ifşa edərək əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırdı, bizə qarşı qərəzli və ədalətsiz olanları yerlərində oturdaraq onların öz tribunalarından istifadə etməklə real vəziyyəti konkret faktlarla açıqladı.**

*Otuz il ərzində Azərbaycan xalqının pozulan hüquqlarını görməyən, torpaqlarımızın işğalda qalmasının fərqində olmayan bir sıra dövlət başçıları isə dalbadal Azərbaycan Prezidentinə zənglər edərək hərbi əməliyyatların dayandırılmasını xahiş edir, təkid edir, hətta bəzən təhdidə belə keçirdilər...*

**Lakin bütün bunlar İlham Əliyevin polad iradəsini və qətiyyətini sarsıda bilməzdi.**

*Azərbaycan Prezidenti təkcə hərb meydanının deyil, informasiya və diplomatiya cəbhəsinin də əsl qəhrəmanına çevrildi!*

❖ ❖ ❖

Müharibə bir çoxunun da əsl simasını açaraq olduğu kimi göstərdi.

Hərbi əməliyyatlar başlayandan bitənədək Rusiyadan Ermənistana dayanmadan silah-sursat daşındı.

Guya bunun Rusiya dövlətinə dəxli yoxuymuş və hansısa ermənəsilli milyarder haradansa silah-sursat taparaq icarəyə götürdüyü təyyarələrlə Ermənistana çatdırırmış.

Lap xalq nağıllarında olduğu kimi...

Silah-sursat küçəyə tökülüb qalıbmış ki, hansısa bir erməni onları yığıb-yığışdıraraq ölkədən çıxarır və kimsənin bundan xəbəri olmur?..

İranlı "bəradərlərimizin" də səsi ucaldı.

Onlar təkcə öz səmalarını Ermənistana silah daşıyan təyyarələrin üzünə açmadılar, həm də "Ermənistanın sərhədlərinin pozulması" ilə bağlı bizə "qırmızı xətt" də elan etdilər!

Ən əsası, müharibə dövründə Qarabağda bizə qarşı vuruşan düşmən texnikasını yanacaqsız qoymadılar!

Fransa isə dəfələrlə BMT-də əleyhimizə qərarlar qəbul etdirməkdən ötrü çabalar göstərsə də, cənab İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi dövründə ölkəmizə qazandırdığı dostlar bu mənfur niyyətin qarşısını aldılar.

Azərbaycan Ordusu isə qəhrəmanlıqla vuruşaraq sürətlə irəliləyir, xalqımızın qisasını döyüş meydanında alaraq kənd və şəhərlərimizi geri qaytarırdı.

❖ ❖ ❖

- Şuşanın Azərbaycan tarixində xüsusi yeri var.
- Şuşa bizim qədim, tarixi şəhərimizdir.
- Şuşa nəinki Azərbaycanın, bütün Qarabağın incisidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad edilmə xəbərini xalqımıza böyük sevinc, böyük qürur və fəxarət hissi ilə çatdırdı:

*"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm".*

*"28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq".*

**Şuşanın azad olunmasının daha bir rəmzi mənası da vardı.**

**Ulu Öndər Heydər Əliyevin müqəddəs vəsiyyətlərindən biri də Şuşa ilə bağlı olub!**

*Xalqına müraciətində Müzəffər Ali Baş Komandan İlham Əliyev bu məqamı da xatırlatdı:*

*"Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"*

**Şuşanı azad etməklə Azərbaycan Ordusu qarşısına qoyduğu ən böyük hədəflərdən birinə çatmış oldu!**

*Əslində, bu həm də Ermənistan ordusunun mühasirəyə salınması demək idi!*

*Bundan sonra düşmənin təslim olmaqdan, ağ bayraq qaldıraraq yalvarmaqdan başqa çarəsi qalmırdı!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa ilə bağlı tarixi müraciətini artıq məşhurlaşan kəlamı ilə başa çatdırdı:**

*"Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"*

❖ ❖ ❖

Artıq yeni yaradılan Azərbaycan Ordusunun qüdrətini, yeni texnologiyalara əsaslanan silahlarımızın dəqiqliyini və dağıdıcılıq imkanlarını müharibə meydanında görən, böyük itkilər yaşayan və on iki min əsgəri fərariyə çevrilən Ermənistan müharibənin dayandırılması, mühasirədə qalan iyirmiminlik ordusunun xilas edilməsi üçün havadarlarına yalvarır, kapitulyasiyaya hazır olduğunu bildirirdi.

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin ilk tələbi bu oldu:**

**Ermənistan öz qoşunlarının Azərbaycan ərazisindən çıxarılması qrafikini təqdim etməlidir!**

*Azərbaycan Prezidentinin bütün şərtləri yerinə yetirildi və onun tələbləri əsasında Rusiya Prezidenti V.Putinin vasitəçiliyi ilə 10 noyabr 2020-ci ildə kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanat imzalandı.*

❖ ❖ ❖

Üçtərəfli Bəyanatın 2-ci və 6-cı bəndləri Ağdam, Laçın və Kəlbəcər rayonlarının geri qaytarılması ilə bağlı idi.

Ermənistan Laçın və Kəlbəcəri geri qaytarmaq fikrində deyildi.

Kəlbəcərə də ayrıca yol çəkərək özünə birləşdirmişdi!

Hər iki rayonu keçmiş DQMV-yə qataraq "Artsax" respublikası yaratmaq niyyətində idi.

Ağdamda isə ən çox müdafiə istehkamları quraraq, ən böyük mina sahələri yaratmışdı.

Lakin bu üç böyük rayonu bir güllə atılmadan geri qaytarmalı oldu!

**2020-ci il noyabrın 23-də Ağdam şəhərinə səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev əvvəlcə Ağdam məscidinə gəldi, oraya Məkkədən gətirdiyi "Qurani-Kərim"i bağışladı, sonra məscidin qarşısında dayanaraq xalqa müraciət etdi.**

Öz müraciətində münaqişənin tarixinə, ordu quruculuğuna, müharibədə qazanılan Zəfərə toxunan İlham Əliyev Ermənistanın işğalda və xalqımıza qarşı törədilən cinayətlərdə iştirak edən keçmiş başçılarına da həqarət dolu sözlərini dedi: *"Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm".*

Erməni yenə erməniliyini göstərdi!

Laçın və Kəlbəcərin boşaldılması üçün bizdən vaxt alandan sonra yenə murdar xislətindən əl çəkmədi, yaşadığı evləri yandıraraq, meşələrə od vuraraq unitazını da qucağına alıb rədd oldu!

❖ ❖ ❖

*44 günlük Zəfər müharibəsinin son akkordları isə 2020-ci ilin 10 dekabrında Bakının baş meydanında keçirilən Qələbə paradında vuruldu.*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi Zəfər paradı.**

**İki qardaş dövlətin iki qardaş Prezidenti təbriklərini, ürək sözlərini Azərbaycan xalqına çatdırdı.**

İlham ƏLİYEV:

*"Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir".*

*"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".*

Rəcəb Tayyib ƏRDOĞAN:

*"Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuzillik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə, Allahın izni ilə, çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!"*

Ermənistan uzun illər boyu bizi yeni reallıqlarla hesablaşmağa və barışmağa çağırırdı.

**Azərbaycan isə bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəyini və öz ərazisində ikinci Ermənistan dövlətinin yaranmasına yol verməyəcəyini bildirirdi.**

*Zaman dəyişdi, "dəmir yumruq" yeni reallıqlar yaratdı.*

**Azərbaycanın şərtləri əsasında tərtib olunan sülh müqaviləsinin layihəsi 8 avqust 2025-ci ildə Vaşinqtonda Donald Trampın iştirakı ilə paraflandı.**

Cənubi Qafqazın ən güclü dövləti və söz sahibi olan Azərbaycan bölgədə sülh və əməkdaşlıq olmasını istəyir.

Güclülər və haqlılar həmişə öz istəklərinə çata bilirlər!

**Bəxtiyar SADIQOV**



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 5 İL

# Dövlətçilik tariximizə həkk olunan şanlı irs

**Müasir Azərbaycan tarixinin ən şərəfli dövrü məhz Heydər Əliyev epoxası ilə başlayır. Böyük dövlət adamının 1993-cü ildə ölkəmizdə siyasi hakimiyyətə gəlişi ilə xaos dövrü bitdi, sabitlik və inkişaf başladı. Ulu Öndərin müdrik siyasəti nəticəsində Azərbaycanda sabit siyasi və iqtisadi mühit formalaşdı. Bu isə bizi daha böyük qələbələrə aparan yolun başlanığıcı oldu.**

**Heydər Əliyevin layiqli siyasi varisi Prezident İlham Əliyev Ulu Öndərin sabitlik və inkişaf kursunu daha da irəli apararaq, xalqımıza qalibiyyətin təntənəsini yaşatdı.**

## Şərəfli tarix

Prezident İlham Əliyev 2021-ci il sentyabırın 27-də Anım Günü ilə bağlı xalqa müraciətində deyib: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir".

Bu, qələbənin emosiyasından doğan coşqu deyil. Bu, dünya siyasi arenasında özünün yerini müəyyən etməyi bacarmış liderin xalqın gələcək yaşam tərzi ilə bağlı irəli sürdüyü konseptual ideoloji baxışın təzahürüdür.

Bəli, qalib xalqıq və bu, bizim gələcək nəsillərə ən böyük ərmağanımızdır. Gələcək nəsillərin tərbiyəsinin əsas qayəsini bu ideoloji xətt təşkil etməlidir. Bu ideoloji xəttin aparılması tarixi gerçəkliklər fonunda öz irsimizi dərindən öyrənməklə paralel davam etdirilməlidir.

Prezident İlham Əliyev AMEA-nın 80 illik yubiley tədbirində çıxışı zamanı tarixi məsələlərin vacibliyinə toxunaraq bildirib: "Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar".

Prezident öz çıxışında həm tarixşünaslıq qarşısında yeni vəzifələr müəyyən edir, həm də strateji hədəfləri göstərir. Dövlətimizin başçısı gənc nəslə zəruri tövsiyyələrini çatdıraraq, qalib xalq şüurunun milli-mənəvi dəyərlərlə vəhdətdə inkişaf edəcəyi konsepsiyasını irəli sürdü. Cənab Prezident həmin çıxışında Zəfərimizin yubileyini böyük qürur hissi ilə qeyd edəcəyimizi söylədi.

Bu Zəfərin təsadüflə qazanılmadığını anlamaq üçün yaxın keçmişimizi təhlil etmək yerinə düşər. Zəfərimizin qazanılmasında ordu quruculuğunun müstəsna əhəmiyyəti danılmazdır.

Ordunun yaradılması Azərbaycan xalqının milli dövlətçilik və özünütəsdiq tarixinin ən önəmli məsələlərindəndir. Hələ 1918-ci il mayın 28-də müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, ordu quruculuğu sahəsində əhəmiyyətli addımlar atmışdı. Hökumətin qərarı ilə 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun adının dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu adlandırılması və bununla da ilk nizami hərbi hissənin yaradılması milli Silahlı Qüvvələrin formalaşdırılmasında mühüm hadisə olmuşdu. O zaman ordunun təşkilini görkəmli generallarımız Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski öz üzərlərinə götürmüşdülər. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanılmışdı. Qısa müddətdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf əraziləri erməni-bolşevik işğalından xilas etmişdi. Hərbi birləşmələrimiz Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştə göstərmiş, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etmişlər. Azərbaycan Ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, İbrahim ağa Vəkilov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov kimi nüfuzlu generalları olmuşdu.

Sovet hakimiyyəti dövründə də imperiyanın azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Düzdür, sovet dövründə çar dövründən fərqli olaraq, azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Lakin onlar döyüş yox, əsasən tikinti hərbi hissələrində xidmət edirdilər. Məqsəd azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişməsinə imkan verməmək idi. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər Heydər Əliyev 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi yaratmışdı. Bununla yanaşı, Ulu Öndər azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olmuşdu. Beləliklə, Heydər Əliyevin sayəsində milli hərbi kadrların yetişməsi prosesi güclənmişdi.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə hərbi quruculuq və hərbi təhsil məsələlərini xüsusi diqqət mərkəzində saxladı. Heydər Əliyev ordunun inkişafına ümummilli məsələ kimi baxır, onun inkişafını təmin etmək üçün kompleks yanaşma sərgiləyirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusunun yaradılması qanunsuz hərbi birləşmələrin buraxılması ilə başladı. 1993-cü ildən yaradılan ordunun komplektləşdirilməsi, müdafiə qüdrətinin, döyüş qabiliyyətinin artırılması, hərbi qulluqçuların sosial-müdafiə tədbirlərinin gücləndirilməsi, hərbi kadr hazırlığının inkişaf etdirilməsi və təkmilləşdirilməsi, xüsusi təyinatlı hərbi birləşmələrin yaradılması, qoşunların NATO standartlarına uyğunlaşdırılması, hərbi bölmələrimizin beynəlxalq antiterror və sülhməramlı platformalarda iştirakının təmin edilməsi Ulu Öndərin diqqət mərkəzində saxladığı məsələlər olmuşdur.

Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunmuş və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Ulu Öndərin həmin fərmanı tarixi əhəmiyyət daşıyır. Belə ki, sözügedən fərmanla Heydər Əliyev Azərbaycan Ordusunun tarixi ənənələrə söykəndiyini göstərmişdir.

Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan Ordusunun qurucularına, onların tarixi irsinə dövlət tərəfindən yüksək qiymət verilməklə, xatirələri həmişə uca tutulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli sərəncamının bir bəndi məhz Azərbaycan Xalq Cümhuriyyəti Ordusuna həsr edilmişdir.

Ulu Öndər Heydər Əliyev 22 iyun 1998-ci il tarixdə Azərbaycanın Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasiminin keçirilməsinə dair sərəncam imzalamışdır. Həmin təntənəli mərasimdə çıxış edən Heydər Əliyev Cümhuriyyət generalları haqqında çox yüksək fikirlər söyləmişdir. Ulu Öndər demişdir: "Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski uzun müddət çar Rusiyasının ordusunda xidmət edəndən, Xalq Cümhuriyyəti dövründə müstəqil Azərbaycan Ordusunun yaranmasına rəhbərlik edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikasında da ordu qurmaq, yaratmaq, azərbaycanlılara hərbi təhsil, təlim vermək işləri ilə məşğul olmuşlar. Bu çox maraqlıdır, səciyyəvidir, amma eyni zamanda təbiidir. Çünki hərbi peşə, ixtisas birinci növbədə hərbi təhsil, təcrübə, bilik, hərbi təlim-tərbiyə, döyüş təcrübəsi tələb edir. Bunlar olmayanda ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq mümkün deyildir. Əgər bunlar, peşəkar hərbçilər varsa, ordu quruculuğunda onlardan səmərəli istifadə etmək olar. Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski buna əyani sübutdur".

Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması hərb sahəsində milli kadr ehtiyatının formalaşdırılması prosesinin keyfiyyətcə yeni inkişaf mərhələsi sayıla bilər. Ulu Öndərin 2001-ci il 20 avqust tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmış və bununla həmin təhsil ocaqlarının respublika üzrə hərbi təhsil müəssisələri sistemində statusu yüksəldilmişdir.

1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"na qoşuldu. Bu əməkdaşlıq nəticəsində Azərbaycan hərbçiləri NATO proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Silahlı Qüvvələri modern hərbi gücə çevrildi.

## Silahlı Qüvvələrin döyüş qabiliyyəti ən müasir səviyyəyə çatdırıldı

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha da güclənib, döyüş qabiliyyətini ən müasir standartlara uyğunlaşdırıb. Silahlı Qüvvələrin daim modernləşdirilməsi və ən son hərbi texnologiyaların hərbi arsenala cəlb edilməsi Prezident İlham Əliyevin siyasətinin strateji istiqamətlərindəndir.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik olan Azərbaycan döyüş hazırlığına görə nəinki MDB məkanında, hətta dünya ölkələri arasında ön sıralardadır. Ötən illərdə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan modernləşmə islahatları və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərinə ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda şahid olublar. Büdcəsi ildənilə artırılan Azərbaycan Ordusu buna müvafiq olaraq hərbi imkanlarını durmadan artırır.

Eyni zamanda Azərbaycanda müasir müdafiə sənayesi kompleksi yaradılıb. Müdafiə Sənayesi Nazirliyində çoxsaylı müdafiə təyinatlı məhsul istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biridir. Bu, ordumuzu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Silahlı Qüvvələrimizi əhəmiyyətli dərəcədə təchiz edə bilir. Bundan əlavə, dünyanın hərbi sənaye baxımından inkişaf etmiş ölkələri ilə də səmərəli əməkdaşlıq həyata keçirilir.

Azərbaycanın əldə etdiyi iqtisadi üstünlük torpaqlarımızın işğaldan azad edilməsində mühüm amilə çevrildi. Bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq, Azərbaycan transmilli layihələrlə regionda tamamilə yeni mənzərə yaratdı. Azərbaycan regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdi. Ölkəmizin təşəbbüsləri təkcə xalqımızın deyil, bir çox dövlətin, o cümlədən region ölkələrinin maraqlarını təmin etdi. Bununla da Azərbaycanın beynəlxalq nüfuzu gücləndi.

## Möhtəşəm Zəfər

Azərbaycan tərəfinin sülh çağırışlarına məhəl qoymayan işğalçı Ermənistan isə özünün destruktiv fəaliyyəti və hərbi təxribatları ilə müharibəni qaçılmaz etdi. Artıq həllini tapmış Qarabağ münaqişəsinin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunmuş ATƏM-in (sonradan ATƏT) Minsk qrupu fəaliyyəti ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Təəssüf ki, Minsk qrupu hər zaman ikili standartlardan çıxış etmiş, həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət göstərmişdir.

BMT işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi kağız üzərində qalmış və icra olunmamışdır. Azərbaycan dövləti daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. Bununla bərabər, Azərbaycan dövləti hər zaman bəyan etmişdir ki, danışıqlar nəticəsiz qalarsa, torpaqlarımız müharibə yolu ilə azad olunacaqdır.

Ermənistanın aramsız davam edən təxribatçı addımları, verdiyi destruktiv bəyanatlar artıq müharibəni qaçılmaz etmişdi. Bu ölkənin 2020-ci il 27 sentyabr tarixli təxribatları Azərbaycan Ordusu tərəfindən cavabsız qala bilməzdi. Həmin gün Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutuldu. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Sarıcalı kəndi yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə fasiləsiz atəşlər açıldı. Və təbii ki, bunların cavabı verilməli idi.

Azərbaycan Ordusunun sentyabrın 27-də başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri və rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Beləliklə, İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Azərbaycan dünyadakı erməni diasporunu və onların havadarlarını məğlub edərək işğala son qoydu. Müzəffər Ali Baş Komandan bununla da tarixi ədaləti bərpa etdi. Ermənistan üzərində parlaq qələbə əldə edilməsi həm də İlham Əliyevin apardığı praqmatik, sistemli siyasi kursun və uzaqgörən xarici diplomatiyanın bəhrəsi idi.

Müharibə zamanı Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmadı. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərinin təcəssümü oldu. Hərbçilərimiz "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər. İşğalçılar haqq uğrunda savaşan Azərbaycan əsgəri qarşısında duruş gətirə bilmədi. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari oldu.



Azərbaycan xalqı Vətən müharibəsindəki qələbəni Zəfər paradı ilə qeyd etdi. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradına 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitləri də qatıldılar. Paradı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və fəxri qonaq qismində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etdilər.

Bakının mərkəzində yaradılan Hərbi Qənimətlər Parkı Qələbəmizin simvollarından biridir. Buraya gələn hər bir insan Silahlı Qüvvələrimizin gücünü və iradəsini görür. 5 hektar ərazini əhatə edən parkda eksponatlar arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları var. Ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırır.

## "Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur

Prezident İlham Əliyev 2022-ci il 16 noyabr tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncam imzalamışdır.

İşğaldan azad edilmiş ərazilərə qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunmuşdur. Qarabağ və Şərqi Zəngəzurun bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə bu ərazilərdə dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirmişdir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın ümumi icra faizi təqribən 79 faizdir. Azad olunmuş ərazilərin bərpası üçün 2025-ci il də daxil olmaqla 21.6 milyard manat vəsait ayrılmışdır. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanmış, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunmuşdur. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpa işləri həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub.

İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı işləri 2025-ci ilin 9 ayında da davam etdirilib. Ümumilikdə ötən dövrdə həmin sakinlərdən artıq 6,3 minə yaxın şəxsin məşğulluğu təmin edilib.

## Qərbi Azərbaycana qayıdış

Zəfərimizin bizə gətirdiyi ən böyük töhfələrdən biri də məhz Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının geniş vüsət almasıdır. Azərbaycanlılara qarşı etnik dözümsüzlük çar Rusiyasından sonrakı illərdə də davam etmişdir. Rusiya inqilablarının yaratdığı şəraitdən sui-istifadə edərək erməni qəsbkarları 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər. 1918-1920-ci illər xalqımızın yaddaşına erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə həkk olunmuşdur. Həmin illər İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalmış, yaşadıqları yerlərdən qovulmuş, onlara işgəncələr verilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edilmişdir.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr və "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 1948-ci il 10 mart tarixli qərarları ilə 100 min azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülmüşdü. Deportasiya prosesi 1956-cı ilə qədər davam etmişdi, 150 mindən çox azərbaycanlı ata-baba yurdundan zorla köçürülmüşdü. Onlar Azərbaycanın əsasən Aran bölgəsində (Zərdab, Əli-Bayramlı (Şirvan), Kürdəmir, Göyçay, Mirbəşir (Tərtər), Salyan, İmişli, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Saatlı) rayonlarında məskunlaşdırılmışdılar. Amma onların hər üç nəfərindən biri isti, quru iqlimə, məişət təminatsızlığına dözə bilməyərək dünyadan köçmüşdü.

*Qarabağ Zəfəri həm də Qərbi Azərbaycana qayıdışın gerçəkləşməsi yolunda mühüm tarixi hadisə oldu. Möhtəşəm Qarabağ Zəfərini bizlərə yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi uzaqgörənliyi və Azərbaycan xalqının arzusu ilə doğma yurdumuz olan Qərbi Azərbaycana qayıdacağımıza da şübhəmiz yoxdur. Prezident İlham Əliyev bu barədə deyib: "Biz sülh istəyirik, biz müharibə istəmirik. Sülh, amma ədalətli sülh. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır". Bu fikirlər qalib ordunun qalib sərkərdəsinin müəyyən etdiyi mükəmməl yol xəritəsidir.*

*Biz xoşbəxt nəsilik ki, Zəfəri yaşamaq, onu bayram kimi qeyd etmək qismətimizə düşüb. Prezident İlham Əliyevin adı ilə və ordumuzla bağlı olan şanlı Zəfər hər zaman xalqımızın fəxr mənbəyi olacaq.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

# Vətən müharibəsi: ədalətin və haqqın təntənəsi



**Azərbaycan təxminən 30 ilə yaxın bir müddətdə ərazisinin 20 faizini işğal altında saxlayan Ermənistanla danışıqlar apararaq, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışdı. Lakin danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə göründü ki, erməni tərəfi sadəcə vaxt udmaq, mövcud status-kvonu möhkəmləndirmək və əbədiləşdirmək istəyir. Azərbaycan isə işğalla barışa bilməzdi və barışmadı da.**

Keçən dövr ərzində Ümummilli Lider Heydər Əliyev uzaqgörənliyi və müdrikliyi ilə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü və sağlam əsaslar qoydu. Bu yolu uğurla davam etdirən Prezident İlham Əliyev isə bəyan etdi ki, ölkənin ərazi bütövlüyünün bərpası üçün ilk növbədə iqtisadi güc vacibdir. Düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində güc toplamağa başladı, iqtisadi müstəqillik təmin olundu, heç bir ölkədən və beynəlxalq maliyyə qurumundan asılı olmayan müasir dövlətə çevrildi, dünya üçün unikal inkişaf modeli yaratdı.

Ölkənin iqtisadi tərəqqisi ordu quruculuğunda da dönüş nöqtəsi oldu. Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbi qulluqçuların bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin və xidmət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş mühüm addımlar atıldı. Azərbaycanın müdafiə sənayesi inkişaf etdirildi, ordunun daxili tələbatının əhəmiyyətli hissəsi yerli istehsal hesabına təmin olunmağa başladı. Azərbaycan artıq 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edən və müasir silah ixrac edən ölkəyə çevrildi. Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyəti Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlarda bütün dünyaya nümayiş etdirildi.

Ən əsası isə, ötən 30 il ərzində Azərbaycan xalqı işğalla barışmadı və ərazi bütövlüyünün bərpası naminə sarsılmaz iradə nümayiş etdirdi. Prezident İlham Əliyevin rəhbərliyi dövründə formalaşan vətənpərvər gənclik Vətənin müdafiəsi naminə hər cür fədakarlığa hazır olduğunu dəfələrlə sübut etdi.

Bu dövrdə həyata keçirilmiş çoxşaxəli, prinsipial və düşünülmüş xarici siyasət, beynəlxalq təşkilatlar və xarici dövlətlərlə qurulan sıx əlaqələr, həyata keçirilmiş regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqelərini gücləndirdi, ölkənin nüfuzunu artırdı və Azərbaycanın iradəsini bölgədə həlledici amilə çevirdi. Bütün bu amillər Azərbaycanın Qələbəsini tam şəkildə şərtləndirdi və onun əldə olunması artıq zaman məsələsinə çevrildi.

Azərbaycan dəfələrlə Ermənistana işğal edilmiş torpaqları qaytarmaq çağırışları etmişdi, lakin Ermənistan bu çağırışlara məhəl qoymadı, əksinə, yeni Azərbaycan torpaqlarını işğal etməyə can ataraq ardıcıl hərbi təxribatlar yolunu seçdi.

Ermənistan isə danışıqlar prosesinin formatını və məzmununu məhv edərək, danışıqları imitasiya etməklə, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və qərarlarını yerinə yetirməkdən imtina etməklə açıq şəkildə göstərdi ki, sülh tərəfdarı deyil. Ermənistanın Baş naziri Nikol Paşinyanın 5 avqust 2019-cu ildə Xankəndidə söylədiyi "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı Ermənistanın işğalçı siyasətinin ən açıq etiraflarından biri oldu. Azərbaycan Prezidenti İlham Əliyev isə 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı bu bəyanata sərt reaksiya verərək dedi: "Qarabağ Azərbaycandır və nida işarəsi".

Prezident İlham Əliyev həmin dövrü belə xarakterizə edir: "Bəli, onlar Dağlıq Qarabağı guya müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap edib bizim ətraf bölgələrimizi də Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhərlərimizin və kəndlərimizin adlarını dəyişdirdilər və nəhayət, yeni ərazilər uğrunda bizə qarşı yeni müharibə ilə hədələməyə başladılar. Onların müdafiə naziri Tonoyan soyadlı şəxs demişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır".

2020-ci ilin iyulunda Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Bu təxribatın məqsədi bölgədə yeni gərginlik ocağı yaratmaq, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi məsələsini ikinci plana keçirmək, münaqişəyə üçüncü dövlətləri cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaq idi. Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək ona sarsıdıcı zərbə endirdi.

2020-ci ilin avqustunda Ermənistan daha bir hərbi təxribat törədərək Azərbaycana diversiya qrupu göndərdi və məqsədi terror aktları törətmək idi. Lakin Azərbaycan Ordusu bu planın da həyata keçməsinə imkan vermədi.

24 sentyabr 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı beynəlxalq ictimaiyyəti yenidən xəbərdar etdi ki, Ermənistan Azərbaycana qarşı yeni müharibəyə hazırlaşır: "Ermənistan yaxınlarda hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib ki, bu sənədlər təcavüzkar və hücum xarakteri daşıyır... Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə çağırırıq. Təxribatlara və gərginliyin artmasına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Beləliklə, Ermənistanın hərbi-siyasi rəhbərliyi 2016-cı ilin Aprel döyüşlərindən və 2020-ci ilin İyul döyüşlərindən lazımi nəticə çıxarmadı, vəziyyəti daha da gərginləşdirməyə davam etdi.

27 sentyabr 2020-ci ildə Ermənistan genişmiqyaslı hərbi əməliyyatlara başladı, Azərbaycan Ordusunun mövqelərinə və dinc yaşayış məntəqələrinə atəş açdı. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücuma keçdi. Sonradan "Dəmir yumruq" adlandırılan bu əməliyyat Vətən müharibəsinə çevrildi.

2020-ci ilin payızında baş vermiş 44 günlük Vətən müharibəsi, yaxud İkinci Qarabağ müharibəsi, Azərbaycan tarixinə əbədi olaraq yazıldı. Bu müharibə yalnız torpaqların azad olunması uğrunda döyüş deyildi, 30 illik ədalətsizliyə, işğala və beynəlxalq hüququn pozulmasına verilən tarixi cavab idi. Müharibənin nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, xalqın milli qüruru və ədalət hissi yenidən dirçəldi.

Bu müharibənin kökləri 1980-ci illərin sonlarına, SSRİ-nin dağılması ərəfəsində Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına qədər uzanır. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin ilhaqı tələbi irəli sürüldü. Bu tələblər azərbaycanlılara qarşı etnik təmizləmə ilə, Xocalı soyqırımı kimi dəhşətli faciələrlə müşayiət olundu. 1990-cı illərin əvvəlində Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonu işğal etdi. Nəticədə bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

1994-cü ildə atəşkəs elan edilsə də, münaqişə dondurulmuş vəziyyətdə qaldı. Ermənistan işğal etdiyi torpaqlarda qeyri-qanuni məskunlaşma aparır, Azərbaycanın mədəni və dini irsini məhv edir, beynəlxalq hüququ açıq şəkildə pozurdu. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə baxmayaraq, Ermənistan işğal olunmuş ərazilərdən çıxmaqdan imtina etdi. Azərbaycan isə 30 il ərzində sülh yolu ilə problemin həllinə çalışdı, lakin bu səylər nəticəsiz qaldı.

2018-ci ildə Ermənistanda hakimiyyətə gəlmiş Nikol Paşinyan sülh prosesinə ümidləri tamamilə puça çıxardı. O, açıq şəkildə "Qarabağ Ermənistandır və nöqtə" deyərək danışıqları mənasız hala gətirdi. Ermənistan tərəfindən Azərbaycanın Tovuz, Goranboy və digər istiqamətlərdə hərbi təxribatlar, həmçinin silahların Qarabağ bölgəsinə daşınması, yeni müdafiə xətlərinin qurulması vəziyyəti daha da gərginləşdirdi. Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun genişmiqyaslı hücumu Azərbaycanı cavab tədbirləri görməyə məcbur etdi. Beləliklə, 44 günlük Vətən müharibəsi başladı.

Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci ildə əks-hücum əməliyyatına başladı. Əməliyyatın məqsədi Ermənistan silahlı qüvvələrinin təxribatlarına son qoymaq, Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək və ölkənin ərazi bütövlüyünü bərpa etmək idi.

Azərbaycan Ordusu qısa zamanda böyük uğurlar qazandı. İlk günlərdən etibarən düşmənin müdafiə xətləri yarıldı, bir sıra strateji yüksəkliklər və yaşayış məntəqələri azad edildi. Ordumuzun dəqiq zərbələri nəticəsində düşmənin canlı qüvvəsi və texnikası məhv edildi. Azərbaycan pilotsuz uçuş aparatları və yüksəkdəqiqlikli silah sistemləri ilə Ermənistan ordusuna ciddi zərbə endirdi. Müharibənin ilk mərhələsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının əraziləri, eləcə də Murovdağ silsiləsinin bir hissəsi azad edildi. Xüsusilə Cəbrayıl və Zəngilanın azad edilməsi strateji baxımdan mühüm idi - bu, Azərbaycan ordusuna Zəngəzur istiqamətində irəliləmək və Laçın dəhlizinə yaxınlaşmaq imkanı verdi.

Azərbaycan əsgəri təkcə hərbi cəhətdən deyil, mənəvi cəhətdən də üstünlük göstərdi. Müharibə dövründə hər bir əsgər, hər bir zabit Vətən uğrunda canından keçməyə hazır idi. Qəhrəmanlıq nümunələri çox oldu - Murovdağda, Suqovuşanda, Füzulidə, Zəngilanda, Qubadlıda, Cəbrayılda döyüşən igidlərimiz tarix yazdılar. Xüsusilə xüsusi təyinatlı qüvvələr, pilotsuz aviasiya bölmələri və artilleriya hissələri müharibənin taleyini müəyyən edən əməliyyatlarda həlledici rol oynadılar. Vətənimizi işğaldan azad edən cəsur və qalib ordumuzun apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edildi və canlı qüvvə və texnika baxımından böyük itkilərlə geri çəkilməyə məcbur edildi.

Döyüş meydanında baş verən ağır itkilərə cavab olaraq Ermənistan silahlı qüvvələri münaqişə zonasından və Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlardakı mülki infrastrukturu, o cümlədən yaşayış binalarını, xəstəxanaları, tibb mərkəzlərini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını və kənd təsərrüfatı torpaqlarını atəşə tutdu. Ermənistan silahlı qüvvələri müxtəlif növ silahlar, ballistik raketlər və qadağan olunmuş artilleriya atəşi ilə bəşəriyyətin sülh və təhlükəsizliyinə qarşı cinayətlər, eləcə də müharibə cinayətləri törətdi. Mülki əhali vəhşicəsinə öldürüldü. Mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktura və müəssisələrə böyük ziyan dəydi. Çoxsaylı tarixi və mədəni abidələrə evsahibliyi edən Azərbaycanın ikinci böyük şəhəri olan qədim Gəncə, strateji obyektlərin yerləşdiyi və keçidiyi Mingəçevir və Yevlax şəhərləri, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər ərazilər ballistik raketlər və digər ağır artilleriya atəşinə tutuldu. Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12 uşaq və 27 qadın daxil olmaqla 93 mülki şəxs həlak oldu, 454 mülki şəxs yaralandı, ümumilikdə 12292 yaşayış və qeyri-yaşayış binası, 288 nəqliyyat vasitəsi və 1018 fermaya ziyan dəydi. Ancaq bu qanlı cinayətlər bizi haqq yolumuzdan döndərmədi, döyüş meydanında ədalət zəfər çaldı. Azərbaycan ordusu ləyaqətlə vuruşdu.

Müharibənin ən dramatik və eyni zamanda ən şanlı səhifəsi Şuşanın azad olunması ilə bağlıdır. Şuşa əməliyyatı hərb tarixində misilsiz qəhrəmanlıq nümunəsidir. Dağlıq, qayalıq və çətin relyefdə Azərbaycan xüsusi təyinatlıları əlbəyaxa döyüşlərlə şəhərə daxil oldular və düşməni qovdular. 8 noyabr 2020-ci ildə Prezident İlham Əliyev xalqa müraciətində "Şuşa azaddır!" sözlərini söylədi. Bu, müharibənin taleyini həll edən və xalqımızın qələbəsini rəmzləşdirən bəyanat idi.

Şuşanın azad edilməsindən sonra Ermənistan ordusu tamamilə çökdü. Azərbaycan Ordusu Laçın, Kəlbəcər və Ağdam istiqamətində irəliləməyə hazır idi. Lakin Ermənistan rəhbərliyi məğlubiyyəti qəbul etməyə məcbur qaldı. 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli Bəyanat imzalandı. Bu sənəd müharibəyə son qoydu və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını təsdiqlədi.

Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycanın qarşısında yeni, amma ən azı müharibə qədər çətin bir vəzifə dururdu - azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı, Qarabağın və Şərqi Zəngəzurun tam inteqrasiyası.

Prezident İlham Əliyevin rəhbərliyi ilə dərhal "Böyük qayıdış" proqramının həyata keçirilməsinə başlanıldı. Azad olunmuş torpaqlarda bu gün genişmiqyaslı bərpa və quruculuq işləri görülür. İnfrastrukturun bərpası, yolların, körpülərin, hava limanlarının, su və enerji sistemlərinin qurulması sürətlə davam edir. Artıq Füzuli, Zəngilan və Laçında hava limanları işləyir. Şəhər və kəndlər "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına əsasən yenidən salınır. Füzuli, Cəbrayıl, Zəngilan, Ağdam, Şuşa kimi şəhərlərdə müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri tikilir. Ağdamda "Qarabağın paytaxtı" ideyası ilə böyük bərpa planı həyata keçirilir. Məcburi köçkünlərin doğma yurdlarına mərhələli şəkildə qayıdışı da davam edir.

Prezidentin işğal olunmuş ərazilərə etdiyi səfərlər, təməlqoyma mərasimləri, işğaldan azad olunmuş şəhərlərin baş planlarının hazırlanması, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən ermənilərin dağıtdığı tarixi-mədəni-dini irsimizin yenidən bərpa edilməsi - bütün bunlar hamımızı sevindirir, yüksək əhvali-ruhiyyə yaradır. Dünya da görür ki, hansı ölkə dağıdıcıdır, hansı ölkə qurucu, bu torpaqların əsl sahibi kimdir.

Bərpa işləri ilə yanaşı, ekoloji tarazlığın bərpası və minalardan təmizlənmə prosesi də mühüm əhəmiyyət daşıyır. İşğal illərində Ermənistan tərəfindən Qarabağın əraziləri kütləvi şəkildə minalanmış, meşələr və torpaqlar dağıdılmışdır. Bu səbəbdən Azərbaycan minatəmizləmə əməliyyatlarına böyük vəsait ayırır və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Müharibədən sonra bölgədə yeni geosiyasi reallıq formalaşdı. Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlıq çağırışlarını irəli sürdü. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, məqsəd revanş deyil, regionda davamlı sülh və inkişafın təmin olunmasıdır. Zəngəzur dəhlizinin açılması ideyası bu istiqamətdə mühüm addımdır. Bu dəhliz Azərbaycanı Naxçıvanla, oradan da Türkiyə ilə birləşdirəcək, regionun iqtisadi və nəqliyyat xəritəsini köklü şəkildə dəyişəcək. Beləliklə, Qarabağın azad edilməsi təkcə Azərbaycanın deyil, bütün regionun inkişafına yeni nəfəs gətirib. 44 günlük Vətən müharibəsi təkcə hərbi qələbə deyil, həm də mənəvi və siyasi qələbə idi. Qeyd etmək istəyirəm ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti, mediaya verdiyi müsahibələr müasir Azərbaycan tarixində özünəməxsus yer tutur. Biz yaxşı dərk edirik ki, cənab İlham Əliyev bir insan üçün deyil, bütün xalqımız üçün, dövlətimiz üçün məsuliyyət daşıyır. Bu, şərəfli və çətin məsuliyyət idi. Ancaq dövlət başçısı bunu bacardı, xalqımızı bu mübarizədə qalib etdi. O, xalqı inandıra bildi, çağırışı ilə, müraciəti ilə xalqı səfərbər edə bildi, birliyimizi daha da gücləndirdi. Buna hər dövlət başçısı nail ola bilmir. Mehriban xanım, hər dəfə xalqa "Sizin Mehriban" deyə müraciət edir. Bu, bir ananın, bacının, qadının çağırışı idi. İnsanlar bu doğmalığın əvəzində o qədər sevinirdilər ki, Qələbə üçün heç nəyi əsirgəmirdilər. Bu müharibə Azərbaycanın milli birliyini, xalqın və dövlətin sarsılmaz həmrəyliyini nümayiş etdirdi. Müharibə günlərində bütün xalq bir amal uğrunda birləşdi: Vətənin azadlığı və ədalətin bərpası. Cəbhədə döyüşən əsgərlərlə yanaşı, arxa cəbhədə olan hər bir azərbaycanlı da öz töhfəsini verdi. Könüllülər, həkimlər, jurnalistlər, ictimai təşkilatlar - hər kəs bu qələbə üçün çalışdı. Azərbaycan diasporu da beynəlxalq arenada həqiqətlərimizin yayılması üçün fəal mübarizə apardı. 44 günlük Vətən müharibəsi, bir gündən də az davam edən antiterror əməliyyatı həm də xalqımızın sarsılmaz birliyini bütün dünyaya bir daha nümayiş etdirdi. Azərbaycanda yaşayan bütün azsaylı xalqlar çiyinə-çiyinə mübarizə aparır, Qələbəyə öz töhfəsini verirdi. Bu, bizim birliyimizin ən bariz nümunəsi idi. Övladı şəhid olan ana-atalar, həyat yoldaşı şəhid olan xanımlar, ataları şəhid olan balalar çox təmkinlə, səbirlə "Vətən sağ olsun!" deyirdilər. O xalq xoşbəxtdir ki, torpağı uğrunda mübarizə aparmağı, həm qalib gəlməyi, həm də şəhid verməyi bacarır.

Bu müharibə həm də milli kimliyin yenidən doğuluşu idi. 30 il işğal altında qalan torpaqların azad edilməsi xalqın qürurunu, özünəinamını və tarixi yaddaşını bərpa etdi. Hər bir şəhidin qanı, hər bir qazinin fədakarlığı bu qələbənin sütunu oldu. Azərbaycan xalqı bir daha göstərdi ki, o, heç vaxt işğalla barışmayacaq, ədalət gec-tez bərpa olunacaq.

Şəhidlərimizin xatirəsi xalqımız üçün əziz və müqəddəsdir. Onların adları məktəblərdə, küçələrdə, abidələrdə əbədiləşdirilir. Dövlət şəhid ailələrinə və qazilərə xüsusi diqqət və qayğı göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə "Qəhrəmanlara ehtiram - vətənə sədaqət" prinsipi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

Müharibə həmçinin Azərbaycan Ordusunun gücünü və peşəkarlığını bütün dünyaya nümayiş etdirdi. Müstəqil Azərbaycanın hərbi potensialı, texnoloji imkanları və strateji düşüncəsi müharibənin nəticəsini müəyyənləşdirdi. Ordumuzun intizamı, döyüş ruhu və milli dəyərlərə sədaqəti bu qələbənin əsas açarı oldu. 44 günün sonunda əldə edilən qələbə təkcə torpaqların azadlığı deyil, həm də tarixi ədalətin bərpası idi. Bu, xalqımızın əsrlərlə davam edən mübarizəsinin məntiqi nəticəsi, Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasətinin və İlham Əliyevin uzaqgörən liderliyinin təntənəsidir.

Vətən müharibəsindən dərhal sonra Azərbaycan regionda sülh təşəbbüsü ilə çıxış edərək, regional baxışının və yanaşmasının davamlı sülh quruculuğuna əsaslandığını bəyan etdi. Lakin Ermənistan tərəfinin üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq işğalçı qüvvələrini ərazilərimizdən çıxarmaması və hərbi-siyasi təxribatları davam etdirməsi, təbii sərvətlərimizin qanunsuz istismarı və mina təhlükəsi Ermənistanın ərazilərimizdə qurduğu rejimə və işğal dövrünün qalıqları olan Ermənistan silahlı qüvvələrinə qarşı antiterror tədbirlərinin görülməsini zəruri etdi. Beləliklə, 44 günlük Vətən müharibəsi və Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirləri ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasını təmin etdi və davamlı sülh quruculuğu üçün tarixi şərait yaratdı.

Hazırda ölkəmizin təşəbbüsü ilə aparılan sülh müqaviləsi layihəsi üzrə Ermənistanla ikitərəfli danışıqlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Bu il avqust ayının 8-də Vaşinqtonda imzalanan birgə bəyannamə sülh müqaviləsi istiqamətində atılan mühüm addımdır. Vaşinqtonda əldə olunan tarixi nəticələr - sülh sazişi mətninin paraflanması, ATƏT-in Minsk qrupunun ləğv edilməsi, Zəngəzur dəhlizinin açılması ilə bağlı razılığın əldə edilməsi - bütün bunlar onu göstərir ki, Cənubi Qafqaz bir neçə il əvvəl mümkünsüz görünən tektonik dəyişiklikləri yaşayır. Artıq regionumuz uzun sürən münaqişədən davamlı sülh və qonşuluğa qədəm qoyur. Eyni zamanda irəliləyişlərə baxmayaraq, sülh prosesinin uğurla başa çatmasına qarşı çətinliklər və təhdidlər qalmaqdadır. Xüsusilə davamlı sülhə maneələr arasında Ermənistan konstitusiyasında təsbit edilmiş Azərbaycana qarşı ərazi iddiaları, eləcə də ölkəni yenidən hərbi təcavüzə sövq edən tərəflərin mövcudluğu fonunda Ermənistanın militarizasiyası yer alır. Lakin hazırda baş verən proseslər bizdə belə bir inam yaradır ki, ölkənin ərazi bütövlüyünü bərpa edən və bununla da bütün regional arxitekturanı yenidən yaradan Prezident İlham Əliyev bu prosesi uğurla başa çatdıracaqdır. Dövlətimizin başçısı elə bir siyasət aparır ki, gələcək nəsillər üçün həll olunmamış məsələ qalmasın. Və davamlı sülhə nail olmaq üçün bütün vacib tədbirləri görür. Ona görə də hazırda geosiyasi proseslərin sürətlə dəyişdiyi bir zamanda Azərbaycanın atdığı addımlar, qəbul etdiyi qərarlar tarixi əhəmiyyət kəsb edir.

*8 Noyabr - Zəfər Günündə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini dərin hörmət və minnətdarlıqla yad edirik. Müharibə qəhrəmanlarına cansağlığı, ölkəmizə və xalqımıza inkişaf və firavanlıq, bölgəmizə və planetimizə sülh və əmin-amanlıq arzulayırıq. Qələbə Günümüz, Zəfər Günümüz mübarək!*

**Hicran HÜSEYNOVA,**

***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

# 8 Noyabr - qalibiyyət nidamız

**5 il ötdü! Bu beş ildə həyat dəyişdi. Dəyişməyən isə bircə məqam oldu: Azərbaycanın dövlət başçısı İlham Əliyevin son iyirmi iki ildə meydanda olan əməllər sırası! Bu əməllərin ən böyüyü, ən ölçüyəgəlməzi isə Qarabağla, azad olunan ərazilərimizlə, bütövlənən tariximizlə, bərpa olunan qürurumuzla, abad olan yurd yerlərimizlə bağlıdır. Qarabağ məsələsinin həlli istiqamətində gördüyü işlər İlham Əliyevin nə qədər prinsipial, haqq və ədalət istəklisi, o cümlədən sülhpərvər olduğunun sübutudur. Onun bu günə istiqamətlənmiş müdrik siyasəti, nəhəng miqyaslı fəaliyyəti olmasaydı, 2020-ci ildə müharibəni qazanmaq, böyük zəfərə imza atmaq çətin olardı. Tarixə və zamana Heydər Əliyevin üslubunda müraciət etmək! Bəlkə də beş il əvvəl qazanılmış uğurun ən ciddi, ən mötəbər və ən dəqiq qaynağı budur!**

Milli-xroniki və tarixi anomaliyaya çevrilmiş erməni məkrinin klassik modeli son 200 il ərzində heç dəyişmədi. Son 100 ildə dəfələrlə qabaran bu məkrin fəsadları - ardınca gətirdiyi bəlalar, qan və göz yaşları aramsız oldu. Həm də ona görə oldu ki, yaddaşdan nəticə çıxara bilmədik. Ötən əsrin sonunda yenə eyni ssenari yazıldı, eyni təcavüz və işğal prosesləri baş verdi. 30 ilə yaxın aciz bir durumda buraxılıb gözləmə mövqeyi seçməyə məhkum edilmiş bizlər idik. Əvəzində dəfələrlə pozulan atəşkəs, öldürülən uşaqlar, əsgərlər, dağıdılan yurd yerləri oldu. Hələ ikinci Qarabağ savaşı başlamamışdı. Lələtəpə döyüşləri, ardınca Tovuz hadisələri, atəşkəsin dəfələrlə pozulması bizim üçün səbrin sonu, onlar üçün isə sonun başlanğıcı oldu.

İlham Əliyev sovet epoxasının basqı, təzyiq və çətinlikləri şəraitində yetişsə də, milli təəssüb, milli müəyyənlik duyğularını uca tutan lider oldu. Milli məfkurəyə sadiqliyi meyara çevirdi, müstəqil dövlətin keşiyində bu amala xidmətlə dayandı. 2020-ci il sentyabrın 27-dən başlayaraq, noyabrın 10-a qədər davam edən 44 günlük müharibə bunun sübutu kimi meydandadır. Azərbaycan işğal altında olan tarixi torpaqlarını Müzəffər Ordunun və Ali Baş Komandan İlham Əliyevin əzmi ilə geri qaytardı. Bu, həm də öz dəyərlərinə, tarixi haqqına sahib çıxmağı bacaran qüdrətli siyasətçinin gücü demək idi.

Millət olmağın, bütöv yaşamağın yaddaşda və amalda keçdiyi yolun müxtəlif mərhələləri olur. 1990-cı illərdə bir xalq olaraq bu yolu Ümummilli Lider Heydər Əliyevlə keçdik. O mərhələ ki görünməmiş mənəvi, əxlaqi-siyasi deqradasiyadan sonra xilaskar kimi yetişib zamanın ahəngi ilə mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasında harmoniya yaratmışdı. Son 30 ilə yaxın dövrdə dünyada çox şey məhvərindən çıxdı: texnogen sivilizasiya özünü tükətdi, qlobal zor və şər stixiyası, antiinsani düşüncə meydan suladı, irqçi fəlsəfələr, vulqar qərbçi "humanizm" oyunları, məzhəbçi müharibələr kamalın təntənəsinin heç bir nəticə verməyəcəyinin sübutu oldu. Gözəllik dünyanı xilas etmədi, elm bəhrə vermədi, kamal qalib gəlmədi.

Belə bir qlobal və geopolitik maraqların toqquşduğu seysmik zonada, antitəbiət və antiinsani dünya kultunun hakimi-mütləq olduğu bir zamanda, üstəlik Qarabağ kimi problemə az qala apokalipsis baxışın gücləndiyi bir dönəmdə toparlanıb millətimizin taleyində tarixi bir dönüşə imza atmaq İlham Əliyevin siyasi səriştəsinin, dövləti təfəkkürünün və intellektinin ifadəsi idi. O hər cür süni, qondarma qanun və stereotiplərin, perspektivdən məhrum bəyanatların qarşısına milli müqəddəratın meyarını qoydu. Bütövlüyünü qanı ilə qazanmağa layiq orduya, milli miqyasda düşüncə və təşkilati iş vüsətinə sahib olduğunu dünyaya təqdim etdi. Müstəqillik mentaliteti və statusunu həmişə uca tutub qoruyan Ali Baş Komandan İlham Əliyevin bu gün dünyanın gözü qarşısında nümayiş etdirdiyi məğrur lider obrazı isə onun məqsəd və mövqeyinə real-əməli məzmun qazandıran əsas rəmzlərdən oldu.

Beş il öncənin 8 noyabrından etibarən xalqımız, dövlətimiz, cəmiyyətimiz mübarək Zəfər gününün hər cür duyğusal - ağrı, nisgil, qürur, fəxarət ovqatına köklənmiş həmrəylik təntənəsini yaşayır. Böyük zəfəri bizə qazandıran 44 günlük müharibənin sonlandığı nöqtədir 8 noyabr. Qalibiyyət nidamızdır! Azad olunan Qarabağ, fəth olunan Şuşa, işğalçıdan təmizlənən Vətən torpağı! Xəyallarımızın gerçəkləşdiyi möhtəşəm 2020-ci il! Bu bir il ərzində bizə "yuxu əhvalı" kimi görünən zəfər müjdəmizin bəlkə də ən ağlasığmaz tərəfi budur: 30 illik həsrət alovunun 44 gün məcrasında bitməsi... Amma nəzərə alanda ki, bura gətirən yolun məfkurə mücadilələri, ideoloji savaşları zaman-zaman Ali Baş Komandan İlham Əliyevin dövləti təfəkkür, siyasi səriştə və intellekt miqyasının gücü sayəsində daim diri qalmışdı, fəhm etmək o qədər də çətin olmaz. 27 sentyabr başlanğıc üçün bir an idi. O anın gəlişini gerçəkləşdirən əməllər sırası var tarixdə və yüz illər keçsə də, tarix hər zaman bu gerçəklərin üslubunda danışacaq bizimlə. Hansı gerçəklər?

İlham Əliyevin 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirməsi, Azərbaycanda türk qanlı, islam imanlı, Avropa fikirli bayrağımız üçün Bayraq meydanlarını qurması, 2018-ci ili Azərbaycanda "Cümhuriyyət İli" elan etməsi onun beynəlxalq siyasi platformasının mükəmməl humanitar təməlləri kimi böyük əməl cizgiləri kəsb eləyir. Qələbəmizin genetik kodlarını daşıyan bu sıranı istənilən qədər artırmaq olar. Əlimərdan bəy Topçubaşovun Parisdəki məzarını ziyarətgah halına gətirməsi, Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli Xan Xoyskinin, böyük ideoloq, bayrağımızdakı triadanın müəllifi Əli bəy Hüseynzadənin ölkə miqyasında və dövlət səviyyəsində yubileylərinin keçirilməsinə, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının nəşrinə rəvac verməsi də həmin humanitar düşüncə strategiyasının gerçəkləri sırasındadır. Bunlar Prezident İlham Əliyevin fikir həyatımızda oynadığı müstəsna məqamlardır. Ümummilli Lider Heydər Əliyevin varisi olaraq bir qızıl qaydanı dərindən bilirdi İlham Əliyev: millət öz istiqlalınını qoruduğu müddətdə içindəki hürr duyğusu sönmür. İstiqlalı qorumaq, odu sönməyə qoymamaq isə dövlətin ən ali kürsüsünü təmsil edən rəhbərlərin üzərinə düşür. Mehmet Akif Ersoyun təbirincə desək, "Sahibsiz olan məmləkətin batması haqdır! Sən sahib olursan, bu vatan batmayacaqdır!" Buna görə lazım idi bu fərmanlara imza atmaq, xalqa istiqlal təlimi ilə aşılanan yurd sevgisini ötürüb lazımi anda onu milli varlığımızın xilası hərəkatında orduya çevirmək...

44 günlük savaş bütün mənalarda Vətən müharibəsi oldu. Millət kükrəyən emosiyası, əsgərlər fədai ruhu, Ali Baş Komandan səriştə və diplomatik əzmi ilə meydanda idi. Ölkədəki siyasi partiyalar da bu ali məram ətrafında ilk dəfə idi ki, birləşmişdilər. M.Ə.Rəsulzadənin müstəqilliklə bağlı təmsil eydiyi siyasi təmayülə münasibətdə həssaslıqla ifadə etdiyi belə bir fikri var: "Azərbaycan dövri-istiqlalına bolşeviklər müsavat dövrü deyirlər. Fəqət, xalq bu dövrə Azərbaycan dövrü deyir".

Bəli, 44 günlük müharibə də bizim üçün ayrılıqda hansısa partiyanın deyil, onların birgəliyinin gücündən hasilə gələn Azərbaycan dövrüdür. Yalnız ölkə daxilində deyildi bu birlik. Bütün türk dünyası bu savaşda yanımızda idi. Bu qələbə türk milli şüurunun qələbəsi idi. İlham Əliyev müzəffər orduya ancaq qələbə sonucunu simvolizə edən bir hökmü bəyan edib onu irəli ruhlandırmışdı: "Qarabağ Azərbaycandır!" Bu hökmdən sonra nidanı əsgər qoymalı idi. Qoydu da.

İlham Əliyevin İkinci Qarabağ savaşında nümayiş etdiyi Müzəffər Liderliyi türk tarixinə iz salmış, onun coğrafiyasından tutmuş mənəvi ərazilərin vəhdətinə qədər bütöv silsilə yaradan, hünər meydanında ad çıxaran, türk intibahının yaranmasında misilsiz rol oynayan fatehlərin milli taleyin iştirakındakı əvəzsiz xidmətləri ilə eyni müştərək müstəvidə kəsişdirmək olar. Azər Turanın "Salam türkün bayrağına və yaxud dağılan erməni mifi" məqaləsində oxuyuruq: "2020-ci ilin sentyabrında başlayan Vətən müharibəmizi ümumtürk tarixinin yalnız dörd məşhur savaşı ilə qiyaslandırmaq mümkündür. Səlcuqlu imperatoru Alparslanın zəfərlə sonuclandırdığı Malazgirt savaşından sonra türk tarixinin yeni dövrü başladı. Elmdə də belə qəbul olunub - 1071-ci il yeni türk erasının başlanğıcıdır. Sonra Fateh. Yəni 1453-cü ildə İstanbulun fəthi və Orta əsrlərin sonu. Sonra 1915-ci il Çanaqqala savaşı. Sonra 1922-ci il. Sakarya müharibəsi. Və, nəhayət, 2020-ci il. Qarabağda Azərbaycanın Vətən müharibəsi. Bu mənada İlham Əliyevi yalnız Alparslan, Fateh, Ənvər paşa və Atatürklə müqayisə etmək olar. Hətta savaş üslubları, savaş ritorikaları da bəzən üst-üstə düşür. Sakarya müharibəsi zamanı "Səddi-müdafiə yoxdur, səddi vətən vardır" deyən Atatürk kimi, İlham Əliyev də "status-kvo yoxdur, təmas xətti yoxdur, onu biz ləğv etdik" - dedi.

1918-ci ildə qazandığı müstəqilliyini qoruya bilməyən Azərbaycan neçə onillikdən sonra yenidən istiqlalına qovuşdu, Azərbaycan beynəlxalq arenada tanındı, rəhbəri dünya liderləri ilə bir araya gəldi. 30 il əvvəl torpaqlarını itirən Azərbaycan beş il əvvəl, 44 günlük müharibə ilə ərazi bütövlüyünü bərpa etdi. Bir həssas məqamı da burda vurğulamaq yerinə düşər. 2014-cü ilin aprelində Praqada Türkiyənin təmsil olunmadığı "Şərq tərəfdaşlığı" sammitində Türkiyənin qarasınca deyinən köhnə düşmənin sözünü "Türkiyə burda yoxdur, amma mən varam", - deyə Azərbaycan Prezidenti İlham Əliyev kəsmiş, Türkiyə həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmışdır. Bu gün isə Şuşadakı, Qəbələdəki Zirvə görüşlərində bir araya gələn Türk Dövlətləri Təşkilatı (TDK) bütün mötəbər siyasi məkanlarda, beynəlxalq siyasi müstəvidə bir-birilərinin sözünü deyir, eyni yerə cəm olmağın qürurunu və əzmini sərgiləyirlər. Bu birlik türk ruhunun qələbəsi olmaqla yanaşı, erməni şovinizminin həyata keçirdiyi tarixi-siyasi proqramın qlobal motivləri və strateji havadarları, ideya kökləri, mənəvi terroru aşkar üsuluna, fəal cəbbəxanasına döndərən məkrinə qarşı tarixin cavabı və rəmzlərlə dolu Varlıq nümunəsidir. Bəli, biz varıq! Yalnız torpaqlarımızı deyil, əzilən qürurumuzu qaytarmışıq, indi isə tariximizə sahib çıxmağın zamanıdır. Ən azı yaddaşlı nəsil yetişdirmək, sabaha öz haqqını bilən və qoruyan gənclik ərməğan etmək üçün! Yəqin ki, oktyabrın 22-də dövlət başçısı İlham Əliyevin I Türkoloji Qurultayın 100 illiyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncam bu xüsusda düşünülmüş möhtəşəmlik aktıdır!

*8 noyabr, 44 günlük Vətən savaşımız ölkəmizin tarixi-siyasi, ədəbi-mədəni və mənəvi həyatında yeni aktiv bir fazanın başlanğıcıdır. Bu başlanğıc nöqtəsindən yeni bir Azərbaycanın və onun yeni tarixinin, ədəbiyyatının, mədəniyyət və incəsətinin ərsəyə gələcəyi şübhəsizdir! Hər şey yerini alacaq. Dağılmış şəhərlər, kəndlər yenidən qurulacaq, əzəlkindən də abad olacaq. Qaçqın-köçkünlər yurda qayıdacaqlar. Ən müasir standartlarla inşa edilən evlərdə yaşayacaq, torpağı vətənə çevirəcəklər. Dövlət başçısı İlham Əliyevin gələcəyə hədəflənmiş amal və niyyətləri hər gün buna daha çox inandırır və o günü daha yaxın edir.*

**Elnarə AKİMOVA,**
***Milli Məclisin deputatı,YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru***



# Tariximizin ən parlaq səhifəsi

*"Vətən müharibəsinə qədər bütün addımlarım bir amala xidmət edirdi ki, biz torpaqlarımızı azad edək, düşməni torpağımızdan qovaq və biz buna nail olduq".*

***İlham ƏLİYEV,***
***Azərbaycan Prezidenti***

XIX əsrin 20-ci illərindən başlayaraq, tarixi torpaqlarımızın erməniləşdirilməsi siyasətinin nəticəsi olaraq, ötən əsrin ikinci dekadasında doğma diyarımızda süni şəkildə Ermənistan adlı dövlət yaradıldı. Sovet hakimiyyəti qurulduqdan sonra isə bolşevik rejiminin dəstəyi ilə Zəngəzurun və digər bölgələrin də Ermənistana birləşdirilməsi Azərbaycana qarşı növbəti ərazi iddialarına gətirib çıxardı. Ötən əsrin 80-ci illərinin əvvəllərindən başlayan Qarabağın ilhaqı prosesi sonrakı mərhələdə aktiv fazaya keçdi və nəticəsi hamımıza məlumdur. Müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü pozuldu, 20 faiz torpağı 30 ildən çox işğal altında qaldı.

Vandalizmlə müşayiət edilən erməni işğalı Azərbaycanın zəngin tarixini özündə yaşadan milli memarlıq abidələrinin, dini-mədəni irsinin, sənət nümunələrinin, kəndlərin, şəhərlərin dağıdılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi və ölkəmizin iqtisadiyyatına ağır zərbələrin vurulması ilə nəticələndi. Azərbaycana 10 milyardlarla dollar dəyərində maddi ziyan vuruldu, bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur oldu.

İşğal altında olan torpaqlarımızın düşməndən azad edilməsini ən ali məqsədi hesab edən Ulu Öndər Heydər Əliyev bütün həyatını bu məqsədyönlü prinsipial məsələyə həsr etdi. Onun bu missiyasını üzərinə götürən Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq, münaqişənin sülh yolu ilə həlli üçün inanılmaz qətiyyət göstərməklə yanaşı, güclü ordu quruculuğunu xüsusi diqqətdə saxladı.

Azərbaycan ərazilərinin bir hissəsinin işğal altında qalmasına baxmayaraq, bütöv və ahəngdar iqtisadi sistem qurmaqla öz inkişaf qabiliyyətini və dünya dövlətləri ilə investisiya, iqtisadi inteqrasiya potensiallarını möhkəmləndirdi, bölgədə nəhəng layihələrin təşəbbüskarı kimi Ermənistanı regional layihələrdən təcrid etdi.

Qlobal iqtisadi mühitə çoxşaxəli inteqrasiya kursu ilə yanaşı, beynəlxalq səviyyədə səmərəli əməkdaşlıq və məharətlə yürüdülən siyasi-hüquqi-diplomatik siyasət dövlətimizin ərazi bütövlüyünün dəstəklənməsində həlledici rol oynadı.

Azərbaycanın iqtisadi gücə əsaslanan dayanıqlı maliyyə resursları, ilk növbədə keçmiş məcburi köçkünlərin həyat şəraitinin və sosial rifahının yaxşılaşdırılmasına və dövlətimizin hərbi qüdrətinin yüksəlişinə yönəldildi. 2003-2020-ci illərdə dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin məbləği 15 dəfədən çox artdı və müdafiə sektoru ciddi şəkildə modernləşdirildi. Ordu quruculuğu ilə paralel şəkildə müdafiə sənayesi kompleksinin formalaşması Silahlı Qüvvələrimizin zəruri silah, sursat və texnika ilə təchizatında mühüm rol oynadı. Davamlı hərbi büdcə strategiyası Zəfərə gedən məsafəsini daha da yaxınlaşdırdı.

Azərbaycan Respublikası hər zaman beynəlxalq hüququn ali prinsiplərinə sadiqliyini nümayiş etdirmiş, təcavüzkar dövləti BMT-nin və digər təsisatların qəbul etdiyi qətnamələri icra etməyə çağırmışdır. Ancaq münaqişənin nizamlanması üçün təsis olunmuş ATƏT-in Minsk qrupu fəaliyyətinin 28 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışaraq işğalın daimiliyinə rəvac vermişdir. Eyni zamanda işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirən BMT TŞ qəbul etdiyi dörd qətnamənin kağız üzərində qalmasına dözmüşdür.

Baş verən bu ədalətsizliklərə və beynəlxalq haqsızlıqlara rəğmən, öz sülhpərvər siyasətinə sadiq qalan Azərbaycan Lideri İlham Əliyev münaqişənin növbəti ağır fazasına start verməyə çalışan və digər ərazilərimizi işğal etməyə cəhd göstərən Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi cəbhəboyu təxribatlara cavab olaraq əks-hücum əməliyyatı başlatdı. "İrəli!" əmri ilə başlayan "Dəmir yumruq" əməliyyatı düşmən ordusunun və havadarlarının ağır məğlubiyyəti və Azərbaycanın tarixi qələbəsi ilə tamamlandı. 44 günlük müharibədə 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad edən Azərbaycanın qarşısıalınmaz hücum aktı qarşısında diz çökən İrəvan noyabrın 10-da kapitulyasiya sənədini imzaladı, Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz təhvil verdi. Prezident İlham Əliyev bu çətin, lakin şərəfli günlərdə bütün cəbhələrdə qətiyyətlə döyüşdü.

İkinci Qarabağ müharibəsi milli həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirdi. Müharibə zamanı və sonrakı dövrdə siyasi partiyaların Ali Baş Komandana dəstək ifadə edən birgə bəyanat və müraciətləri milli məsələlərdə hər hansı fikir ayrılığının olmadığını göstərdi. Yalnız antimilli ünsürlərin - AXCP, Müsavat Partiyası və "Milli Şura"nın xalq-dövlət həmrəyliyindən kənarda qalması bir daha onların xain xislətini əks etdirdi.

8 Noyabr Zəfəri Müzəffər Ali Baş Komandanın yenilməz iradəsini və böyük sərkərdəlik məharətini, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmini, rəşadətini, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsini dünyaya nümayiş etdirdi.

Noyabr Zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi nailiyyət 2023-cü il aprelin 23-də "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması oldu. Sərhəd postunun qurulmasından sonra Xankəndi və ətraf ərazilərdə yerləşən qanunsuz silahlı dəstələrin İrəvan və dünya ilə bağlarının kəsilməsi onların sonunu gətirdi, genişmiqyaslı təxribatlar törətməklə qisas almağa cəhd göstərsələr də, bunun qarşısı qətiyyətlə alındı. 2023-cü il sentyabrın 19-da həyata keçirilən antiterror tədbirləri nəticəsində öz suverenliyini və konstitusiya quruluşunu bərpa edən Azərbaycanın Lideri oktyabrın 15-də Xankəndinin mərkəzi meydanında Azərbaycan bayrağını ucaltmaqla, 200 illik erməni terrorizmi və ekspansionizm ideologiyasını dəfn edən rəmzi tarixi simvollaşdırdı.

Zəfərin şanlı tarix kimi Azərbaycanın dövlətçilik salnaməsində müstəsna yeri hədsiz dərəcədə böyükdür. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradı da məhz bu qürurlu tarixin əhəmiyyətini dünyaya nümayiş etdirdi.

*Zəfər yolunda canlarını fəda edən şəhidlərimiz xalqımızın əbədi yaddaşında və qəlbində yer alır. Şəhid ailələri, müharibə əlilləri və veteranlar dövlətin ən yüksək qayğısı ilə əhatə olunublar. Bu günə qədər şəhid ailələri və müharibə iştirakçılarına 6900 mənzil və 567 avtomobil verilib, 106 min şəxsə aylıq sosial ödəniş təyin edilib, 27,8 min şəxsin məşğulluğu təmin olunub, 25,5 min şəxsə birdəfəlik ödəniş verilib.*

**Ramid NAMAZOV,**
***Milli Məclisini deputatı***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

# Milli məğrurluğumuzun zirvəsi



**Azərbaycan xalqı əlamətdar hadisəni - Vətən müharibəsində qazandığımız şanlı Zəfərin 5-ci ildönümünü təntənə ilə qarşılayır. Böyük qürur hissi ilə qeyd etməliyik ki, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının qətiyyətli və yenilməz siyasi kursunun, ordumuzun qəhrəmanlığının, xalqımızın həmrəyliyinin ən möhtəşəm təcəssümü olan bu Zəfər və onun sayəsində əldə olunan silsilə uğurlar Azərbaycan dövlətini tarixindəki ən qüdrətli mərhələyə yüksəldib.**

Xalqımız beş ildir ki, Müstəqillik Gününü, Milli Qurtuluş Gününü, Müstəqilliyin Bərpası Gününü, Bayraq Gününü, Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və daha neçə-neçə əlamətdar bayramını ərazilərimizin bütövlüyü, suverenliyimizin tam təmini şəraitində qeyd edir. Bu il həm də 8 Noyabr - Zəfər Gününün beşinci ildönümünü Qarabağda və Şərqi Zəngəzurda əbədi dalğalandırılan bayrağımızın bəxş etdiyi qürur hissi ilə "Konstitusiya və Suverenlik İli" kimi ölkəmizin bütün bölgələrində təntənə ilə keçiririk.

### Torpaqlarımızın işğaldan azad edilməsi dövlət siyasətinin prioriteti idi

Azərbaycan xalqı və dövlətimiz adına qazanılan bütün tarixi qələbələrə Prezident İlham Əliyevin qətiyyətli, müdrik və uzaqgörən siyasəti nəticəsində nail olunub. Ötən 22 illik zaman kəsiyində Ulu Öndər Heydər Əliyevin siyasi davamçısı Prezident İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi dönəmdə sürətli iqtisadi inkişaf yaşayan Azərbaycan bu gün dünyanın enerji təhlükəsizliyində yaxından iştirak edən, nəqliyyat qovşağına çevrilən, qlobal siyasətdə söz sahibi olan dövlətlərin belə əməkdaşlıqda maraqlı olduğu ölkəyə çevrilib.

Qarabağ Zəfəri ilə bölgədə kommunikasiyaların açılmasına şəraitin yaranması isə Cənubi Qafqazda daha geniş coğrafiyanı əhatə edəcək əməkdaşlıq və əlaqələr üçün əhəmiyyətli zəmin formalaşdırıb. Multikultural, tolerant ənənələrə sahib Azərbaycanın beynəlxalq ictimaiyyət arasında sülhə birbaşa töhfə verən ölkə olaraq tanınıb təqdir edilməsi gerçəkliyi də digər vacib nüansdır. Bu, ölkəmizin postmünaqişə dövründə müasir sülh quruculuğunda, qlobal əməkdaşlıq və həmrəylik istiqamətində göstərdiyi mühüm səylərinə verilən qiymətdir.

1991-ci ildən - Azərbaycanın müstəqilliyini bərpa etməsindən bugünkü qələbə zirvəsinə uzanan yolu isə elə də asan olmayıb. İşğal görmüşük, dünyanın ikili standartları ilə üzləşmişik, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin onilliklər boyu kağız üzərində qaldığına şahidlik etmişik, ABŞ-nin qərəzli 907-ci düzəlişinə məruz qalmışıq.

Xalqımızın maraqlarının təmini istiqamətində apardığımız milli mübarizəmizin öndərləri Umummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev olub. Torpaqlarımızın işğaldan azad ediləcəyinə əmin olan və bunu hər zaman dilə gətirən Ulu Öndər mötəbər tribunalarda Qarabağ məsələsini qaldıraraq beynəlxalq gündəlikdən düşməsinə qətiyyən imkan vermədi. Müxtəlif güc dairələrinin təzyiqlərini dəf edən, onlara sinə gərən qətiyyətli siyasətçi Heydər Əliyev Qarabağın Azərbaycandan ayrılmasını özündə ehtiva edən heç bir sənədə qol qoymadı. Elə Ulu Öndər Heydər Əliyevin xalqının, ölkəsinin milli maraqları naminə nümayiş etdirdiyi sarsılmaz qətiyyətin sayəsində qorunub saxlanan hüquqi zəmin bütün parametrlərdə sonradan bizə Qarabağ zəfərini qazandırdı: həm tarixi, həm siyasi, həm diplomatik aspektdə.

Ulu Öndərin Azərbaycana misilsiz xidmətlərindən biri də özünün təməlini yaratdığı unikal dövlət irsini layiqli siyasi varisi cənab İlham Əliyevə həvalə etməsi oldu. Həmin vaxt xalqımız dahi liderin bununla bağlı müraciətini müdrikliklə qiymətləndirərək prezident seçkilərində yekdilliklə İlham Əliyevə səs verdi və Heydər Əliyev siyasi yolu son 22 ildə ölkəmizi tarixi qələbələrin yaşandığı bugünkü günümüzə çatdırdı.

15 oktyabr 2003-cü ildə Prezident olaraq and içdiyi gündən etibarən torpaqlarımızın azadlığını gündəliyindəki ən vacib məsələ kimi müəyyən edən cənab İlham Əliyev atdığı praqmatik və uzaqgörən addımlar sayəsində ölkəmizin qarşısında duran taleyüklü məsələləri bir-bir həll etdi. Qarabağ və Şərqi Zəngəzur işğal altından qurtarıldı, ərazi bütövlüyümüz və suverenliyimiz təmin olundu, Konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi.

Bu ilin sentyabr ayında Nyu Yorkda BMT-nin 80 illik yubiley sessiyasındakı çıxışında Prezident İlham Əliyevin nitqinə ölkəmizin keçdiyi çətin və şərəfli yoldan bəhs edərək başlaması da təsadüfi xarakter daşımırdı. Bu həm də Azərbaycanın timsalında dünyanın ikili standartları ilə üz-üzə qalan, BMT TŞ-nin onilliklər boyu kağız üzərində qalan qətnamələrini özü hərb yolu ilə yerinə yetirərək qalib gələn bir ölkənin mötəbər tribunadan dünyadakı bu tip münaqişələrin həllinə necə nail olunması, yeni və ədalətli dünya nizamının necə qurulması ilə bağlı çağırışı, örnək götürüləsi yolu idi: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

### Ordumuz cəmi 44 günə düşməni diz çökdürdü

Azərbaycanın dünyanın hər yerindən görünən və təqdir edilən bugünkü qələbələrə çatması üçün Prezident İlham Əliyev fəaliyyəti ərzində sözün həqiqi mənasında möcüzə adlandırılacaq işlərə imza atdı. Azərbaycanın qüdrətli dövlətə çevrilməsi üçün həm daxildə hərtərəfli islahatlar həyata keçirdi, həm də ölkəmizin beynəlxalq aləmdə tanınması, digər ölkələrlə ikitərəfli əlaqələr qurması, əməkdaşlığı üçün sistemli və nəticəyönümlü addımlar atmağa başladı.

Dünyada baş verən hadisələri yaxından izləyərək dərin analizlər aparan müdrik lider Azərbaycanın iqtisadi və hərbi gücünün artırılmasının vacib tələb olduğunu qarşısına hədəf qoyaraq bu istiqamətdə kompleks işlər həyata keçirməyə başladı. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin sayəsində imzalanan və "Əsrin müqaviləsi" kimi tarixə düşən neft sazişi ilə ölkəmizdə sağlam təməli atılan iqtisadiyyatımızın dayanıqlı inkişafı təmin olundu. Paralel olaraq Azərbaycan Ordusunun modernləşdirilməsi, Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, bir sözlə, hərbi gücümüzün daha da artırılması üçün lazımi tədbirlər görüldü.

2016-cı ildə baş verən və Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan dördgünlük Aprel döyüşləri hələ o dövrdə Silahlı Qüvvələrimizin hansı gücə malik olduğunu ortaya qoydu. Eyni zamanda illərlə haqqında "məğlubedilməzlik" mifləri yaradılan Ermənistan ordusunun hərb meydanında biabırçı məğlubiyyətə uğraması işğalçıya Qarabağ torpağından birdəfəlik çıxarılacağının mesajını verdi.

Azərbaycan onilliklər boyu işğal altında olan ərazilərinin danışıqlar yolu ilə azad edilməsinə tərəfdar oldu, münaqişənin diplomatik yolla həllinə çalışdı. Eyni zamanda Azərbaycan hər zaman bəyan etdi ki, sülh danışıqları nəticəsiz qalarsa, torpaqlarımız döyüş ilə işğaldan azad ediləcək. Lakin Ermənistana havadarlıq edən Qərb dairələri Qarabağ münaqişəsinin yoluna düşməsini faktiki olaraq istəmirdilər. Bu il fəaliyyətinə de-yure son qoyulan ATƏT-in keçmiş Minsk qrupu da problemin həlli istiqamətində heç bir iş görmədi. Burada məqsəd Azərbaycanın işğal reallığı ilə barışması idi. Lakin ərazilərimizin işğal altında qalması Azərbaycan üçün qəbuledilməz idi. Digər tərəfdən Ermənistanın artan siyasi və hərbi təxribatları cəbhə xəttində hərbi əməliyyatların yenidən başlanmasını qaçılmaz edirdi.

2020-ci ilin iyulunda Ermənistanın növbəti təxribatı nəticəsində baş verən Tovuz döyüşləri Azərbaycanın səbrini tükəndirən son damla oldu. On minlərlə vətənpərvər gəncimizin Ali Baş Komandan İlham Əliyevə torpaqlarımızın işğaldan azad edilməsi üçün könüllü olaraq müharibəyə yollanmaq istəklərini bildirməsi həm də o dövrdə xalq-ordu-dövlət birliyini bir daha nümayiş etdirdi. Elə bu sarsılmaz birlikdən yaranan "dəmir yumruq" 2020-ci il sentyabrın 27-dən etibarən işğalçını torpaqlarımızdan qovmağa başladı.

Həmin gün xalqa müraciətində Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev bəyan etdi ki, bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq: "Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Ali Baş Komandan İlham Əliyevin Vətən uğrunda "İrəli!" əmri ilə düşmən üzərinə yeriyən qəhrəman döyüşçülərimiz müharibənin ilk günündən addım-addım torpaqlarımızı azad edərək, xalqımıza qələbə şadlığı yaşatmağa başladılar. Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevdən aldığımız zəfər müjdələri ölkəmizin dörd bir yanında bayram coşqusu yaratdı, hər birimizin qəlbini fərəhləndirdi.

İkinci Qarabağ müharibəsi dövründə Prezident İlham Əliyevin informasiya cəbhəsində apardığı mübarizə də yaddaşlarda dərin iz buraxdı. Həmin zaman onlarca beynəlxalq kütləvi informasiya vasitəsinə müsahibə verən dövlət başçısı ölkəmizin həqiqətlərini dünyaya çatdırdı. Bəzi hallarda ona ünvanlanan qərəzli sualları isə düşünülmüş, faktlara əsaslanan və məntiqli cavabları ilə alt-üst etdi.

O zaman qardaş Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyevin "İstiqamət hər tərəfdir. İşğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlərlə müqayisədə eynidir, bərabərdir" deməsi bir Ali Baş Komandan, vətənpərvər şəxsiyyət kimi hər bir qarış torpağımızın cənab İlham Əliyev üçün nə dərəcədə əziz olduğunu bir daha göstərdi.

Sözügedən müsahibəsində möhtərəm Ali Baş Komandanın "Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar" sözləri həm də döyüşçülərimiz üçün kod parol, hər bir hərbçimizin savaş istiqamətinin məhz Şuşaya olduğunun mesajı idi.

Rəşadətli Azərbaycan Ordusu 44 günlük müharibənin hər günündə misilsiz qəhrəmanlıq nümayiş etdirdi. Nə keçilməz sayılan "Ohanyan səddi", düşmənin basdırdığı minalar, qurduğu tələlər, nə də təbii maneələr döyüşçülərimizin Şuşaya yolunu kəsə bildi. Həmin vaxt Silahlı Qüvvələrimiz işlətdiyi hərbi taktika, modern silahlardan sərrast istifadəsi ilə yeni nəsil müharibə aparan ordu kimi də adını dünyanın hərb tarixinə yazdırdı. 44 günlük müharibədə ordumuzun həyata keçirdiyi hərbi əməliyyatların bir sıra ölkələr tərəfindən diqqətlə öyrənilməsi də buna görədir. Azərbaycan Ordusu Vətən müharibəsinin 44 günü ərzində böyük qəhrəmanlıq nümayiş etdirərək 300 yaşayış məntəqəsini, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəkliyi düşməndən azad etdi.

Milli mədəniyyətimizin beşiyi olan Şuşa şəhərinin 2020-ci il noyabr ayının 8-də işğaldan azad edilməsi müharibənin taleyini həll edən əsas hərbi hadisə oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, 8 Noyabr respublikamızda Zəfər Günü kimi qeyd olunur.

10 noyabr 2020-ci ildə Ermənistanın kapitulyasiya aktı olan üçtərəfli Bəyanata imza atması ilə Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan, bir itki verilmədən işğaldan azad edildi. 2024-cü ilin mayında Qazax rayonunun 30 il işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin azad olunması isə dövlətimizin Vətən müharibəsi zəfəri müstəvisində tarixi siyasi-diplomatik uğuru oldu.

44 günün Qələbə zirvəsini həm də 10 dekabr 2020-ci ildə keçirilən Zəfər paradında yaşadıq. Xalqımızın vaxtilə milli mübarizə apardığı Azadlıq meydanında baş tutan Zəfər paradında Dövlət bayrağımız və 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında Silahlı Qüvvələrimizin şəxsi heyəti qürurla addımladı. O gün Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqları Azadlıq meydanında dalğalandırıldı.

Zəfər paradında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, fəxri qonaq qismində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etdilər. Azərbaycanın Azadlıq meydanından dünyaya qardaşlığın gücü nümayiş olundu.

### Suverenliyimiz tam təmin edildi, bütün ərazilərimizdə Azərbaycanın konstitusiya quruluşu bərqərar olundu

Qarabağ zəfərinin məntiqi davamı olaraq 2023-cü il aprel ayının 23-də Laçın sərhəd-buraxılış məntəqəsi quruldu. Həmin il sentyabrın 19-20-də Qarabağda keçirilən və cəmi 23 saat çəkən lokal xarakterli antiterror tədbirləri ilə ərazilərimizdəki erməni separatçılığının kökü kəsildi, dövlət suverenliyimiz tam təmin edildi, müstəqillik tariximizdə ilk dəfə bütün ərazilərimizdə Konstitusiyamız hüquqi qüvvəyə mindi.

Həmin il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldan Prezident İlham Əliyev qürurla "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi", - deyə bəyan etdi.

Qarabağda separatizmin tabutuna son mismarın çalınması ilə daha bölgəmizdə Rusiya sülhməramlılarına da ehtiyac qalmadı və onlar ötən il ərazilərimizi tərk etdilər. Azərbaycanın ardıcıl və məqsədyönlü şəkildə atdığı addımlar regionda 30 ildir ki, davam edən münaqişəyə birdəfəlik son qoydu. Bununla bölgədə silahlar susdu, diplomatik fəaliyyət işə düşdü və sülh üçün səhifələr açıldı.

Son beşillik, xüsusilə 2023-cü ildən sonrakı dövrü Cənubi Qafqazda sülh, barış, normallaşma üçün xeyli irəliləyişlərin əldə edildiyi mühüm mərhələ hesab etmək olar.

Qarabağ zəfərindən dərhal sonra Ermənistana sülh təklif edən Azərbaycan bunun üçün beş baza prinsipi irəli sürdü. Əvvəlcə Moskvanın, daha sonra Avropanın iştirakı ilə iki ölkə arasında görüşlər keçirildi, amma Ermənistan və Azərbaycan öz aralarında vasitəçilərsiz dialoqlara başlayana qədər normallaşma istiqamətində hansısa effektiv nəticələr əldə edilmədi. Azərbaycanın qətiyyətli siyasəti Ermənistana özünün qurtuluş yolunun revanşdan deyil, sülhdən keçdiyini diktə etdi.

Bu ilin 8 avqust tarixində Vaşinqtonda, Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan və Azərbaycan liderlərinin Birgə Bəyannamə imzalamaları, sülh sazişi layihəsinin mətninin paraflanması barış üçün vacib əsaslar yaratdı ki, bütün bunlar 8 Noyabr Zəfərinin bölgədə yaratdığı yeni reallıqların əsasında əldə olundu.

Azərbaycan Prezidenti haqqında yüksək fikirdə olan və bunu dəfələrlə dilə gətirən ABŞ lideri Donald Trampın dövlət başçımızın avqustda Vaşinqtona rəsmi səfəri zamanı "Azadlığa dəstək aktı"na edilən ədalətsiz 907-ci düzəlişdən cənab İlham Əliyevin iştirakı ilə oval ofisdə imtinası da rəmzi mənası ilə diqqət çəkdi.

Vaşinqtonda Azərbaycanın öz ərazisindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidi təmin edən Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılıq da əldə edildi. Orta dəhlizin strateji bəndi kimi və "Şərq-Qərb" kommunikasiyasının ən hərəkətverici qüvvəsi olacaq Zəngəzur dəhlizi bölgəyə geniş perspektivdə inkişaf və əməkdaşlıq vəd edir. Bu dəhlizin vaxtilə məqsədyönlü şəkildə parçalanmış türk dünyası coğrafiyasını bərpa etməsi də tarixi uğurdur.

Bu gün Prezident İlham Əliyevin qlobal məsələlərin həll olunduğu və müxtəlif ölkələrdə keçirilən mötəbər beynəlxalq konfranslarda ardıcıl iştirakı onu göstərir ki, dünya da Azərbaycanın sülh səylərini dəstəkləyir və nümunə götürür. Ötən ay ABŞ lideri Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində dövlətimizin başçısının iştirakı Azərbaycanın bölgəyə dayanıqlı barış, inkişaf və tərəqqi vəd edən praqmatik addımlarının doğurduğu nəticələrdən idi.

Ortaq tarixi köklərə malik olduğumuz türkdilli xalqların, dövlətlərin Qarabağ zəfərini böyük sevinc və qürurla qarşılamaları təsadüfi deyildi. Çünki müzəffər lider İlham Əliyev bu qələbəni həm də "türk dünyası ailəsi" adına qazanıb. Buna görədir ki, 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edildi.

Bu mənada elə həmin il iyunun 15-də - Qurtuluş Günündə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərində siyasi-hüquqi, hərbi-geostrateji bəyannamə imzalamaları ümumilikdə bölgədə təhlükəsizlik və sülh üçün mühüm addım oldu. Tarixi Qars müqaviləsinin yüzüncü ildönümündə imzalanan Şuşa Bəyannaməsi bir millət, iki dövlət sayılan Azərbaycan və Türkiyə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə qaldırdı. Ümumiyyətlə, atılan bütün bu addımlar türk dünyasının birliyinə mühüm töhfələr verir.

### Tam və mütləq Qələbə

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi genişmiqyaslı bərpa işləri və Böyük qayıdışın sürətlə gerçəkləşdirilməsi isə ölkəmizin quruculuq meydanındakı zəfəridir. Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə bu ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd"lər salınır, modern infrastruktur qurulur. Sadəcə son dörd ildə həmin iqtisadi bölgələrimizdə üç beynəlxalq hava limanı tikilərək istifadəyə verilib ki, bu özü işğaldan azad edilən ərazilərdə həyata keçirilən quruculuq işlərinin hansı miqyasda olduğunu göstərir. 2021-ci ildə Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanının, 2022-ci ildə Zəngilan Beynəlxalq Hava Limanının, bu il isə Laçın Beynəlxalq Hava Limanının açılışı olub. Hər üç hava limanının açılışını dövlətimizin rəhbəri İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə edib.

2020-2025-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən lazımi səviyyədə vəsait ayrılıb. Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın öz daxili imkanları hesabına bərpa olunması bir daha dövlətimizin qüdrətini dünyaya bəyan edir.

Vurğulanası vacib məqamlardan biri isə budur ki, dövlətimiz yurdlarına dönən insanların iş yerləri ilə təmininə də xüsusi diqqət yetirir ki, bu, çox vacib məqamdır.

Həmçinin Xankəndidə Qarabağ Universitetinin fəaliyyət göstərməsi burada elm sahəsinin inkişafından xəbər verir. Qədim ənənələri, mənəvi dəyərləri yenidən dirçəldilən Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini, mədəni abidələrimizin bərpası Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən böyük diqqət, yüksək zövqlə həyata keçirilir. Hər kəs xatırlayır, 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyevlə birgə işğaldan azad edilən torpaqlara səfər edən Mehriban xanım Əliyevanın paylaşdığı videoçəkilişlərdən o yerlərdə törədilən vandallıq aktlarını yaxından görmüş olduq. Ancaq indi həmin ərazilərə səfər edən hər kəs, istər yerli, istərsə də xarici vətəndaşlar qısa zamanda burada həyata keçirilən quruculuq işlərini təqdir və heyranlıqla seyr edirlər. İndi Qarabağ və Şərqi Zəngəzur beynəlxalq konfransların, toplantıların, festivalların keçirildiyi ünvana çevrilib.

Bütün bunlar və toxunmadığımız daha neçə-neçə tarixi qələbə Şuşa zəfərinin doğurduğu parlaq nəticələrdir. Zəfərimizin beşinci ildönümünü qeyd etdiyimiz 2025-ci ili cənab Prezidentimizin "Konstitusiya və Suverenlik İli" elan etməsi də simvolik məna daşıyır. Xalqımız artıq neçə ildir ki, bayramlarını ikiqat sevinc, anım günlərini torpaqlarımızın bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizin qisasının alınmasının qüruru ilə qeyd edir.

Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında cənab Prezident ölkəmizin keçdiyi inkişaf və qələbə yolunu qısaca olaraq belə şərh etdi: "...Son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq".

Ölkəmizin rəhbəri onu da qeyd etdi ki, son beş il ərzində dünyada bir çox yerdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilirlər: "Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır".

Baş verən prosesləri zərgər dəqiqliyi ilə ölçüb-biçmək və sərrast məntiqlə qərar vermək kimi unikal istedada sahib Prezident İlham Əliyevin düşünülmüş siyasəti, atdığı praqmatik addımlar sayəsində müzəffər xalqa, qalib dövlətə çevrilmişik.

*Ötən il fevralın 7-də ərazi bütövlüyünü və dövlət suverenliyini, konstitusiya quruluşunu tam təmin edən ölkə olaraq Azərbaycanda ilk dəfə keçirilən prezident seçkilərində növbəti dəfə qədirbilən xalqımızın cənab İlham Əliyevi yekdilliklə dəstəkləməsi də elə Zəfər sərkərdəsinə göstərilən ali etimadı özündə təcəssüm etdirirdi.*

*44 günlük Vətən savaşında qazanılan Zəfər milli məğrurluğumuzun zirvəsidir. Bu zəfərin parlaq işığı Azərbaycanın gələcək inkişafına, xalqımızın rifah və tərəqqisinə hər zaman nur saçacaq.*

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL



**Azərbaycan 5 il əvvəl tarixi zəfər qazandı. 44 gün davam edən haqq mübarizəmizdə digər ərazilərimiz kimi, Qarabağın baş tacı olan Şuşanın da azad olunması əsas missiya idi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibənin gedişində nüfuzlu KİV-in birinə verdiyi müsahibələrdə bəyan etmişdi: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Ancaq Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Şuşasız bizim işimiz yarımçıq olar".**

# Azərbaycan böyük Zəfəri öz gücü ilə qazandı

Sentyabrın 27-də Qarabağda başlayan uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək Azərbaycan Ordusu 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Prezident İlham Əliyev müharibə dövründə dünyanın nüfuzlu KİV-inə verdiyi 30-dan çox müsahibəsində münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırdı. Bu, döyüş meydanında hər gün uğur qazanan Azərbaycanın həm də informasiya cəbhəsindəki qələbəsi idi. Dövlət başçımız bütün çıxışlarında Azərbaycanın ədalətli sülh istədiyini bəyan edirdi.

44 günlük müharibə eyni zamanda xalqımızın milli birliyini və siyasi həmrəyliyini nümayiş etdirdi. Belə ki, Vətən müharibəsi zamanı siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması milli məsələlərdə ölkədə hər hansı bir fikir ayrılığının olmadığının təsdiqi idi.

2020-ci il noyabrın 8-də, alınmaz qala sayılan Şuşanın işğaldan azad olunmasından sonra müharibənin taleyi həll olundu. Dövlət başçımızın da bəyan etdiyi kimi, Şuşanın şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir: "Şuşa mədəniyyət ocağı kimi tanınsa da, eyni zamanda qəhrəmanlıq, zəfər və sülh rəmzidir".

Şuşa qəhrəmanlıq, peşəkarlıq, fiziki güc və yüksək milli ruh nəticəsində azad olundu. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdamı, noyabrın 25-də Kəlbəcəri, dekabrın 1-də isə Laçın rayonunu Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü.

Vətən müharibəsindən sonra regionda yeni reallıqlar yarandı. Azərbaycan öz sərhədlərində möhkəmlənməyə başladı. 23 aprel 2023-cü il tarixində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması isə Şuşa Zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi qələbə kimi tarixə düşdü. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü təmin olundu.

2023-cü il sentyabrın 19-dan 20-nə keçən gecə isə üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması məqsədilə Azərbaycan lokal xarakterli antiterror əməliyyatına başladı. Cəmi 23 saat davam edən əməliyyatlar nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi. Bu, 44 günlük Vətən müharibəsinin məntiqi sonluğu idi.

Beş il əvvəl Azərbaycanın qazandığı zəfər regionun təhlükəsizliyini təmin etdi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, noyabrın 8-i Zəfər Günü elan edilib. 2021-ci il yanvarın 14-də isə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Bütün azad olunmuş ərazilərimizdə olduğu kimi, Şuşada da bərpa-quruculuq işləri planlı şəkildə aparılır. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın tarixi siması qorunur.

Cənab Prezidentin bəyan etdiyi kimi: "Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq". Ötən 5 il ərzində işğaldan azad olunmuş ərazilərin kompleks bərpası uğurla reallaşmaqdadır. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın ümumi icra faizi təqribən 79 faizdir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri üçün 2025-ci il də daxil olmaqla 21,6 milyard manat vəsait ayrılıb. Növbəti ilin büdcəsində də azad olunmuş ərazilərin bərpası əsas prioritetlər sırasındadır.

Qeyd edək ki, azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanmış, əhalinin yaşayışı və iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunmuşdur. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təhsil alan 2152 nəfər tələbə də nəzərə alınmaqla, işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı 59 min 565 nəfərdir. Prezident İlham Əliyevin sərəncamına əsasən, "Böyük Qayıdışa dair II Dövlət Proqramı" da hazırlanır.

*8 Noyabr həm də Şuşa Şəhəri Günü kimi qeyd olunur. Ümumiyyətlə, işğaldan azad edilmiş şəhərlərin günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Növbəti hərbi paradını keçirən Azərbaycan xalqının 5 il əvvəl qazandığı böyük Qələbə bütün gələcək nəsillər üçün qürur mənbəyidir.*

***Nigar MƏMMƏDOVA,***
***Milli Məclisin deputatı***

# Əbədi qürur mənbəyimiz

**Bu gün xalqımız müstəqillik dövrünün ən əlamətdar günlərindən birini - Zəfər Gününü qeyd edir. Zəfər Günü hər bir azərbaycanlı üçün qürur mənbəyi, böyük mənəvi əhəmiyyəti olan bir tarixdir. Bu tarix Prezident İlham Əliyevin qətiyyətini, dövlətimizin qüdrətini, ordumuzun gücünü, xalqımızın birliyini dünyaya bəyan edir.**

Müasir beynəlxalq münasibətlər sistemində ziddiyyətlər hökm sürür. Beynəlxalq hüquq qaydaları bir çox halda kobud şəkildə pozulur. Belə bir şəraitdə dövlətlərin öz milli hüquqlarını təmin etmələri də kifayət qədər çətinliklər yaradır. Azərbaycan ərazilərinin 30 ilə yaxın işğal altında qalması da beynəlxalq hüququn kobud şəkildə tapdalanması idi. Bunu edən isə yalnız Ermənistan deyildi, həm də ona dəstək verən Qərbin siyasi dairələri idi. Elə buna görə də Qarabağ problemini 30 ilə yaxın bir dövr ərzində danışıqlar yolu ilə həll etmək mümkün olmadı. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycan ərazilərinin işğaldan azad olunmasını tələb edən 4 qətnamə qəbul etsə də, Ermənistan öz havadarlarına arxalanaraq bu sənədlərin icrasından yayındı. ATƏT-in Minsk qrupu isə işğalçını öz adı ilə çağırmaqdan yayındı, ikili standartlardan çıxış edərək təcavüzkara dəstək verdi.

Qarabağ məsələsi Azərbaycan dövlətinin haqq işi idi. Təcrübə isə göstərir ki, ölkəmizi öz haqlı mövqeyindən çəkindirmək mümkün deyil. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun yeganə məqsədi torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması idi. Bu siyasəti qətiyyətlə davam etdirən Prezident İlham Əliyev respublikamıza rəhbərliyinin ilk günündən bəyan etdi ki, torpaqlarımız nəyin bahasına olursa-olsun, işğaldan azad ediləcəkdir. Bu gün Azərbaycanın keçdiyi inkişaf yollarını nəzərdən keçirəndə görürük ki, möhtərəm İlham Əliyev torpaqlarımızın işğaldan azad edilməsi üçün çoxvektorlu siyasət yürüdüb. Hərbi quruculuqla yanaşı, həm iqtisadi siyasətin, həm də xarici siyasətin mərkəzində dayanan əsas amillərdən biri torpaqlarımızın işğaldan azad edilməsi olub. Vətən müharibəsinə qədər gedilən yol göstərir ki, Azərbaycanın həm iqtisadi yüksəlişinin təmin olunması, həm də beynəlxalq mövqelərinin möhkəmləndirilməsi torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlarını təmin edən əsas meyarlardır. Beləliklə, Azərbaycan həm iqtisadi, həm də siyasi sferada fəal iş apardı, hücum diplomatiyası yürüdərək dünya erməniliyinin saxta iddialarını ifşa etdi, Ermənistanı bütün platformalarda çıxılmaz vəziyyətə saldı.

Azərbaycan dövləti nə qədər sülh danışıqlarına sadiq qalsa da, ədalətin bərpa olunmasında güc variantını da istisna etmədi. Ermənistanın danışıqlar prosesini sabotaj etməsi və davamlı şəkildə hərbi təxribatlar törətməsi 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlanması ilə nəticələndi. Əslində, bu, bütün Azərbaycan xalqının gözlədiyi tarixi anın yetişməsi idi. Həmin gün Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu özünün tarixi və müqəddəs missiyasının icrasına başladı.

Azərbaycan xalqı dövlətimizin bu savaşdan qalib çıxacağına əmin idi. Bu əminliyi doğuran əsas amillər Silahlı Qüvvələrimizin yüksək döyüş imkanlarına malik olması, xalqımızın həmrəyliyi və Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi idi. Bu əminliyi formalaşdıran əsas siyasi amil isə cənab Prezident İlham Əliyevin yürütdüyü cəsarətli və qətiyyətli siyasət idi. Və elə müharibənin ilk günündən xalqımızın əminliyi döyüş meydanlarında özünü layiqincə doğrultdu. Azərbaycan Silahlı Qüvvələri ilk gündən özünün döyüş imkanları ilə Ermənistan ordusu üzərində müqayisəyə gəlməz üstünlüyə malik olduğunu nümayiş etdirdi. Yeni nəsil müharibə aparan ordumuz bir-birinin ardınca şəhər və kəndlərimizi azad etməklə xalqımızın yeni qəhrəmanlıq tarixini yazdı. Ordumuzun şəxsi heyəti bu savaşda vətəni sevməyin yeni nümunələrini yaratdı. Bəli, Ali Baş Komandanı cənab Prezident İlham Əliyev olan ordumuz bu savaşda öz missiyasını uğurla, qətiyyətlə yerinə yetirdi, işğal altında olan torpaqlarımız cəmi 44 günə azad edildi.

Vətən müharibəsində hər bir şəhərimizin, kəndimizin və qəsəbəmizin azad edilməsi xalqımızın əbədi qürur mənbəyi olan qəhrəmanlıq nümunəsidir. Müharibənin ilk günündən bütün vətəndaşlarımız ordumuzun qələbə dolu yürüşünü səbirsizliklə gözlədilər. Prezident İlham Əliyevin xalqa müraciətləri zamanı zəfər xəbərlərini bəyan etməsi bütün Azərbaycan xalqına sonsuz sevinc yaşatdı.

Döyüşlərin ilk günündən başlayaraq şəhər və kəndlərimizin işğaldan azad edilməsi müharibənin gedişinə təsir göstərdi, bizi qələbəyə yaxınlaşdırdı. 2020-ci il noyabrın 8-də Qarabağın mirvarisi Şuşanın azad edilməsi isə 44 günlük müharibənin taleyini müəyyənləşdirən əsas hadisə oldu. Azərbaycan Ordusunun məhz Şuşa zəfərindən sonra Ermənistan kapitulyasiya etdi. 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat 44 günlük müharibədə Azərbaycanın qələbəsinin, Ermənistanın isə məğlubiyyətinin hüquqi təsdiqi oldu.

Bu möhtəşəm zəfərin memarı Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək, Ulu Öndərin başladığı işi məntiqi sonluğuna çatdırdı, bununla da öz adını Azərbaycan tarixinə qüdrətli sərkərdə, Müzəffər Ali Baş Komandan kimi əbədi yazdırdı. Dövlətimizin gücünün və milli qürurumuzun təntənəsinə çevrilən bu möhtəşəm qələbə Prezident İlham Əliyevin sərəncamı ilə əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, noyabr ayının 8-i Zəfər Günü elan edildi.

Zəfər Günü ilə yanaşı, noyabrın 8-i ölkəmizdə həm də Şuşa Şəhəri Günü kimi qeyd olunur. Qeyd etdiyimiz kimi, Şuşanın azad edilməsi Vətən müharibəsinin taleyini müəyyən etdi. Həmin gün Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Şuşanın azad edilməsi xalqımız üçün həm də mənəvi qələbə oldu. Çünki Şuşa bizim milli mədəniyyətimizin və incəsənətimizin əsas ünvanlarından biri, musiqimizin beşiyidir. Şuşa Azərbaycan tarixində müstəsna yeri olan bir şəhərdir. Elə buna görə də Şuşanın bərpası və quruculuğu Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Dövlət başçısının indiyə kimi Şuşaya dəfələrlə səfər etməsi də bu diqqətin təzahürüdür. Azadlığına qovuşmuş bu qədim yurd yerimizdə indi böyük quruculuq, və təmir-bərpa işləri aparılır. Ötən 5 ildə Şuşada olduqca əzəmətdi infrastruktur layihələri icra olunub. İşğaldan azad edilmiş ərazilərimizin quruculuğuna layiqli töhfələr verən Heydər Əliyev Fondu da Şuşanın bərpası prosesində yaxından iştirak edir. Şuşanın tarixi ənənələri də bərpa olunub. "Xarıbülbül" festivalının və Vaqif Poeziya Günlərinin keçirilməsi Şuşanın mədəni dirçəlişindən xəbər verir.

Şuşa Azərbaycan üçün müstəsna yeri olan şəhərdir. 2021-ci ildə Milli Məclis tərəfindən "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə 2022-ci ilin Azərbaycan Respublikasında "Şuşa ili" elan edilməsi də bunu təsdiq edir.

*Şuşanın azad edilməsi türk dövlətlərində, o cümlədən islam dünyasında böyük sevinclə qarşılandı. Buna görə də Şuşa 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı", 2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. 2026-cı il üçün isə Şuşa "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" elan olunub. Quruculuğu ilə göz oxşayan Şuşa həm də beynəlxalq tədbirlərin keçirildiyi bir ünvandır.*

*Ermənilərin işğal dövründə dağıtdıqları Şuşa bu gün sürətlə bərpa olunur, tarixi simasını, ənənələrini özünə qaytarır. Bu qədim yurd yerimiz öz tarixi, dəyərləri, ənənələri və əzəməti ilə Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu dünyaya bəyan edir.*

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı*

**2020-ci ilin 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm, şanlı Qələbədən beş il ötür. Bu tarix Azərbaycan xalqının qətiyyətinin, sarsılmaz iradəsinin və yenilməz ruhunun təntənəsi, tariximizin qızıl hərflərlə yazılmış ən parlaq səhifəsidir. 8 Noyabr Azərbaycan xalqının tarixində elə bir gündür ki, əsrlər boyu fəxrlə anılacaq. Həmin gün təkcə torpaqlarımızı işğaldan azad etmədik, həm də dövlət və millət olaraq iradəmizi, qüdrətimizi və birliyimizi bütün dünyaya göstərdik!**

# Milli və siyasi birliyin qələbəsi

Təbii ki, Vətən müharibəsinin əsas qəhrəmanı bütövlükdə Azərbaycan xalqı, şanlı Azərbaycan Ordusu, qəhrəman zabit və əsgərlərimizdir. Amma o da danılmaz faktdır ki, hər bir qalib xalqın və ordunun başında bir qəhrəman Lider dayanır. Bu mənada əldə etdiyimiz möhtəşəm qələbənin təməlində ilk növbədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli, prinsipial və uzaqgörən Liderliyi dayandı. Otuzillik işğala son qoymaq üçün göstərilən siyasi iradə, illər boyu qurulan güclü iqtisadiyyat və müasir ordu quruculuğu birmənalı olaraq Zəfərimizin qarantı oldu. Ali Baş Komandanın "dəmir yumruq" siyasəti düşmənin təxribatlarına verilən ən layiqli cavab idi. Azərbaycan Prezidenti Ali Baş Komandan olaraq müzəffər ordumuza başçılıq etməklə yanaşı həm də informasiya müharibəsinə bilavasitə rəhbərlik etdi, 44 gün ərzində müxtəlif xarici KİV-ə verdiyi müsahibələrlə Azərbaycanın haqq səsini bütün dünyaya eşitdirdi. Onun hər bir çıxışı, o cümlədən müharibənin gedişində verdiyi qərarlar xalqımızın və əsgərimizin döyüş ruhunu yüksəltdi, ordunun qələbə əzmini daha da sarsılmaz etdi.

Bu Liderliyin ən böyük mükafatı isə o oldu ki, Azərbaycanın igid əsgər və zabitləri Ali Baş Komandanın "İrəli!" əmrini tərəddüd etmədən canla-başla yerinə yetirərək, çətin relyefli ərazilərdə düşmənin on illərlə qurduğu və keçilməz hesab etdiyi müdafiə xətlərini yararaq misilsiz şücaət göstərdilər. Vətən torpağının hər qarışı uğrunda şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı ilə yazılan yeni bir qəhrəmanlıq dastanı yarandı. Xüsusilə də Qarabağın baş tacı olan Şuşanın azad edilməsi unikal hərbi əməliyyat olaraq dünya hərb tarixinə düşdü və müharibənin taleyini həll etdi. Bu möhtəşəm qələbə ordumuzun peşəkarlığının, mənəvi-psixoloji hazırlığının və qələbə əzminin ən böyük sübutudur.

44 günlük Vətən müharibəsi eyni zamanda Azərbaycan xalqının sarsılmaz birliyini nümayiş etdirdi. Siyasi baxışlarından, sosial vəziyyətindən və cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, xalqımızın bütün nümayəndələri Prezidentin, Ali Baş Komandanın ətrafında "bir yumruq" kimi birləşdi. Bu birlik həm döyüş meydanında, həm də arxa cəbhədə özünü göstərdi. Hər kəs harada olmasından asılı olmayaraq, öz dəstəyini, inamını və həmrəyliyini nümayiş etdirdi ki, bu da Azərbaycanın ən böyük mənəvi gücünün nümayişi idi. Müharibənin gedişində xalq-iqtidar birliyi Zəfərin təməl daşı oldu, düşmənə qarşı aparılan haqq mübarizəsində Azərbaycan dövlətinin və millətinin monolit olduğunu bir daha bütün dünyaya sübut etdi.

8 Noyabr - Zəfər Gününün 5-ci ildönümündə azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu ərazilərə həyatın geri qayıtması möhtəşəm Qələbəmiznin davamıdır. Şəhidlərimizin qanı ilə suvarılan, qazilərimizin əzmi ilə qazanılan bu Zəfər həm də müstəqil Azərbaycan dövlətçiliyinin və milli qürurumuzun əbədi rəmzi olaraq müasir tariximizə qızıl hərflərlə yazılmışdır.

*Bizə bu qüruru yaşadan şəhidlərimizə Uca Tanrıdan rəhmət, qazilərimizə cansağlığı diləyi ilə "Qələbəmiz mübarək, müstəqilliyimiz və suverenliyimiz əbədi olsun!" deyirik.*

***Arzuxan ƏLİ-ZADƏ,***
***Azərbaycan Milli İstiqlal Partiyasının sədri,***
***Milli Məclisin deputatı***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 5 İL

# Tarixin axarına yeni başlanğıc verən ZƏFƏR



**Bəşəriyyətin tarixi təcrübəsi belə bir həqiqəti təkrar-təkrar təsdiqləyib və bu gün də sübuta yetirməkdədir ki, milli dövlətçiliyin sabitliyi və möhkəmliyi lider faktorundan birbaşa asılıdır. Yalnız icmanı milli dövlət quruculuğu səviyyəsinə yetirərək millətə, onun nailiyyətlərini tarixi qələbələrə çevirməyə qadir güclü və istedadlı liderlərə malik cəmiyyətlərdə milli dövlətçiliyin sabitliyi, möhkəmliyi təmin edilə bilər.**

Azərbaycanın ən yeni tarixinin təhlili müstəqil milli dövlətçiliyimizin möhkəm təməlinin məhz 1993-cü ildə qoyulduğunu göstərir. Bu dövr yeni siyasi elitanın idarəçilik potensialı sayəsində əvvəlki hakimiyyət dairələrinin dövlətin mahiyyəti və beynəlxalq mövqeyi barədə qeyri-sabit və anarxik baxışlarının əvəz olunması ilə xarakterizə olunmuş, müstəqil dövlətimizin formalaşması, institusional möhkəmlənməsi, dayanıqlı inkişafı və sosial-iqtisadi tərəqqisinin təminində həlledici əhəmiyyət kəsb etmişdir.

Bu baxımdan XXI əsrdə Azərbaycanın milli dövlətçilik sistemi - azərbaycançılıq ideyasını strateji xəttə çevirən, insan hüquq və azadlıqlarını təmin edən, davamlı iqtisadi yüksəlişi reallaşdıran və ictimai tərəqqini gerçəkləşdirən iki liderin - xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Ulu Öndərin strateji inkişaf kursunu uğurla davam etdirərək dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyəti ilə bağlıdır. Bu böyük şəxsiyyətlərin müəllifi olduqları dövlətçilik modeli həm milli identiklik, həm də universal dəyərlərin sintezində formalaşaraq müasir dövrün tələblərinə cavab verən inkişaf istiqamətini müəyyənləşdirir.

Azərbaycanın 1993-cü ildən sonra qısa müddət ərzində keçdiyi inkişaf yolu, əldə etdiyi mühüm nəticələr və 2003-cü ilə qədərki on il ərzində özünü doğrultmuş strateji inkişaf xəttinin gələcəkdə də davam etdirilməsi zərurəti Ümummilli Liderin xalqımıza 1 oktyabr 2003-cü il tarixli müraciətində dəqiq əsaslandırılmışdır.

Ulu Öndərin 1 oktyabr müraciətində dövlətimizin getdikcə öz müdafiə qabiliyyətini artırdığı, hərbi cəhətdən gücləndiyi, Milli Ordumuzun qabaqcıl təcrübə və texnologiyalara yiyələndiyi, gənclərimizin həvəslə xidmətə getdikləri qeyd edilir, bildirilirdi ki, bütün bunlar asan başa gəlməmişdir. *"Keçən dövrdə biz Sizinlə birlikdə həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər anti-Azərbaycan aksiyalarının qarşısını almışıq, nə qədər çətinliklərə sinə gərmişik. Siz bunları çox yaxşı bilirsiniz".*

Müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin böyük inam və ümidləri işığında 2003-cü ilin 15 oktyabrında xalqın yekdil dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev ölkəmizi tarixdəki bu ən yüksək mövqeyinə yüksəltməyə dövlətə rəhbərliyinin ilk ilindən, ayından, həftəsindən, gün və saatlarından da deyil, hətta ilk dəqiqələrindən başlamışdı.

O, hələ andiçmə mərasimində böyük hədəflərə doğru yolu aydın nişan verərək tarixin ən qüdrətli Azərbaycanını xəyallarında yaşadan hər kəsdə bu strateji yolda birgə, çiyin-çiyinə irəliləməyə, amallarından dönməməyə, nəticələrin mütləq arzuladığımız kimi olacağına əminlik yaradırdı.

Həmin andiçmə mərasimindəki çıxışın mətnini illər sonra tarixçi nəzəri ilə yenidən gözdən keçirdikcə, hər cümləsi üzərində düşündükcə, təxminən 22 il əvvəl səsləndirilmiş o kəlmələrlə müasir reallıqlar arasında paralellər apardıqca əmin olursan ki, cənab İlham Əliyev o zaman Azərbaycan xalqı qarşısında sadəcə and içmirmiş, 22 il ərzində tarixin ən qüdrətli Azərbaycanına gətirib çıxaracaq böyük, çətin və əzab-əziyyətli, amma şərəf və qürur dolu yolun dəqiq strateji xəritəsini təqdim edirmiş.

Cənab İlham Əliyev 22 il əvvəl səsləndirdiyi bütün sözləri, verdiyi bütün ümidləri bu illərdə ona inanan, ardınca addım-addım milli məqsədlərə doğru irəliləyən milyonlarla vətəndaşımızla birgə reallığa çevirdi.

Dövlətimizin yeni lideri belə bir zərurəti diqqətə çatdırırdı ki, Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Azərbaycan Prezidenti düşüncələrindəki belə bir ordunu qurmağı bacardı. Azərbaycan Ordusunu hərbi qüdrətinə, maddi-texniki təchizatına, döyüş ruhuna görə dünyanın ən güclü orduları cərgəsində qərarlaşdırdı. Dövlətimizin istiqlalı, bütövlüyü, suverenliyi, milli maraqları, xalqımızın qürur və ləyaqəti naminə bu ordunun sıralarında göz qırpmadan canını fəda etməyə hazır olan vətənpərvər bir nəsil yetişdirdi.

Müzəffər Ali Baş Komandan 2020-ci ilin Vətən müharibəsində, 2023-cü ilin antiterror əməliyyatında ordumuzun gücü ilə əldə etdiyimiz şanlı Qələbəyə, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bütün dünyada - hətta Ermənistanda da qəbul edilməsi faktına qədər bu mövqeyindən bir addım da olsun geri çəkilmədi. Həyata keçirdiyi siyasəti, diplomatiyanı, strateji gedişləri məhz belə bir haqlı mövqe, belə bir aydın həqiqət ətrafında qurdu.

İllərlə Azərbaycana və dövlət rəhbəri kimi şəxsinə yönələn təzyiq və təhdidlər onun qətiyyətini sarsıda bilmədi. Və cənab İlham Əliyev dövlətimiz, xalqımız adına istədiyinə nail oldu, illərdən bəri bizə ağır faciələr, itkilər yaşatmış, inkişaf yolumuzda ən böyük əngəl olmuş problemin gələcək nəsillərə "miras" qalmasına, onların da ömrünü zəhərləməsinə imkan vermədi.

Ali Baş Komandan İlham Əliyev 2023-cü il oktyabrın 15-də - Azərbaycan Respublikasının Prezidenti seçilməsinin ildönümü günü Xankəndi, Xocalı, Əsgəran, Xocavənd və Ağdərə şəhərlərində Dövlət bayrağının ucaldılmasını həyata keçirərək Azərbaycanın ərazi bütövlüyünün rəmzi təsdiqini verdi.

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümü münasibətilə hərbi parad keçirildi. Prezident İlham Əliyev çıxışında bildirdi: *"Bu günü bizə bəxş edən Müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq və fədakarlıq nümayiş etdirərək düşməni əzəli torpaqlarımızdan qovmuşdur. Bu, Azərbaycan xalqının tarixində mühüm tarixi hadisədir".*

Bu möhtəşəm Zəfərin qazanılmasına görə Prezident İlham Əliyevin liderlik keyfiyyətlərinə, son onilliklərdə Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğuna və sosial-iqtisadi sahələrdə, xarici siyasətdə əldə etdiyimiz uğurlara, cəmiyyətimizdəki milli birlik və vətəndaş həmrəyliyinə, ən mühümü isə Ulu Öndərin, Azərbaycan Prezidentinin yetişdirdiyi vətənpərvər nəslin Vətən və dövlət sevgisinə, igidliyinə, cəsurluğuna borcluyuq.

Qarabağı, Şərqi Zəngəzuru müharibə gedişində cəbhəyə könüllü getmək üçün səfərbərlik idarələrinə axışan, döyüş meydanında misilsiz igidliklər göstərərək qisasımızı qiyamətə qoymayan bu igidlərimiz azad etdilər. Qələbədə Azərbaycan cəmiyyətindəki milli birliyin, ölkəmizin döyüş meydanındakı hərbi əməliyyatlara paralel şəkildə apardığı informasiya savaşına töhfə verən insanlarımızın vəhdətinin çox mühüm rolu oldu.

Ali Baş Komandanın hər qələbə müjdəsinin cəmiyyətdə yaratdığı coşqu, Qələbə sevincini küçələrdə bayram edən insanların ovqatı, xalq-ordu birliyi bundan sonra da əsrlər boyu milli yaddaşımızda yaşayacaq və nə qədər böyük ruha malik bir xalq olduğumuzu daim bizə xatırladacaq.

Bu Zəfər ordumuzun qüdrətini bütün dünyaya göstərdi, sıldırım qayalardan dırmanaraq yüngül silahlarla düşmənin tankının, topunun üstünə atılan əsgər və zabitlərimizin qəhrəmanlığı, həyata keçirdikləri heyrətamiz döyüş əməliyyatları dünyanın tanınmış hərbi məktəblərinin tədris proqramlarına daxil edildi.

Vətən müharibəsi gedişində Ermənistan tərəfinin tutduğu əlverişli coğrafi mövqeyə və mürəkkəb relyef şəraitinə malik olmasına baxmayaraq, Azərbaycan Silahlı Qüvvələrinin qarşısında tab gətirə bilməməsi onun hərbi-siyasi iflasını bir daha təsdiqlədi. Müharibə dövründə 10 mindən çox erməni əsgər və zabitinin fərarilik edərək döyüş meydanını tərk etməsi, bunun müqabilində Azərbaycan Ordusunda bircə fərarilik faktının da olmaması, Azərbaycan və Ermənistan orduları arasındakı fərqi, Ermənistan ordusunun mənəvi-psixoloji durumunun zəifliyini, döyüş əzminin olmamasını və onun hərbi strukturlarının dağılmasını açıq şəkildə nümayiş etdirdi. Əksinə, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti müharibənin bütün mərhələlərində yüksək qəhrəmanlıq və fədakarlıq göstərərək ölkənin ərazi bütövlüyünü bərpa etməyə nail oldu, bununla da tarixi ədalətin bərpasına töhfə verdi.

Düşmənin 30 il ərzində möhkəmləndirdiyi hərbi istehkamların Azərbaycan əsgərinin canı və qanı bahasına yarılması, minlərlə hərbçimizin şəhidlik zirvəsinə ucalması və qazilərimizin göstərdiyi igidlik müasir Azərbaycan tarixində mətinlik, yenilməzlik və qəhrəmanlıq nümunəsi kimi əbədi yaddaşlarda qalacaqdır.

Vətən müharibəsi həmçinin erməni faşizminin mahiyyətini beynəlxalq ictimaiyyətə bir daha nümayiş etdirdi. Ermənistan döyüş meydanında məğlubiyyətə uğradıqca, beynəlxalq humanitar hüquq normalarını pozaraq insanlığa qarşı ən ağır cinayətlərə əl atmışdır. Qadağan olunmuş silahların və ballistik raketlərin tətbiqi ilə Azərbaycanın şəhər və kəndlərinə müntəzəm hücumlar edilmiş, dinc əhali hədəfə alınmışdır. Lakin bu təxribatların qarşısı Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi altında alınmışdır.

Vətən müharibəsi ilə Azərbaycan XXI əsrin innovativ müharibəsini apardı, hərbi əməliyyatlar gedişində Azərbaycanın Gəncə, Bərdə, Tərtər, Mingəçevir kimi şəhərlərini, dinc əhalinin sıx yaşadığı əraziləri uzaqvuran raketlərlə atəşə tutub mülki vətəndaşlarımızı qətlə yetirmiş Ermənistandan fərqli olaraq, beynəlxalq konvensiyaların tələblərinə riayət edərək müasir silahlarla ancaq legitim hərbi hədəflərə yönəldi, düşmən tərəfdən heç bir mülki əhaliyə xətər toxundurmadı. Eyni zamanda Ermənistanın BMT tərəfindən tanınmış suveren ərazilərini tutmaq üçün hər cür imkan və şəraitə malik olduğu halda hərbi əməliyyatların bu ölkənin ərazisinə keçməsinə imkan vermədi. Rəsmi İrəvanın və Ermənistanın havadarlarının bu məqsədlə cəhd göstərdikləri ardıcıl təhrikedici təxribatlara rəğmən Vətən müharibəsini ancaq Azərbaycanın suveren ərazilərində apardı, torpaqlarımız işğaldan azad edildikdən, əsgər və zabitlərimiz öz sərhədlərimizdə yerləşdikdən sonra bütün hərbi əməliyyatlar da dayandı.

Vətən müharibəsi zamanı Azərbaycanın haqq işinə qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi daim xüsusi qeyd edilməlidir. Müharibə dövründə bəzi xarici dövlətlərdə erməni lobbilərinin təsiri altında fəaliyyət göstərən siyasi dairələr Ermənistanın işğalçılıq siyasətinə haqq qazandırmağa çalışır, ölkəmizə qarşı qeyri-obyektiv mövqe sərgiləyirdilər. Belə bir şəraitdə Türkiyənin prinsipial dəstəyi diplomatik müstəvidə mühüm əhəmiyyət daşıdı. Türkiyə rəsmilərinin bəyanatları, Türkiyə mediasının cəbhə bölgəsindən yayımladığı materiallar qlobal miqyasda obyektiv informasiya mühitinin formalaşmasına mühüm töhfə verdi.

Döyüş meydanının diplomatik cinahında isə cənab İlham Əliyev illərlə dünyanın gözünə üfürülən erməni yalanlarını faş etdi, xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələrlə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, rəsmi İrəvanın təxminən 30 ilə qədər yürütdüyü işğalçılıq siyasəti, törətdiyi hərbi cinayətlər, bütün regionun təhlükəsizliyi üçün yaratdığı ciddi təhdidlər, işğal altındakı torpaqlarımızda illərlə həyata keçirilmiş vandalizm aktları barədə həqiqətləri dünyaya çatdırdı. Bu müsahibələrlə informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu.

2021-ci il fevralın 26-da Prezident İlham Əliyevin iştirakı ilə keçirilmiş geniş mətbuat konfransında səsləndirilən, tarixi reallıqlara, beynəlxalq hüquq normalarına və ədalət prinsipinə əsaslanan məntiqi arqumentlər dünyanın aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzinə çevrildi, qlobal media məkanında əsas xəbər başlıqları kimi yayıldı. Bu çıxış vasitəsilə Azərbaycan həqiqətləri beynəlxalq ictimaiyyətə geniş şəkildə çatdırıldı.

Bu baxımdan tarixi Zəfərimizin dəyəri onun həm də informasiya savaşında qazanılmasındadır. Azərbaycanın milli maraqlarını daim hər şeydən öndə tutan Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya məkanında, informasiya savaşında da Zəfərimizi təmin etdi, Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, biz döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də Qələbə qazandıq.

Bu böyük dövlət adamının Azərbaycan adına son bir neçə ildə əldə etdiyi nəticələrin mahiyyətinə diqqət yetirdikdə, həmin nailiyyətlərin bu qədər çevik şəkildə - qısa zaman ərzində qazanıldığına bəzən heyrətlənənlər də olur. Lakin son illərin bu parlaq uğurlarına fokuslanarkən, onlara gətirib çıxarmış hazırlıq proseslərinin mükəmməlliyini də nəzərdən keçirərkən fərq edirsən ki, bu proseslərin heç biri qısa zamanda və asanlıqla baş verməyib, hər birinə illərin, onilliklərin zəhməti sərf olunub.

8 avqust 2025-ci ildə Vaşinqtonda, Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla Birgə Bəyannamə imzaladı və Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsi paraflandı. Azərbaycanla Ermənistan arasında uzun illərdən sonra əbədi sülhün əldə olunmasına, bölgəmizdə bütün tərəflər üçün qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin yaranmasına, bu torpaqlarda yaşayan insanların rifah və xoşbəxtliyinə yol açan belə mühüm addımla Cənubi Qafqazda yeni strareji dövr başlandı. 8 avqust 2025-ci ildə Ağ Evdə dövlət rəhbərimizin iştirakı ilə baş verən və qəlbi Vətənə bağlı bütün dünya azərbaycanlılarını qürurlandıran o unudulmaz anlar da, əslində, illərlə düzgün görülmüş işlərin, düzgün atılmış strateji addımların, düzgün hesablanmış qərarların məntiqi nəticəsidir.

Ağ Evdəki o anların ilk epizodları çox-çox əvvəldən - cənab İlham Əliyevin 2003-cü ilin 31 oktyabrında ilk dəfə Azərbaycan Respublikasının Prezidenti kimi and içdiyi dəqiqələrdən, ondan da əvvəl xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 2003-cü ilin Prezident seçkisi ərəfəsində xalqımıza 1 oktyabr 2003-cü il tarixli məşhur müraciətindən başlanır. Bu müraciət və Azərbaycan Prezidentinin andiçmə mərasimindəki həmin çıxışı dövlətimizin Azərbaycanın milli dövlətçilik tarixində məzmun etibarilə heç bir dövrlə müqayisəyə gəlməyəcək böyük bir strateji mərhələnin başlanğıcıdır.

*Bir sözlə, Qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev canından da çox sevdiyi xalqı üçün həlli mümkünsüz görünəni reallaşdırdı. Onun həyat amalı da məhz xalqının və dövlətinin milli maraqlarını hər şeydən uca tutmaq, onu daim xoşbəxt görməkdir. O, prezidentlik fəaliyyəti dövründə böyük güclərin hər cür təhdid və təzyiqlərinə rəğmən bütün çətinliklərə sinə gərərək öz haqlı və qəti mövqeyindən əsla dönmədi. Məhz nadir tarixi şəxsiyyət İlham Əliyevin sağlam və uzaqgörən siyasəti nəticəsində ilk dəfə idi ki, xalqımız tarixdə son ikiəsrlik dövr ərzində qalibiyyəti yaşadı, ona məxsus olanı geri alaraq, dövlətçiliyini qorudu və öz suverenliyini tam bərpa etdi. Beləliklə, Prezident İlham Əliyev ideal liderlik nümunəsi göstərərək öz xalqı və dövləti naminə əzmli və qətiyyətli olmağın, nə olursa olsun öz haqlı və prinsipial mövqeyindən, ali məqsədlərindən əsla geri dönməməyin düsturunu yaratdı. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, dünyada baş verən mövcud ağır hərbi-siyasi və sosial-iqtisadi kataklizmlər fonunda böyük uğurlarla dolu nadir təkrarlana biləcək şərəfli tarixi dövrü yaşayır.*

**Arzu ABDULLAYEV,**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Ədalətin və gücün rəmzi

Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı düşünülmüş, uzaqgörən siyasət və müasir ordu quruculuğu strategiyası sayəsində 2020-ci ilin payızında xalqımız öz tarixi qəhrəmanlıq salnaməsinin ən şanlı səhifələrindən birini yazdı. Cəmi 44 gün davam edən Vətən müharibəsi Azərbaycan tarixinə qələbə müjdəsi, ədalətin təntənəsi və xalq-ordu-lider birliyinin sarsılmaz nümunəsi kimi həkk olundu.

Rəşadətli ordumuz illərlə işğal altında qalan torpaqları azad etməklə təkcə hərbi gücünü deyil, həm də mənəvi iradəsini, haqq savaşının qüdrətini dünyaya nümayiş etdirdi. Düşmən Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməyərək diz çökdü və kapitulyasiya aktı imzalamağa məcbur oldu.

Bu böyük Zəfər yalnız döyüş meydanlarında deyil, diplomatik masada da qazanıldı. Müzəffər Ali Baş Komandanın siyasi müdrikliyi, beynəlxalq arenada apardığı çevik və prinsipial diplomatiya nəticəsində bir güllə belə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad olunması tarixə unikal siyasi nailiyyət kimi düşdü. Bu üç rayonun itkisiz azad edilməsi Prezident İlham Əliyevin həm hərbi, həm də diplomatik müstəvidə qazandığı parlaq qələbənin, güclü liderlik iradəsinin və milli maraqların qorunmasında göstərdiyi qətiyyətin bariz təzahürüdür.

Vətən müharibəsində əldə olunan böyük qələbə dövlətimizin qüdrətini, xalqımızın sarsılmaz iradəsini və milli birliyimizi dünyaya nümayiş etdirdi. Bu şanlı qələbənin şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında möhtəşəm Zəfər paradı keçirildi və o, Azərbaycan xalqının yaddaşında silinməz iz qoydu. Paradda 3000-ə yaxın Azərbaycan əsgəri və zabiti ilə yanaşı, qardaş Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri də addımladılar. Azərbaycan və türk əsgərlərinin yan-yana keçidi iki qardaş ölkə arasındakı ayrılmaz bağların, sarsılmaz dostluq və müttəfiqliyin parlaq təcəssümü idi.

Vətən müharibəsinin ilk günlərindən Azərbaycanın yanında olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Müzəffər Ali Baş Komandan İlham Əliyevlə birlikdə parada qatılması bu qardaşlığın əbədi və dönməz olduğunu dünyaya bir daha nümayiş etdirdi. Bu tarixi gün təkcə qələbənin deyil, həm də birlik, qüdrət və parlaq gələcəyə inamın təntənəsi idi. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi: "10 dekabr - 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin dünyaya bəyan edildiyi gün, dünyanın bütün diqqətini Bakıya yönəltdiyi, Azadlıq meydanında atılan hər bir addımın, hər bir sözün böyük həyəcan və maraqla izlənildiyi gündür".

Bu parad Cənubi Qafqaz regionunun tək hazırkı dövrünün yox, həm də gələcəyi, gələcək münasibətlərinin dizaynını nümayiş etdirən, dostu dost, düşməni düşmən gözündə göstərən tarixi hadisə idi və nəhayət, bu qalib Ali Baş Komandanın, qalib ordunun və qalib xalqın paradı idi. Bu parad həm də regionda yalnız indiki dövrün deyil, gələcək münasibətlərin də konturlarını müəyyənləşdirən mühüm tarixi hadisə idi. Dostu və müttəfiqi yanımızda, düşməni isə yeni reallığı qəbul etməyə vadar edən bu parad gücün, iradənin, ədalətin rəmzi idi.

2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının konstitusiya quruluşunun və dövlət suverenliyinin tam bərpa edilməsi məqsədilə Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri həyata keçirildi. Cəmi bir gün davam edən hərbi əməliyyat nəticəsində separatçı rejim tamamilə məhv edildi və Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə təmin etdi. Bu əməliyyat hərbi və siyasi müstəvidə Azərbaycanın gücünü, iradəsini və prinsipial mövqeyini bir daha bütün dünyaya nümayiş etdirdi. Tarixi hadisələrin davamı olaraq, 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağının ucaldılması isə dövlətçilik tariximizin ən qürurlu və simvolik anlarından biri kimi yadda qaldı. Bu bayraq illərin həsrətinin sonu, qələbənin rəmzi, azadlığın və milli qürurun təntənəsi oldu.

*Vətən müharibəsində qazanılan parlaq qələbə Azərbaycan tarixində yeni mərhələnin başlanğıcını qoydu. Bu mərhələ yalnız hərbi zəfərlə məhdudlaşmadı, eyni zamanda milli dövlət quruculuğunun, güclənən iqtisadiyyatın, regionda sabitlik və inkişaf modelinin rəmzinə çevrildi. Azad olunmuş ərazilərdə bu gün geniş bərpa və quruculuq işləri aparılır. Qarabağ və Şərqi Zəngəzurda yollar, su, elektrik və qaz xətləri, məktəblər, xəstəxanalar, hava limanları, yaşayış məhəllələri və digər mühüm infrastruktur layihələri mərhələli şəkildə həyata keçirilir. Böyük qayıdış proqramı çərçivəsində insanlar doğma torpaqlarına qayıdır və bölgədə normal həyat bərpa olunur.*

**Kamran BAYRAMOV,**
***Milli Məclisin deputatı***



# AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

## ŞANLI ZƏFƏR - 5 İL

**Beynəlxalq hüquq normalarının bərpası ilə nəticələnən, ərazilərimizin 30 illik işğalı faktına son qoyan İkinci Qarabağ müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfərin 5-ci ildönümü müstəqil tariximizin ən şanlı, qürurverici səhifələrindən biri kimi hər bir azərbaycanlıda böyük fəxarət hissi doğurur. Qarabağın tacı olan Şuşa şəhərinin işğaldan azad edildiyi günün - 8 Noyabr tarixinin Azərbaycanda Zəfər Günü kimi əbədiləşməsi mühüm siyasi-psixoloji çalarlara malik hadisə olmaqla yanaşı, ərazilərimizdə erməni separatizminin tam iflası faktını özündə simvolizə edir.**



# Sarsılmaz milli iradənin, beynəlxalq hüququn və tarixi ədalətin zəfəri

Zəfər Günü xalqın milli iradəsinin, dövlətin iqtisadi və hərbi qüdrətinin, tarixi ədalətin təntənəsi kimi dövlətçilik tariximizdə xüsusi yer tutur. İkinci Qarabağ müharibəsindəki qələbəmizin beşinci ildönümü münasibətilə paytaxtın "Azadlıq" meydanında təşkil olunan möhtəşəm hərbi parad isə ilk növbədə son illərdəki hərbi-siyasi uğurlarımızın real miqyasını bütün dünyaya nümayiş etdirir. Bir daha təsdiqlənir ki, Azərbaycan dövləti ədalətli müharibə apararaq, dayanıqlı sülhə nail olmuşdur. Beş il əvvəl qazanılan qələbə bu gün beynəlxalq hüquqla möhkəmlənmiş, diplomatik razılaşmalarla rəsmiləşdirilmiş, gələcəyə yönəlmiş dövlət siyasətinin təməl prinsipinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin sözüdür: "Əgər xalqın iradəsi möhkəmdirsə, heç bir güc onu sındıra bilməz". Xalqımız cəmi 44 gün davam edən hərbi əməliyyatlar zamanı qazandığı parlaq Zəfərlə torpaqlarımızın otuzillik işğalına son qoymuş, iki əsrə qədər davam edən Qarabağ münaqişəsinin həllinə nail olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev əsrlər boyu hissə-hissə itirilən torpaqlarımızın müəyyən qismini geri qaytarmağı bacararaq, regionda yeni siyasi reallığın əsasını qoyan Lider kimi adını ən müasir tariximizə yazmışdır.

İnkaredilməz həqiqətdir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda ötən 30 ildə müasir dövlətçilik ənənələrinin, vətəndaş cəmiyyətinin, iqtisadi-siyasi institutların formalaşdırılması prosesi xalqımızın Ümummilli Lideri, böyük şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü ildən sonra Prezident İlham Əliyev bu ənənələri daha da inkişaf etdirərək ölkəmizi bütün parametrlər üzrə tarixinin qüdrətli mərhələsinə çatdırmışdır. Bu illər ərzində cənab İlham Əliyevin özünün də formalaşdırdığı bir çox dövlətçilik ənənəsi vardır ki, Vətən müharibəsi günlərində əldə edilmiş təcrübə bunlardan ən əhəmiyyətlisi sayıla bilər.

Azərbaycan Ermənistanın işğal etdiyi torpaqlarımızdan könüllü şəkildə, sülh yolu ilə çıxması üçün aparılan danışıqlara uzun illər sadiqlik göstərmişdir. Münaqişənin hər iki tərəfdən insan itkilərinə yol vermədən, ölkələrin sosial-iqtisadi həyatına ziyan vurmadan yoluna qoyulmasından ötrü bütün mövcud imkanları səbirlə dəyərləndirmiş, təcavüzkar ölkədən də eyni davranışı gözləmişdir. Əfsuslar olsun ki, Ermənistan 30 ilə yaxın müddətdə danışıqlar prosesində beynəlxalq ictimaiyyəti aldatmaq yolu tutmuş, işğal etdiyi torpaqlarımızı əlində saxlamağa, "status-kvo"nu qorumağa çalışmışdır.

Ermənistanın riyakar davranışlarını müşahidə edən vətəndaşlarımızda belə bir yəqinlik vardı ki, torpaqlarımızın sülh yolu ilə düşməndən təmizlənməsi mümkün olmayacaq, Azərbaycan gec-tez məsələnin hərbi yolla həllinə qərar verəcəkdir. Prezident İlham Əliyev də çıxışlarında xalqımızın məsələnin sülh yolu ilə həlli arzusunu bildirməklə yanaşı, səbrimizin sonsuz olmadığını da bəyan etmiş, əgər danışıqlar səmərə verməzsə, Azərbaycanın öz torpaqlarını hərbi yolla azad edəcəyini qətiyyətlə vurğulamışdır.

Bu kontekstdə Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərin ictimai təfəkkürə mənəvi təsiri hərbi əməliyyatlar zamanı əldə edilmiş qələbələr qədər möhtəşəmdir. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, qəhrəman əsgər və zabitlərimizin canı-qanı bahasına qazanılmış bu şərəfli qələbə xalqın milli qürurunu, özünə güvənini, inamını qaytarmışdır. Qələbə əzmi milli birliyimizi gücləndirmiş, hər birimizdə sarsılmaz inam hissi yaratmış, Vətənin keçmişi, bu günü və gələcəyi qarşısında ictimai məsuliyyət duyğusunu yüksəltmişdir. İndiki və gələcək nəsillər bu Qələbənin əzəmətini, Azərbaycana hansı böyük müvəffəqiyyətlər qazandırdığını daim xüsusi qürur və fəxarətlə anacaqlar.

Barəsində hələ çox əsrlər danışılacaq şanlı Zəfərimizin qayəsində, kökündə duran başlıca səbəb, həlledici amil isə xalqımızın vahid amal uğrunda "dəmir yumruq" kimi birləşməsi, Liderinə sonsuz güvənməsi, onun qərarlarını tərəddüdsüz dəstəkləməsidir. Xalqımız ötən əsrin 90-cı illərində dövlətçiliyə qarşı yönəlmiş xəyanətkar qəsdlər, çevriliş cəhdləri zamanı, eləcə də Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulu zamanı göstərdiyi birlik və həmrəyliyi Vətən müharibəsi günlərində daha böyük mütəşəkkilliklə nümayiş etdirmişdir.

Vətən müharibəsi düşmənə qarşı əks-həmlə əməliyyatlarının başlandığı ilk saatlardan xalq-dövlət birliyi, milli vəhdətimizin təntənəsinə çevrilmiş, cəmiyyəti "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" ovqatında kökləmişdir. 44 günlük müharibənin nəticəsi olaraq ölkəmiz nəinki ərazi bütövlüyünü bərpa etmiş, eyni zamanda "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı bir mirasın gələcək nəsillərə ötürülməsinin qarşısını almışdır. Azərbaycan son 200 ildə torpaq itirən dövlətdən itirdiyi əraziləri geri alan ölkəyə çevrilmiş, buna həm də son dərəcə mürəkkəb geosiyasi vəziyyətdə, dünyada ikili standartların hökm sürdüyü, düşmən səmtində yer alanların çoxluğu şəraitində nail olmuşdur. Bütün bunlar beşinci ildönümünü qeyd etdiyimiz Zəfərin dərin fəlsəfi-mənəvi, psixoloji mahiyyətini göz önündə canlandırır, eyni zamanda soydaşlarımıza "Mən azərbaycanlıyam!" sözlərini daha böyük qürurla səsləndirmələrinə, başlarını dik tutmalarına imkan verir.

Onu da xüsusi vurğulamaq lazımdır ki, məhz dövlət başçısı İlham Əliyevin hakimiyyətdə olduğu illərdə yetişən vətənpərvər ruhlu gənc nəsil Müzəffər Ali Baş Komandanın əmrinə müntəzir olaraq, Vətən torpaqlarını düşmən tapdağından azad etmişdir. Prezident İlham Əliyev Azərbaycan gənclərinin bu əzmkarlığını yüksək dəyərləndirərək demişdir: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Dövlət başçısı İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, müharibə Azərbaycan üçün heç də son məqsəd olmamışdır. Güc tətbiq edərək Ermənistana öz ədalətli şərtlərini diktə etmək istəyən Azərbaycan buna nail olmuş, 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərləri, Hadrud və Suqovuşan qəsəbəsi, eləcə də digər ərazilərimiz döyüş meydanında işğaldan azad edilmişdir.

Böyük ingilis mütəfəkkiri və dövlət xadimi Uinston Çörçil deyirdi: "Qələbə qətiyyət tələb edir, qətiyyət isə qorxunun olmadığı yerdə yaranır". Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi dövründə ciddi beynəlxalq təzyiq və təhdidləri məhz xalqın inam və iradəsinə, birliyinə söykənərək dəf etmiş, həlledici qələbənin əldə olunmasınadək dayanmaq əmri verməmişdir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətlə üzləşən, geri çəkilməyə məhkum olan Ermənistan Azərbaycanın mülki əhalisini hədəf seçərək ağır cinayətlər törətsə də, bu yolla ordumuzu dayandırmaq məqsədinə nail ola bilməmişdir. Ermənilərin təxribatlarına, vandalizminə baxmayaraq, Azərbaycanın Tərtər, Gəncə, Bərdə, Goranboy, Ağdam, Mingəçevir, eləcə də digər şəhər və rayonlarının sakinləri sonadək yüksək vətənpərvərlik, iradə, əzm nümayiş etdirmişlər.

2020-ci il noyabrın 10-da imzalanmış məlum üçtərəfli Bəyanatla Ermənistanın qoşunlarını işğal edilmiş ərazilərdən, o cümlədən Ağdam, Laçın və Kəlbəcər rayonlarından müqavimətsiz çıxarmağa məcbur olması birmənalı olaraq Azərbaycan Ordusunun tarixi qələbəsi idi. Bu həm də 30 ildən çox müddətdə Vətən həsrəti ilə yaşayan insanların nisgilinə, habelə onların ümidsizliyinə son qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyev onların ən böyük arzusunu, doğma yurdlarına qayıtmaq amalını gerçəkləşdirmişdir.

Azərbaycan İkinci Qarabağ müharibəsindəki tarixi qələbəsi, eləcə də 2023-cü ilin sentyabr ayında keçirilən uğurlu lokal antiterror tədbirləri ilə təkcə ərazi bütövlüyünü və suverenliyini deyil, həm də 30 il əvvəl ümumxalq referendumu ilə qəbul olunmuş ilk milli Konstitusiyanın bütün inzibati-ərazi vahidləri üzrə hüquqi təsir gücünü, işləkliyini təmin etmişdir. Bu həm siyasi-hüquqi, həm də mənəvi baxımdan müasir Azərbaycan tarixində dönüş nöqtəsidir. Dövlətin bütün sərhədlərində qanunların qüvvədə olması, vahid hüquqi idarəetmə mexanizmlərinin bərpası milli dövlətçilik modelinin sabit və müstəqil təməllər üzərində qurulduğunu sübut edir.

Azərbaycanın tarixi zəfərlərinin parlaq nəticələrindən biri də ondan ibarətdir ki, işğal faktına son qoyan respublikamız regionda ikinci erməni dövlətinin yaradılması cəhdlərinin qarşısını birdəfəlik almışdır. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli sərəncamı bu mənada dövlət müstəqilliyimizin hüquqi əsaslarının, suverenliyimizin möhkəmlənməsinin və milli dövlətçiliyin təməl prinsiplərinin təsdiqi baxımından xüsusi siyasi əhəmiyyətə malikdir.

Zəfər Günü təkcə qələbə bayramı deyil, eyni zamanda Azərbaycan xalqının 30 ilə yaxın davam edən beynəlxalq ədalətsizliyə qarşı mübarizəsinin yekun mərhələsidir. Tarixi baxımdan bu hadisə Azərbaycan xalqının azadlıq, ərazi bütövlüyü və dövlətçilik uğrunda apardığı mübarizənin qalibiyyətlə nəticələnməsini özündə simvolizə edir. Hüquqi baxımdan bu tarix Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dövlət hakimiyyətinin tam həyata keçirilməsinin rəsmiləşdirildiyi gündür. Nəhayət, Zəfərimiz siyasi baxımdan regionda yeni reallıqların, güc balansının formalaşmasına, Azərbaycanın geosiyasi rolunun güclənməsinə ciddi zəmin yaratmışdır.

Zəfərin beşinci ildönümü Azərbaycanın regional və qlobal mövqelərinin möhkəmlənməsi fonunda qeyd olunur. Beş il ərzində həyata keçirilən bərpa və reinteqrasiya siyasəti, azad edilmiş ərazilərdə quruculuq layihələrinin geniş miqyası Azərbaycanın dövlət idarəetməsində strateji planlaşdırma və milli həmrəyliyin sintezini nümayiş etdirir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma layihələri yalnız infrastrukturun deyil, həm də hüquqi-inzibati sistemin bərpasına yönəlmiş tədbirlərdir. Dövlət orqanlarının fəaliyyətinin bərpa olunması, məhkəmə və hüquq-mühafizə institutlarının təşkili, seçki və özünüidarəetmə sistemlərinin formalaşması Konstitusiyanın 1-ci maddəsində təsbit olunmuş "Xalq hakimiyyətinin reallaşdırılması" prinsipinə xidmət edir.

Xalqımız Zəfərin beşinci ildönümünü regionda formalaşan yeni siyasi reallıqlar fonunda qeyd edir. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamə Cənubi Qafqazda münaqişə səhifəsinin qapadılması, dayanıqlı sülhün reallığa çevrilməsi istiqamətində atılmış qətiyyətli addımdır. Bu sənəd təkcə iki ölkə arasında uzun illər davam edən gərginliyə son qoyulması deyil, həm də Ermənistanda ictimai düşüncəni zəhərləyən köhnə ideoloji qəliblərin, revanşist mövqelərin tam iflası deməkdir.

ABŞ dövlət xadimi, Nobel sülh mükafatı laueratı Henri Kissincer deyirdi ki, sülh diplomatiyanın ən ali nəticəsidir. Vaşinqtonda Birgə Bəyannamənin imzalanması, yekun sülh sazişi layihəsinin paraflanması, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp marşrutu"nun (TRIPP) reallaşması istiqamətində iradə nümayişi erməni cəmiyyətinə konkret və real nəticələr vəd edir. Birgə Bəyannamə perspektivdə yalnız yekun sülh sazişinin imzalanmasına təminat yaratmır, eyni zamanda iki ölkə arasında siyasi, iqtisadi və diplomatik münasibətlərin bərpasına, regional inteqrasiyaya yol açır. Yeri gəlmişkən, Prezident İlham Əliyevin bir müddət əvvəl Ermənistana beynəlxalq yüklərin Azərbaycan ərazisi vasitəsilə daşınmasına razılıq verməsi də ölkəmizin sülhpərvər niyyətinin təcəssümüdür.

Əldə olunan razılaşmalar sərhədlərin demarkasiya və delimitasiyası, kommunikasiya xətlərinin açılması, humanitar məsələlərin həlli kimi konkret istiqamətlərdə əməkdaşlığa yol açır. Eyni zamanda, razılaşmalar yekun sülh sazişinə mane olan əsas məsələnin - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialara imkan verən müddəaların gələn il keçiriləcək referendum nəticəsində dəyişdiriləcəyinə siyasi zəmin yaradır.

Vaşinqton razılaşmaları Azərbaycanın sülh gündəliyinin beynəlxalq legitimliyə malik siyasi çərçivəyə çevrilməsi deməkdir. Bu sənəd regionda sabitliyin və etimad mühitinin yaradılmasına, sərhədlərin demarkasiyası və kommunikasiyaların açılmasına yönəlmiş hüquqi mexanizmləri müəyyən edir. Zəfər Gününün 5-ci ildönümü ərəfəsində bu razılaşmaların əldə edilməsi Azərbaycanın təkcə hərbi-siyasi deyil, diplomatik və hüquqi müstəvilərdə də qalib tərəf olduğunu təsdiq edir.

Bakıda bu gün keçiriləcək hərbi parad Zəfər Gününün dövlətçilik baxımından rəmzi və siyasi əhəmiyyətini tamamlayır. Bu tədbir Azərbaycanın hərbi qüdrətinin, müstəqil siyasətinin və beynəlxalq tərəfdaşlıq münasibətlərinin nümayişi kimi qəbul edilir. Bu hərbi paradda Türkiyə Prezidentinin və Pakistan Baş nazirinin iştirakı isə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Bu, yalnız dost və qardaş ölkələrin həmrəyliyinin simvolu deyil, eyni zamanda region və dünya üçün mühüm siyasi mesajlardır. Azərbaycan, Türkiyə və Pakistan liderlərinin birgə iştirak edəcəyi Zəfər paradı Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının yeni mərhələsini, islam dünyasında strateji həmrəyliyin möhkəmlənməsini, beynəlxalq münasibətlər sistemində ədalətli güc balansının formalaşmasını göstərir.

Ötən beş ildə qazanılmış təcrübə göstərir ki, güclü dövlət olmaq təkcə hərbi potensialla deyil, həm də hüquqi legitimlik, siyasi rasionalizm və beynəlxalq diplomatiya bacarığı ilə mümkündür. Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşan strateji xətt - "Ədalətli sülh və beynəlxalq hüquq əsasında inteqrasiya" siyasəti Azərbaycanın milli maraqlarını qorumaqla yanaşı, regionun təhlükəsizliyinə mühüm töhfələr verir.

*Azərbaycan bu gün regionda müstəqil siyasət yürüdən, sülh təşəbbüsləri ilə çıxış edən, beynəlxalq hüququn bərpasına töhfə verən nüfuzlu dövlətə çevrilmişdir. 2020-ci ildə tarixi Zəfərlə başlayan, 2023-cü ildə suverenliyin bərpası, 2025-ci ildə Vaşinqton razılaşmaları ilə tamamlanan bu proses Azərbaycanın inkişafının yeni mərhələsini müəyyənləşdirmişdir. Bu mərhələ artıq qalib xalqın öz torpaqlarında sülh, ədalət və inkişaf prinsipləri üzərində qurduğu şanlı dövrün başlanğıcıdır.*

**İsaxan VƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor***

# Azərbaycanın təkrarolunmaz Zəfər imzası

**Bu gün Azərbaycan xalqını qürur, şərəf, qalibiyyət zirvəsinə yetirən Zəfərin beşinci ildönümüdür. Vətən tariximizin ən parlaq səhifəsinin yazıldığı böyük Zəfər bütün dünyada üzümüzü ağ, başımızı uca edib. Məğlubiyyət damğasından qurtararaq qalib xalqa çevirib. Son beş ildə ölkəmizin həyatında elə bir hadisə yaşanmayıb ki, orada şanlı Zəfərimizin toxunuşunu, ruhunu hiss etməyək. Siyasətdən diplomatiyaya, iqtisadiyyatdan sosial həyata, mədəniyyətdən idmana bütün istiqamətlərdə Qarabağ Zəfərinin qürurlu ab-havasını duyuruq. Qələbədən doğan güc, qüvvət, inam və əminliklə istənilən sahədə parlaq nəticələrə nail oluruq. Qalib adının gətirdiyi məsuliyyət hissi ilə Azərbaycanın 8 noyabr 2020-ci ildə Şuşada qazandığı qələbəyə yaraşan uğurlar əldə edirik.**

## Zəfərdən sülhə

Azərbaycanın beş il əvvəl qazandığı parlaq Zəfəri təkcə ölkəmizin yox, dünya tarixində özünəməxsusluğu, təkrarolunmazlığı ilə seçilir. Dünyada elə bir ölkə yoxdur ki, son onilliklər ərzində Azərbaycanın Zəfərinə bərabər tutulacaq hansısa bir qələbə qazanmış olsun. Qaynar qazan kimi qaynayan dünyada gedən münaqişələr, müharibələr səngimək bilmir. Bəzi hallarda bu münaqişələrə son qoyulsa da nəticələrinin ikiyə parçalanan, ərazi bütövlüyü, daxili sabitliyi sual altında qalan neçə-neçə ölkələrin timsalında elə də ürəkaçan olmadığını görürük.

Ərazilərini işğaldan qurtarması, suverenliyini tam bərpa etməsi, torpaqlarında separatizmə son qoyması, bir sözlə, bütün milli maraqlarını qətiyyətlə təmin etməsi isə Azərbaycanı mübaliğəsiz dünyanın qaliblər zirvəsinin şəriksiz lideri edir.

Dünyanın geostrateji mövqelər uğrunda siyasi, hərbi çəkişmələrin getdiyi indiki dövründə beynəlxalq hüququn heçə sayılması, onun tapdanması da təəssüf ki, ən geniş yayılmış haldır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsinin üç onilliyə yaxın müddətdə kağız parçasından fərqi olmaması hər kəsə məlumdur. Azərbaycan Vətən müharibəsində qazandığı parlaq Zəfər sayəsində həm də BMT TŞ-nin qətnamələrini yerinə yetirərək beynəlxalq hüququ öz gücünə təmin etdi. Eyni zamanda ATƏT-in keçmiş Minsk qrupunun öz üzərinə götürdüyü və düz 28 il ərzində həll edə bilmədiyi Qarabağ münaqişəsinə birdəfəlik son qoyaraq Cənubi Qafqazda sülhün üzərinə örtülmüş qara pərdəni götürdü. Regionda normallaşma, inkişaf, tərəqqi üçün geniş imkan yaratdı.

Bəli, ölkələr arasında Azərbaycanı qalib, öndər edən əsas məqamlardan biri də məhz elə pozulan beynəlxalq hüququ öz gücünə həll etməsi oldu.

Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışı zamanı Prezident İlham Əliyev hazırda dünyada baş verən prosesləri belə qiymətləndirdi: "...Son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir. Dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir".

## Yeni və parlaq dövr

İkinci Qarabağ müharibəsində tam qələbə çalması sayəsində bölgədə yeni reallıqlar diktə edən ölkəmizin özünün həyatında da tamamilə fərqli və parlaq səhifələr açıldı. Suverenliyimiz tam təmin edildi, Konstitusiyamız bütün ərazilərimizdə bərqərar oldu, bayrağımız bütün sərhədlərimiz boyu dalğalandırıldı. Suveren ölkəmizin ərazisində heç bir kənar ölkəyə məxsus hərbi birləşmə qalmadı. Beləliklə, milli maraqlarını qətiyyətlə təmin edən Azərbaycan tam gücü ilə qarşısında duran növbəti hədəflərə istiqamətləndi.

İşğaldan azad edilən ərazilərin bərpasına başlanılması və bu yerlərə yenidən həyatın qaytarılması ölkəmiz adına qazanılan və dünyada da böyük əks-səda yaradan mühüm müvəffəqiyyət oldu. Necə ki Vətən müharibəsində xalqımız istər ön, istər arxa cəbhədə bir yumruğa, bir orduya çevrilərək torpaqlarını işğaldan azad etdi, indi də bu ərazilərin quruculuğu və bərpasını ümummilli məsələsi kimi layiqincə həyata keçirir.

Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda əzəmətli layihələr gerçəkləşdirir. Prezident İlham Əliyevin şəxsi diqqəti altında müasir standartlara uyğun quruculuq işlərinin görüldüyü, yolların, körpülərin, tunellərin, beynəlxalq hava limanlarının, elektrik stansiyalarının tikilərək istifadəyə verildiyi bu ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd"lər salınır.

"Bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür. Yəni Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşmız artıq azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir", - AMEA-nın 80 illik yubileyinə həsr olunmuş yığıncaqda ölkəmizin rəhbəri diqqətə çatdırdı.

Görülən işlərin nəticəsidir ki, 30 il ərzində viran qoyulan, talanan Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəldilir, Böyük qayıdış köçləri ilə yurdlarına dönən keçmiş məcburi köçkünlər isti ocaqlarına qovuşurlar. İndi bu ərazilərdən top-tüfəng səsi deyil, doğulan azərbaycanlı körpələrin qığıltısı, həyatın səsi gəlir.

AMEA-nın 80 illik yubileyində Azərbaycanın qısa vaxt kəsimində keçdiyi sürətli inkişaf yolundan və Şuşa Zəfəri sayəsində əldə olunan parlaq uğurlarından qürurla bəhs edən Prezident İlham Əliyev onu da vurğuladı ki, son 10 il Azərbaycan üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur: "Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq".

"Konstitusiya və Suverenlik İli"ni qeyd etdiyimiz bu il həm də parlaq zəfərimizin beşinci ili tamam olur. Bütün ölkədə Qarabağ qələbəsi təntənə ilə qeyd edilir. 8 Noyabrda Bakıda Azadlıq meydanında Vətən müharibəsində qazanılan qələbənin beşinci ildönümünə həsr edilmiş parad keçiriləcək.

Sözügedən çıxışında bütün bu qürurlu məsələlərdən bəhs edən Qarabağın xilaskarı İlham Əliyev qeyd etdi ki, bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik: "Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır".

Bütün bu qürurlu və tariximizə qızıl hərflərlə həkk olunan hadisələri bizə 44 günlük savaşın parlaq nəticəsi olan Qarabağ Zəfəri bəxş edib. O Zəfər ki əsrlərdən sonra belə dünyanın harasında olmasından asılı olmayaraq, Azərbaycan xalqı hər zaman onunla öyünəcək, fəxr edəcək, qürur duyacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Zəfərlərin mübarəkdir, Azərbaycan!



Min illərdir yol gəlirsən.
Bu yollarda gör nə qədər
Hünər, zəfər, qüssə, kədər,
Yaxşı, yaman, daha nələr…
Sən görmüsən, Azərbaycan!
Sinə gərib hər möhnətə,
hər zülmə, zəlalətə
Kərpic-kərpic, yarpaq-yarpaq
Boy atmısan, yüksəlmisən.
Arzuların indi sənin
çin olubdur.
Bu arzular Günəş nurlu
Əməllərlə yoğrulubdur.
İndi sənin öz səsin var,
öz sözün var.
Ay-ulduzlu bayrağın da
dalğalanır
Neçə-neçə ölkələrin, dövlətlərin
Bayraqları sırasında.
Öz qüruru, öz vüqarı, əzəməti
vardır onun
Dalğalanan bu bayraqlar
arasında.
Göy Xəzərin sahilində
Başı dəyir, əli çatır
Karvan-karvan ötüb keçən
buludlara.
Ucalıqda tayı yoxdur,
Çata bilmir dünyadakı
Bayraqların biri ona.
Bu bayrağı zirvələrdən
zirvələrə,
Zəfərlərdən zəfərlərə
Qaldıraraq, apararaq
Zirvələri fəth eləyən
Gör nə qədər igidlərin,
ərənlərin
Vardır sənin, Azərbaycan!
Hamımıza əzizdən də
əziz olan
Doğma Bakı gündən-günə,
aydan-aya,
ildən-ilə
Gör necə də gözəlləşir!
Hara getsən, hara baxsan,
Hər tərəfi naxış-naxış
Xalça kimi toxunubdur
gül-çiçəkdən.
Göz də doymur gözoxşayan
Belə ülvi gözəllikdən.
Binaları sıra-sıra,
qatar-qatar…
Əl uzatsa, ulduzlara
əli çatar.
Gündüzləri al-əlvandır
bahar kimi.
Gecələri çıraqbandır,
işıqlıdır
səhər kimi.
Küçələri aşıb-daşır
gur çay kimi.
Uzaq, yaxın qitələrdən,
ölkələrdən
Gələnləri heyran edir
bu mənzərə.
Onlar deyir: "Biz vurulduq
Mavi Xəzər qoynundakı
bu şəhərə".
Bəli, bəli, hər tərəfdə
bir yüksəliş,
bir tərəqqi.
Bu yüksəliş aşıb-keçib
Yerlə göyün arasında
olan həddi.
Bu gün artıq böyük-böyük
Ölkələrin arasında
Kosmosda da öz yerimiz,
peykimiz var.
İllər ilə görülən iş,
salınan bağ
İndi artıq yetirir bar.
Naqislərin, nakəslərin,
Çörək vurmuş qonşuların
Tapdağından azad olan
Qarabağda, Zəngəzurda
Hər şəhərdə, hər bir kənddə -
Bir söz ilə, hər tərəfdə
Bir canlanma, tərəqqi var.
Bir tərəfdə yol çəkilir,
Bir tərəfdə bağ salınır,
gül əkilir.
Bir tərəfdə uca dağlar
qazılaraq
Uzaq yolu yaxın edən -
Uzanaraq keçib gedən
Gur işıqlı tunelləri
Çəkir sənin ərənlərin.
Hələ, hələ mən demirəm
O qanadlı uçaqların
Həm endiyi, həm qalxdığı
limanları,
Ondan sonra gələnləri…
Bax, beləcə abadlaşır,
gözəlləşir
Ana torpaq Qarabağım -
Damarımda axan qanım!
Bu gün yoxdur pərən düşən
əsir-yesir
Qaçqınımız, köçkünümüz.
Onlar indi dəstə-dəstə
köç edirlər
Öz yurduna-yuvasına,
Öz elinə-obasına -
Yaraşıqlı, gur işıqlı,
aynabəndli evlərinə.
Dünəninə, bu gününə
nəzər salıb
Oğlun, qızın fərəhlənir,
dost sevinir.
Hər birinin sinəsində
çırpınaraq
Pöhrələnən neçə-neçə
arzu, istək,
dilək dinir.
Qaranlığa işıq saçan
Xoş, mehriban gözlər gülür.
Sevincindən dilə gələn
Milyon-milyon ürəklər də
belə deyir:
- Zəfərlərin mübarəkdir, Azərbaycan!

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# Zəfər Günü ilə bağlı Minskdə rəsmi qəbul təşkil olunub

**Azərbaycanın Belarusdakı səfirliyi tərəfindən 8 Noyabr - Zəfər Günü münasibətilə Minsk şəhərində rəsmi qəbul təşkil edilib.**

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, qəbulda əsas qonaq qismində Belarus Respublikasının sənaye naziri Andrey Kuznetsov, eləcə də Belarus Respublikası Prezident Administrasiyasının Xarici siyasət idarəsinin rəisi Dmitri Mironçik, Belarus Parlamenti Respublika Şurasının Beynəlxalq əlaqələr idarəsinin rəisi Andrey Taranda, Xarici İşlər Nazirliyinin Protokol idarəsinin rəisi Maksim Nesterenko, MDB ölkələri ilə ikitərəfli əməkdaşlıq Baş idarəsinin rəisi Maksim Straçko, Belarus Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq departamentinin rəisi İvan Xrapunenko, MDB Baş katibinin birinci müavini İqor Petrişenko, müavini Nurlan Seytimov, Belarusda fəaliyyət göstərən diplomatik korpusun, ictimai, mədəni, işgüzar dairələrin nümayəndələri, diaspora rəhbərləri və üzvləri iştirak ediblər.

Azərbaycan və Belarus Dövlət himnlərinin səsləndirilməsindən sonra səfir Məhərrəm Əliyev çıxış edərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ordumuzun yüksək peşəkarlıq, qüdrət və əzm nümayiş etdirərək dövlətimizin ərazi bütövlüyünü, tarixi ədaləti və milli ləyaqətimizi bərpa etdiyini bildirib.

Zəfər Gününün yalnız hərbi uğurun təntənəsi deyil, tarixi torpaqlarımızın azad edilməsi uğrunda həyatlarını qurban vermiş qəhrəmanlarımızın xatirəsinə olan ehtiramın ifadəsi olduğunu vurğulayaraq, onların əziz xatirəsini minnətdarlıqla yad edib.

Daha sonra səfir son beş il ərzində işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdən danışaraq, bu ərazilərdə enerji təchizatının tam bərpa edildiyini, müasir şəhərlər və kəndlər yaradıldığını, təhsil müəssisələri və sənaye obyektlərinin tikildiyini bildirib və bu məqsədlə dövlət büdcəsindən 10 milyard ABŞ dollarından çox vəsait xərcləndiyini qeyd edib. M.Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla həyata keçirildiyini vurğulayaraq, sözügedən proqram çərçivəsində minlərlə ailənin Füzuli, Laçın, Zəngilan, Cəbrayıl və digər rayonlarda öz evlərinə qayıtdığını diqqətə çatdırıb.

Həmçinin M.Əliyev çıxış zamanı baş verən müsbət dəyişikliklərlə yanaşı, azad edilmiş ərazilərdəki mina, eləcə də ekoloji problemlərə də toxunub.

Sonda səfir Azərbaycan ilə Belarus arasındakı münasibətlərə toxunaraq, Belarus Respublikasının rəhbərliyinə ədalətli mövqeyi və dəstəyi üçün dərin minnətdarlığını bildirib.

Tədbirdə əsas qonaq qismində iştirak edən Belarus Respublikasının sənaye naziri A.Kuznetsov çıxış edərək Zəfər Günü münasibətilə tədbir iştirakçılarını, eləcə də Azərbaycan rəhbərliyini və xalqını təbrik edib. Prezidentlərimiz arasındakı fəal siyasi dialoqun Azərbaycan-Belarus əməkdaşlığının bütün spektri üzrə yüksək dinamikanı təmin etdiyini qeyd edən nazir qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin gələcək inkişafının əsas prioriteti olduğunu bildirib. Sənaye kooperasiyasının inkişafına, birgə istehsal olunan məhsulların çeşidinin genişləndirilməsinə də diqqət çəkən A.Kuznetsov Ağdam rayonunun Qızıl Kəngərli kəndində birgə aqroşəhər layihəsi üzərində işlərin davam etdiyini vurğulayıb, ölkəsinin də sözügedən regionların dirçəldilməsində dost Azərbaycanın yanında olduğunu bildirib.

Azərbaycan və Ermənistan tərəfindən ABŞ-də sülh müqaviləsinin paraflanmasını, o cümlədən regionda inkişafın və stabilliyin təmin olunması istiqamətində atılan addımları yüksək qiymətləndirən qonaq ölkəmizə sülh, əmin-amanlıq və firavanlıq arzu edib.

Tədbirin bədii hissəsində Zəfər Günü ilə əlaqədar videoçarx nümayiş olunub, 32-ci beynəlxalq estrada musiqisi - "Vitebsk-2023" müsabiqəsinin qalibi, Belarus Respublikası Prezident Fondunun təqaüdçüsü həmyerlimiz Samir Yolçuyevin ifasında xalq mahnılarımız səsləndirilib, həmçinin "Sarı gəlin" və "Qafqaz" rəqs ansambllarının ifasında milli rəqslər təqdim olunub.

## ZƏFƏR gündəliyi

## 8 noyabr 2020-ci il

*Noyabrın 8-də döyüş əməliyyatları müxtəlif intensivlikdə, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.*

*Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görüb. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar olub, mülki infrastruktura ziyan dəyib.*

*Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd "T-72" tankı, 2 ədəd "D-20" topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilib və sıradan çıxarılıb.*

### İlham ƏLİYEV: "Şuşa azaddır! Biz Şuşaya qayıtmışıq!"



Müzəffər Ali Baş Komandan İlham Əliyev öncə Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib.

Sonra Prezident Şəhidlər xiyabanında xalqa müraciət edib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!" Prezident bəyan etdi ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, tarixi abidələrimizi dağıtdı, məscidlərimizi dağıtdı, təhqir etdi. Azərbaycan dövləti bütün tarixi abidələrimizi bərpa edəcək, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcək: "Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir".

### Mehriban ƏLİYEVA: "Tarixi ədalət bərpa olunur!"



Birinci vitse-prezident Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə rəsmi "İnstaqram" səhifəsində paylaşım edib: "Şuşa işğaldan azad edilib. Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

### Düşmənin səngər və sığınacaqları dağıdılıb, yüksəkvəzifəli şəxsləri məhv edilib

Saat 14:00 radələrində cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 həmlə təyyarəsi və PUA-nın tətbiqi ilə endirilən aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları dağıdılıb, yüksəkvəzifəli şəxsləri məhv edilib.

### Erməni hərbçiləri bəzi hədləri ataraq qaçıblar

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində keçirdiyi hücum əməliyyatı nəticəsində düşmənə ağır zərbələr endirilib.

Cəbhənin bu istiqamətində düşmənin mövqelərinə atəşlə zərər vurulub. Ağır itkilər verən düşmən bəzi hədləri ataraq qaçıb.

Müdafiə Nazirliyi həmin anları əks etdirən videogörüntülər yayıb.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




# Mətbuat Şurası Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb

**Azərbaycan jurnalistləri adından Mətbuat Şurasının İdarə Heyəti 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

AZƏRTAC məktubu təqdim edir:

"Möhtərəm cənab Prezident!

Dövlətimizin rəhbəri və Müzəffər Ali Baş Komandan kimi Sizin müdrik, prinsipial və qətiyyətli siyasətiniz, xalqımızın sarsılmaz iradəsi, dövlət-xalq birliyi, rəşadətli ordumuzun qəhrəmanlığı nəticəsində müasir tariximizin ən parlaq səhifələrindən birinə çevrilmiş 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümünü böyük qürurla qeyd edirik.

Siz yalnız hərb meydanında deyil, eyni zamanda diplomatiya və informasiya cəbhələrində aparılan mübarizə nəticəsində qazanılmış bu şanlı Qələbənin əsas memarısınız.

44 günlük Vətən müharibəsi dövründə dünyanın 30-dan artıq nüfuzlu media qurumuna verdiyiniz müsahibələrdə Azərbaycanın haqlı mövqeyini, tarixi ədalətin bərpası uğrunda aparılan mübarizəni yüksək peşəkarlıq və böyük məharətlə ifadə etdiniz. Bəzən qərəzli sualları belə tarixin və ədalətin səsi kimi təmkinlə cavablandırdınız, fakt və arqumentlərlə xalqımızın səsini bütün dünyaya çatdırdınız.

Azərbaycan mediası, jurnalistlərimiz Sizin ətrafınızda yumruq kimi birləşərək həm cəbhə bölgəsindən, həm də diplomatik və informasiya səngərlərindən vətəndaşlarımızı, beynəlxalq ictimaiyyəti operativ və obyektiv məlumatlandırdılar. Jurnalistlərimiz məhz Sizdən nümunə götürərək Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, ölkəmizə yönəlmiş dezinformasiya və təxribatlara qarşı mübarizədə əsl peşəkarlıq və vətənpərvərlik nümunəsi göstərdilər. Onlar informasiya cəbhəsinin əsgərlərinə çevrilərək Zəfərin qazanılmasına mənəvi və ideoloji töhfə verdilər.

Bu gün artıq müharibə geridə qalıb, xalqımız işğaldan azad olunmuş torpaqlarımızın dirçəlişi və Böyük qayıdış dövrünü yaşayır. Sürətlə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, müasir infrastrukturun yaradılması, şəhər və kəndlərin yeni simasının formalaşması Azərbaycan dövlətinin gücünü və iradəsini bütün dünyaya nümayiş etdirir. Bu prosesdə Azərbaycan mediası da fəal iştirak edir - görülən işləri işıqlandırır, Vətən torpaqlarına qayıdan insanların sevincini, quruculuğun miqyasını və dövlət siyasətinin mahiyyətini xalqa və dünyaya dolğun çatdırır.

Sizin mediaya göstərdiyiniz diqqət və qayğı jurnalistlər üçün həm mənəvi dəstək, həm də böyük stimul mənbəyidir. Medianı milli maraqların müdafiəsində mühüm qüvvə kimi qiymətləndirməyiniz, onun azad, məsuliyyətli və vətənpərvər fəaliyyətinə verdiyiniz önəm ölkəmizdə media mühitinin inkişafına yeni nəfəs gətirib.

Bu inkişafın bariz nümunələrindən biri də Şuşa Qlobal Media Forumudur. Ölkəmizin mədəniyyət paytaxtı Şuşada keçirilən bu mötəbər tədbir təkcə media müzakirəsi deyil, həm də Azərbaycanın dünyaya bəyan etdiyi sülh, ədalət və əməkdaşlıq mesajının ifadəsidir.

Möhtərəm cənab Prezident!

Bu möhtəşəm və tarixi gündə Sizi media ictimaiyyəti, jurnalistlərimiz adından təbrik edir, uzun ömür, möhkəm cansağlığı, ölkəmizin daha da inkişafı, milli dövlətçiliyimizin möhkəmlənməsi naminə ali və şərəfli dövlət fəaliyyətinizdə uğurlar arzulayırıq.

Qoy, bu Zəfər gələcək nəsillərə milli birlik, dövlətçilik və qürur nümunəsi olsun!".

# Azərbaycanın mədəni ictimaiyyəti Prezident İlham Əliyevi Zəfər Günü münasibətilə təbrik edib

**Azərbaycanın mədəni ictimaiyyəti 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb.**

AZƏRTAC müraciəti təqdim edir:

"Azərbaycan torpaqlarının azadlığı, ərazi bütövlüyü və suverenliyinin bərpa olunması, ədalətin bərqərar olması uğrunda xalqımızın apardığı tarixi mübarizənin simvoluna çevrilmiş 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə Sizi təbrik edir, Azərbaycan xalqına bəxş etdiyiniz bu Qələbə üçün Sizə sonsuz ehtiram və minnətdarlığımızı bildiririk.

Memarı olduğunuz bu şanlı Zəfər xalqımızın əsrlər boyu daşıdığı ədalət idealının gerçəkliyə çevrilməsi, apardığı haqq mübarizəsinin ali zirvəsi və milli iradənin tarix qarşısında təntənəsidir. Vətən müharibəsi Azərbaycan üçün, sadəcə, hərbi, siyasi, diplomatik qarşıdurma deyil, mənəvi arxetiplərin toqquşması - ədalət və haqsızlığın, mərhəmət və zorakılığın, həqiqət və yalanın qarşılaşdığı sınaq meydanı idi.

Sizin rəhbərliyinizlə işğaldan azad edilmiş torpaqlara Böyük qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq və bərpa işləri, xalqımızın qurub-yaratmaq əzmini nümayiş etdirir. Qısa zaman ərzində inşa edilən hava limanları, yollar, yaşayış məntəqələri və sosial layihələr müstəqil Azərbaycanın öz gücünə arxalanan inkişaf modelinin göstəricisidir. Bu həm də müharibədən qalib çıxmış dövlətin sülh, tərəqqi və mədəni dirçəlişə yönəlmiş niyyətinin əksidir.

İşğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni irsin bərpa edilməsi, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri və digər mədəni tədbirlərin bərpası bir daha sübut edir ki, Azərbaycanın Qələbəsi həm də yüksək mədəniyyətin, sarsılmaz ruhun və mənəviyyatın Zəfəridir. Bütün bunlar mühüm mədəniyyət hadisəsi olmaqla yanaşı, həm də milli kimliyin ifadəsi, dövlətçilik ideyalarının mədəni kodda təcəssümü, o cümlədən dövlətin milli-mənəvi, mədəni dəyərlərə verdiyi böyük önəmin təzahürüdür.

Azərbaycan xalqının milli-mədəni irsinin yaşadılması, dünya miqyasında tanıdılması və beynəlxalq mədəni münasibətlər sistemində yüksək səviyyədə təmsil olunması istiqamətində həyata keçirilən işlərə verdiyiniz dəstəyə, göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Möhtərəm cənab Prezident!

Bu əlamətdar və tarixi gündə Sizi ölkəmizin mədəni ictimaiyyəti adından səmimi-qəlbdən təbrik edir, Uca Tanrıdan Sizə uzun ömür, möhkəm cansağlığı, xalqımızın firavanlığı və rifahı, dövlətimizin möhkəmlənməsi və intibahı naminə ali və şərəfli fəaliyyətinizdə uğurlar diləyirik".

# DTX-nin Akademiyasında Zəfər Gününə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunan respublika elmi-praktik konfransı keçirilib

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının Heydər Əliyev Muzeyində Zəfər Gününə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Azərbaycanda demokratik respublika modelinin təşəkkül tarixi: dövlət rəmzlərinin təsis edilməsindən dövlət suverenliyinin tam əldə edilməsinə aparan yol" adlı respublika elmi-praktik konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə akademiyanın və digər xüsusi təyinatlı ali təhsil müəssisələrinin rəhbər şəxsləri və professor-müəllim heyətləri ilə yanaşı, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Vətən müharibəsi iştirakçıları və təhlükəsizlik orqanlarının veteranları iştirak ediblər.

Qonaqlar əvvəlcə akademiyanın ərazisində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla anıblar.

Konfrans açıq elan olunduqdan sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Konfransda giriş nitqi ilə çıxış edən akademiyanın rəisi general-mayor Elşad Nəsirov qonaqları salamlayıb və bu il noyabrın 8-də xalqımızın qazandığı tarixi Zəfərdən beş il ötdüyünü diqqətə çatdırıb. Zəfər Gününün Azərbaycan xalqının dövlətçilik tarixinə milli kimliyimizin, azadlıq iradəmizin və müasir dövlətçiliyimizin simvolu kimi qızıl hərflərlə yazıldığını qeyd edən natiq bildirib ki, Ulu



Öndər Heydər Əliyevin misilsiz səyləri ilə hüquqi, demokratik dövlət quruculuğu yoluna qədəm qoyan müasir Azərbaycan Respublikası bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf səviyyəsinə yüksəlib. Həm iqtisadi, həm də hərbi-siyasi baxımdan regionun lider dövlətinə çevrilib, öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etməyə nail olub.

Ardınca konfransın mövzusuna dair videoçarx nümayiş etdirilib.

Daha sonra çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının müasir inkişaf mərhələsinin, onun hüquqi və siyasi sisteminin formalaşmasının Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlı olduğunu qeyd edib. Ə.Hüseynli bildirib ki, XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan üçün dövlət quruculuğu, hüquqi sistemin təşkili və konstitusion əsasların yaradılması həyati zərurətə çevrilib. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası isə Ulu Öndər Heydər Əliyev ideyalarının hüquqi təcəssümüdür.

Milli Məclisin Komitə sədri qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu güclü dövlət və ordu quruculuğu siyasəti öz bəhrəsini verib. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirərək Azərbaycanı qalib, güclü və tam suveren dövlətə çevirib.

Konfransda çıxış edən Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi gömrük xidməti general-mayoru Qulu Novruzov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının milli yaddaşında dövlətin qurucusu, sabitliyin və müstəqilliyin təminatçısı kimi həkk olunduğunu qeyd edərək, ötən əsrin 90-cı illərinin əvvəllərində mövcud olan mürəkkəb tarixi şəraitdə Ulu Öndərin siyasi iradəsinin, xalqın taleyinə məsuliyyətli yanaşmasının Azərbaycanı dağılmaq təhlükəsindən xilas etdiyini vurğulayıb. Q.Novruzov bildirib ki, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olaraq Azərbaycan dövlətçiliyinin yeni mərhələsini - Zəfər və Suverenlik dövrünü yaradıb.

"Qarabağ" və "Azərbaycan bayrağı" ordenli Vətən müharibəsi iştirakçısı polkovnik Nəsimi Şadmanov konfransda çıxış edərək Ulu Öndər Heydər Əliyevin dövlətçiliyin əsas sütunlarını yaratmaqla yanaşı, müasir Azərbaycan Ordusunun təməlini formalaşdırdığını qeyd edib. N.Şadmanov bildirib ki, dövlətimizin başçısının qətiyyəti, xalqla ordunun birliyi nəticəsində Vətən müharibəsində şanlı Zəfər əldə edilib. 44 gün davam edən Vətən müharibəsində və antiterror əməliyyatında şəhidlərimiz canlarını fəda edərək, xalqımızın azadlıq salnaməsini yazıblar.

Vətən müharibəsi iştirakçısı polkovnik N.Şadmanov həmçinin onu da qeyd edib ki, Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində bu gün müstəqil Azərbaycanın hərbi-siyasi qüdrəti durmadan artır, ordumuz davamlı olaraq ən müasir silahlarla təchiz olunur, hərbçilərin sosial vəziyyəti gündən-günə daha da yaxşılaşdırılır.

Konfransın sonunda xatirə fotosu çəkdirilib.

● 8 Noyabr Şuşa Şəhəri Günüdür

# "Şuşa bütün azərbaycanlılar üçün əziz şəhərdir"

**8 Noyabr - Zəfər Günü xalqımızın tarixinə böyük hərflərlə yazılıb. Bu tarix hər birimiz və hamımız üçün qürurverici, iftixar dolu bir gündür. Çünki 2020-ci il noyabr ayının 8-də iyirmi səkkiz illik işğaldan sonra Şuşa erməni qəsbkarlarından azad olundu.**

Beş ildir ki, sevincini yaşadığımız bu günü həm qəhrəmanlıq, həm qürur, həm də milli birliyin təntənəsi kimi qeyd edirik. Azərbaycanın qeyrət qalası, Qarabağın döyünən ürəyi, Qafqazın incisi adlandırılan Şuşa, gözəllik simvolu, qürur rəmzi olmaqla yanaşı, həm də milli kimlik məsələsi idi. Zaman-zaman "Azərbaycan musiqisinin beşiyi", "Şərqin konservatoriyası" və başqa adlarla dillərdən düşməyən Şuşa, dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar üçün qürur yeri, ucalıq rəmzi olub. Şuşa yaddaşlara bu cür yazılmışdı, Şuşa ürəklərdə bu cür yaşayırdı. Ölkəmizin hər qarışı, hər addımı bizim üçün əziz və doğmadır, amma Şuşanın qəlbimizdə, ürəyimizdə öz yeri, öz məqamı var.

Şuşa heç də asanlıqla erməni işğalçılarından azad olunmayıb. Onun azadlığı uğrunda ordumuzun cəsur zabit və əsgərləri böyük cəsarətlə vuruşub, qəhrəmanlıq, igidlik göstəriblər. Bu müqəddəs məkanın azadlığı naminə qan töküblər, can qoyublar. Biri-birindən cəsur olan oğullarımız gərgin döyüşlərdən sonra düşməni diz çökdürüblər, məğlub ediblər. Ordumuzun Şuşa uğrunda apardığı döyüşləri hərbi ekspertlər hələ də öyrənir, təhlil edirlər.










### Haqq yolunda olan Azərbaycan

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələri ölkəmizə qarşı bütün cəbhəboyu genişmiqyaslı təxribat törətdi, mövqelərimiz üzərinə hücuma keçdi. Bununla da yurdumuzun azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başladı. Müharibənin birinci günü Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev televiziya ilə xalqa müraciət edərək erməni qəsbkarlarının bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutduğunu, nəticədə mülki əhali və hərbçilərimiz arasında itkilərin, yaralananların olduğunu bəyan etdi. Dövlətimizin başçısı bu tarixi müraciətində rəşadətli Azərbaycan Ordusunun düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və Ermənistan silahlı qüvvələrinin xeyli sayda hərbi texnikasının və canlı qüvvəsinin məhv edildiyini bildirdi: "Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bu tarixi müjdəni Azərbaycan xalqına Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük fəxarət, qürur və iftixar hissi ilə çatdırdı. Xoş xəbərdən ürəklərə sevinc, qəlblərə fərəh ələndi.

### Prezident xalqa Şuşanın azad olunması müjdəsini verdi

Bu əlamətdar günü hamımız indiki kimi xatırlayırıq. Dövlətimizin başçısı noyabrın 8-də Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etdikdən sonra, elə bu müqəddəs məkandan Şuşanın azad olunduğu xəbərini uca, ötkəm və qətiyyətli səslə bütün dünyaya bəyan etdi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Şəhidlər xiyabanından "Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" - deyərək Azərbaycan xalqına böyük sevinc bəxş etdi. Dövlətimizin başçısının bu tarixi və yaddaşlarda əbədi olaraq yaşayacaq Zəfər müjdəsi ilə eyni vaxtda biz sanki dünyada yaşayan bütün azərbaycanlıların alqış səslərini eşitdik, sevinc və qürur hisslərini duyduq, gülümsər çöhrələrini gördük.

Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin müraciətini ayaq üstə, sevinclə dinlədi. Hər birimiz üçün həmin anlar unudulmazdır. Dövlətimizin başçısı müraciətinə belə xoş sözlərlə başladı: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

Prezident İlham Əliyev müraciətində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını da ziyarət etdiyini bildirərək dedi: Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!..

"Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyifsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk! Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə-belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq" - deyə dövlətimizin başçısı bildirib.

### Qəhrəmanlıq tariximizin şanlı səhifəsi

8 noyabr 2020-ci il Azərbaycan tarixində əbədi-əzəli olaraq Zəfər Günü kimi qalacaq. Gələcək nəsillər bu günü böyük qürur və iftixarla qeyd edəcək. Azərbaycanın mədəni incisi olan Şuşanın azad edilməsi yalnız hərbi əməliyyatların uğurla nəticələnməsi deyil, bu həm də Azərbaycanın dövlətçilik fəlsəfəsinin, milli iradəsinin və xalqın birliyinin təntənəsi idi. İnamla demək olar ki, Şuşanın azad olunması 44 günlük Vətən müharibəsində Azərbaycanın XXI əsrdə qazandığı ən böyük tarixi nailiyyətdir.

Beş il əvvəl yaşadığımız şərəf dolu günləri xalqımız heç vaxt unutmayacaq. 2020-ci il noyabrın 8-də rəşadətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında Şuşa şəhərini erməni işğalçılarından azad edərək qəhrəmanlıq tariximizə şanlı səhifələr yazdı. Qələbə əzmi ilə döyüşlərə atılmış cəsur əsgər və zabitlərimiz uzun məsafə qət edərək, sıldırım qayalardan və dərin dərələrdən keçərək düşmənin iyirmi səkkiz il işğalda saxladığı Şuşadan qovub çıxardı. Bu Qələbə, bu Zəfər xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrildi.

Bu misilsiz qələbə Prezident İlham Əliyevin sərəncamı ilə əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan olundu. 2021-ci il yanvarın 14-də isə Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı. 2023-cü il iyulun 31-də dövlətimizin başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzaladı. Həmin Sərəncama əsasən, Şuşa şəhərinin işğaldan azad edildiyi 8 noyabr tarixi Şuşa Şəhəri Günü kimi qeyd olunur.

### Şuşa daha da gözəlləşəcək

Azadlığına qovuşandan sonra Şuşada bərpa, quruculuq və yenidənqurma işlərinə, infrastrukturun bərpasına start verildi və çox keçmədi ki, şəhərdə əhəmiyyətli açılışlar həyata keçirildi. Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncama əsasən, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. İlk addım olaraq Şuşaya Zəfər yolu çəkildi. 2024-cü il oktyabrın 21-də "Şuşa şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiqləndi. 2022-ci ildə Azərbaycanın, 2023-cü ildə isə "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunan Şuşanın əsl tarixi simasının bərpası istiqamətində nəhəng layihələr gerçəkləşdirilir.

Az vaxt ərzində böyük şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin ilkin görkəminə qaytarılması, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin bərpa edilməsi, Mehmandarovların mülkünün təmir-bərpası, Bülbülün ev-muzeyinin açılışı, həmçinin şəhərdəki tarixi, dini və memarlıq abidələrinin yenidən inşası şəhəri daha da gözəlləşdirdi. Zəfərdən sonra hər il Cıdır düzündə "Xarı bülbül" musiqi festivalının düzənlənməsi, Vaqifin məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası onu göstərir ki, Şuşa sürətlə dirçələrək özünün əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya etdiyi səfərlər və bu səfərlər zamanı təməlqoyma mərasimlərində iştirak etdikləri layihələr ermənilər tərəfindən viran edilmiş şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacaqlarına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da artırır.

İkinci Qarabağ müharibəsində düşmən üzərində qazanılan qələbəmizdən ötən beş il ərzində Şuşa inkişaf edir və gözəlləşir. Hər birimiz üçün Şuşa yalnız torpaq, ərazi deyil, şəhər deyil, Şuşa milli qürur, milli mənlik tariximiz, kimliyimiz deməkdir. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

1992-ci il mayın 8-də itirdiyimiz Şuşa 28 ildən sonra 2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə geri qaytarıldı. Doğmadan doğma olan Şuşa indi zəferimizin beşinci ilini təntənə ilə qeyd edir. Zaman keçdikcə Şuşa daha da gözəlləşəcək, Şuşa daha da dirçələcək! Dövlətimizin başçısının Azərbaycan xalqına müraciətində dediyi kimi: "Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV foto,*
*"Azərbaycan"*




# Artıq 5 ildir mən Şuşalıyam





**Şuşalıyam. Təəssüf ki, məlum səbəbdən ömrümün 30 ilini Şuşaya həsrət qaldım. O üzdən xalqımızın və dövlətimizin tarixinə qızıl hərflərlə yazılan şanlı Qələbəmizdən sonra doğma Şuşanı tez-tez ziyarət edirəm. Bu yerlərin hər cığırında izlərim var. Şuşanın adi daşına, divarına sığal çəkməkdən rahatlıq duyuram.**

Cıdır düzünün kənarında dayanıb sıldırım qayaları, gen dərələri, sıx meşələri, qartallar süzən zəngin səmanı seyr etdikcə, sanki ana təbiətin ovsununa düşürəm. İçimə hüzur dolur, azad Şuşanın xoşbəxt övladı kimi qürurlanıram. Bu sonsuz sevinci bizə yaşadan qəhrəman Azərbaycan əsgərinin dünyanı heyrətə gətirən hünərinə alqış deyirəm.

Qələbə qurbansız olmur, deyirlər. Vətən sevdalı neçə igid balamız sinəsini düşmən gülləsinə sipər edib şəhid oldu, əbədiyyətə qovuşdu. Bu müqəddəs savaşda neçə ər oğlumuz yaralandı, sağlamlığını itirib qazi statusunu qazandı. Bu gün qədirbilən xalqımız da, qüdrətli dövlərimiz də şəhidlərin xatirəsini uca tutur, şəhid ailələrinə, qazilərə, veteranlara qayğı və diqqətini əsirgəmir.

Şuşaya hər səfərimdə bir yenilik görürəm. Andı, qibləsi vətən olan oğulların hünəriylə Şuşa canlanır, nazlı gəlin kimi cilvələnir. Doğma əllər Şuşanın gözəlliyinə hər gün, hər ay yeni naxışlar vurur. Bu gün Şuşa gözəlliyi ilə göz qamaşdırır, hər gələn qonağı heyran edir.

30 il faşist xislətli Ermənistan silahlı qüvvələrinin işğalı altında inləyən, intizar gözləri yol çəkən Şuşa Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrəti, qəhrəman Azərbaycan əsgərinin hünəriylə azadlığa qovuşdu. 30 il qəfəsdə çırpınan nəğməkar bülbül beş ildir ki, azaddır. 5 ildir ki, həsrətdən buz bağlamış ürəklərin donu açılıb. Şuşa yenə çal-çağırlı, bayram ovqatlı günlərinə qovuşub.

30 il vətəndə qürbət nisgili yaşayan, məcburi köçkün kimi ölkənin yaxın-uzaq bölgələrinə səpələnən şuşalılarda, qohum-qardaşda, dost-tanışla Şuşada tez-tez qarşılaşıram. Qucaqlaşırıq, bir-birimizə sıxılıb sevinclə döyünən ürəklərimizin çırpıntılarını eşidirik. Xatirələr vərəqlənir, kövrək duyğulardan təsirlənirik. Hər belə görüşün dəyişməyən nəqarəti şükranlıq olur. Müzəffər Ali Baş Komandan İlham Əliyevə sonsuz minnətdarlıq ünvanlayır, xoş arzular diləyirik. Xalqımıza həyat firavanlığı, dövlətimizə yenilməz qüdrət istəyini dönə-dönə dilə gətiririk.

Mən şuşalıyam. Bir zamanlar bu cənnətməkanda evimiz, həyətimiz olub. İndi Bərdədə yaşayıram. Burada çoxlu dostum, yoldaşım var. Amma etiraf edim ki Şuşanın cazibəsindən çıxmaq mümkün deyil. Axı mən 5 ildir Şuşasız şuşalı deyiləm.

*Aydın SƏFƏROV,*
*Bərdə şəhəri*

# Xankəndi Zəfər Günü konsertinə hazırdır

**Xankəndi şəhərində Zəfərin 5 illiyi münasibətilə möhtəşəm konsert proqramı təşkil olunacaq.**





Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən konsert noyabrın 8-də axşam saat 18:00-da şəhərin Zəfər meydanında baş tutacaq. Artıq konsertlə bağlı hazırlıq işlərinə start verilib. Meydanda səhnə, küçə və prospektlərdə isə Zəfər ruhunu əks etdirən kompozisiyalar, işıqlandırmalar quraşdırılır. Şəhər bayram abhavasına bürünüb. Zəfər konsertində tanınmış ifaçılar, incəsənət xadimləri çıxış edəcək, vətənpərvərlik ruhunda mahnılar səslənəcək. Tədbirin sonunda isə atəşfəşanlıqla Zəfərin 5 illiyi qeyd olunacaq.

BakıAbadlıq

"BAKI ABADLIQ XİDMƏTİ" MMC




# Xankəndidə Zəfər təntənəsi

**2023-cü ilin bu günü Vətən qibləmiz Şuşada qazandığımız şanlı zəfərin xoşbəxtliyini Xankəndidə keçirilən hərbi paradda yenidən yaşadıq. Həmin ilin 8 noyabr tarixində xalqımızın qürur salnaməsinə daha bir qızıl imzalı gün yazıldı, ay-ulduzlu üçrəngli bayrağımız Xankəndidə hərbi paradda məğrurluqla dalğalandırıldı. Düşmənə gözdağı, dosta sevinc bəxş edilən həmin möhtəşəm tarixdə dünya Qarabağda yaşanan zəfər təntənəsinin tamaşasına durdu.**

8 noyabr 2023-cü ildə tarixi yurdumuzdan ucalan təntənəli qələbə marşının sədaları altında çiyin-çiyinə addımlayan qəhrəman Azərbaycan oğulları başlarını dik tutaraq Xankəndinin Zəfər meydanından Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevi, Azərbaycan xalqını, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərimizin ruhlarını fəxrlə salamladılar...

## Bütöv Azərbaycanın xoşbəxtlik nidası

Qarabağın xilaskarı İlham Əliyevin Xankəndidə hərbi paradı qəbul etdiyi meydanda isə indiyə qədər həm ağrı-acılı, həm də qürurlu xeyli hadisələr yaşanmışdı.

Bu o meydan idi ki, 1988-ci ildə erməni şovinistləri separatçı fəaliyyətlərinə məhz buradan başlamış, xalqımıza qarşı çoxsaylı cinayətlərə start vermişdilər. Bu meydana isə bədnam bir ad qoymuşdular. Lakin üzərindən düz 35 il keçdikdən sonra haqq-ədalət yenidən bərqərar edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə məhz həmin meydana Zəfər meydanı adını verməsi İlahi ədalətin bərpası oldu.

İki il əvvəlin 15 oktyabrında Pənahəli xanın yurdu Xankəndidə qalib sərkərdə İlham Əliyev tərəfindən Azərbaycan bayrağının dalğalandırılması "Qarabağ Azərbaycandır!" haqq nidasının dünyaya bir daha bəyanı oldu. "Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm... ...Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək", - deyə, həmin tarixdə Qarabağın xilaskarı İlham Əliyev Xankəndidən qələbə münasibətilə xalqımızı təbrik etdi.

Qalib lider vurğuladı ki, düz 20 il bundan əvvəl Azərbaycan xalqı ona böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir: "O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

İlham Əliyevin bu fikirləri həm də 2003-cü ildə Prezident kimi and içdiyi gün üzərinə götürdüyü vəzifəsini yerinə yetirməyin, xalqımıza Bütöv Azərbaycanı bəxş etməyin qürurunu yaşayan ali rəhbərin xoşbəxtlik nidası idi.

## Milli yolumuz zəfərlə başa çatdı

Vətən müharibəsində qazanılan Şuşa zəfəri xalqımıza neçə-neçə milli qələbələr yaşatdı. 2023-cü ilin 19-20 sentyabr tarixlərində "Dəmir yumruq" cəmi 23 saata xunta rejimini qarşısında diz çökdürdü. Müzəffər Ali Baş Komandan zirvələr yaraşığı şanlı Azərbaycan bayrağını Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda dalğalandırdı. Bununla düz 2 əsrdir ki, xalqımızın qanına susayaraq insanlığa sığmayan cinayət əməlləri törədən erməni faşizminin başı əzildi, Qarabağdakı quldur yuvası dağıdıldı. Azərbaycan xalqına qarşı müharibə cinayətləri törətməkdə təqsirli bilinən erməniəsilli şəxslər indi Bakıda ədalət mühakiməsi qarşısında cavab verirlər.

Ötən ilin martında Xankəndi şəhərində Novruz tonqalını alovlandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər meydanından Vətən qürurunu bölüşərkən uğurla keçirilmiş antiterror əməliyyatının beynəlxalq hüququn, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğunu söylədi: "Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

Beləliklə, 20 sentyabr 2023-cü ildə suverenliyimizin tam təmini, Konstitusiyamızın bütün ərazilərimizdə hüquqi qüvvəyə minməsi ilə bütöv Azərbaycana uzanan milli yolumuz zəfərlə başa vuruldu.

Azərbaycan xalqı keçdiyi bu şərəfli yolunda keşməkeşlər yaşasa da, mübarizəsindən bir addım da geri çəkilmədi. "Torpaqdan pay olmaz", - deyib bu uğurda canını verməkdən belə çəkinmədi. Qələbəyə olan qəti inamımızdan güc alaraq Vətən mübarizəsindən üzüağ, başıuca çıxdıq.

## Paradlar zirvəsi

10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı zamanı dünya Azərbaycanın qüdrətini, gücünü bir daha gördü.

Prezident İlham Əliyevlə birlikdə qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Zəfər paradındakı çıxışında söylədi ki, Azadlıq meydanında paradlar çox keçirilib, ancaq bu paradın xüsusi önəmi var: "Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

Bəli, məhz elə də oldu və Azərbaycan gün keçdikcə daha parlaq qələbələrə imza atdı.

8 noyabr 2023-cü ildə Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın məhz Xankəndidə keçirilməsi rəmzi xarakter daşıyırdı.

1919-cu ildə Cümhuriyyət qurucuları tərəfindən də Xankəndidə hərbi parad keçirilmişdi. Və 104 il sonra Qarabağın xanzadə şəhəri Xankəndi özünün qürur tarixini yenidən yaşayırdı. 2023-cü ildə tarixi yurdumuz Xankəndidə keçirilən ehtişamlı parad düşmənin canını bir daha lərzəyə saldı, Azərbaycana qələbə qüruru yaşatdı, bu torpaqlar uğrunda şəhid olan vətən övladlarımızın ruhunu şad etdi.

Şanlı Vətən müharibəmizin üçüncü ildönümünə həsr olunmuş Xankəndidəki hərbi paradda Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev iştirak etdilər.

Təntənəli paradda çıxış edən qalib lider İlham Əliyev bir daha vurğuladı ki, bu günü bizə bəxş edən Müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur: "Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır".

Müzəffər Ali Baş Komandanın çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi oldu. Silahlı Qüvvələrin parad heyətləri Azərbaycanın Dövlət Bayrağı və Şuşa şəhərinə sancılan - Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəlilədilər. Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Əlahiddə Ümumqoşun Ordunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər...

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olundu.

Bəli, 2020-ci ilə qədər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ölkəmizdə çox sayda təntənəli paradlar keçirib, Azərbaycan bayrağının öncüllüyündə addımlayan qəhrəman hərbçilərimizi, nümayiş etdirilən müasir hərbi texnikalarımızı fəxrlə seyr etmişik. Ancaq 10 dekabr 2020-ci ildə Bakıda Azadlıq meydanında, eləcə də 8 noyabr 2023-cü ildə Xankəndinin Zəfər meydanında keçirilən hərbi paradların bir ayrı təmtərağı və qüruru oldu.

Qarabağın xilaskarı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında qəhrəman Azərbaycan Ordusunun qazandığı misilsiz qələbələrə həsr olunan bu təntənəli paradlar yenilməz xalqımızın əzminin, gücünün simvolu kimi tarix salnamələrimizə qızıl hərflərlə yazıldı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*









GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri Azərbaycan xalqını

"Absheron Operating Company"

"Binagadi Oil Company"

"Karasu Operating Company"

"Shirvan Operating Company"

"Neftechala Operating Company"

Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır!

# Zəfər Parkı və Zəfər Muzeyi "PAŞA Holding" tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinə təhvil verilib

**Noyabrın 6-da "PAŞA Holding" və Bakı Şəhər İcra Hakimiyyəti arasında Razılaşma protokolu imzalanıb. Protokola əsasən "PAŞA Holding"in maliyyə dəstəyi ilə inşa edilmiş Zəfər Parkı və Zəfər Muzeyi Bakı Şəhər İcra Hakimiyyətinə təhvil verilib. Sənədi "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov imzalayıblar.**

Zəfər Muzeyi 2024-cü ildə tikilmiş Zəfər Parkının ərazisində yerləşir. Hər iki layihənin inşası Azərbaycan xalqının 2020-ci ildə əldə etdiyi tarixi Qələbəni və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədi daşıyır.

Zəfər Parkının ümumi ərazisi 9,16 hektar, yaşıllıq zonaları isə 4,24 hektar təşkil edir. Layihə çərçivəsində 44 metr hündürlüyündə Zəfər tağı, 9,9 metr hündürlüyündə memorial abidə, həmçinin şəhidlərin adlarının yazıldığı 8,8 metr hündürlüyündə xatirə divarı inşa edilib. Parkın tikintisinə 114,5 milyon manat vəsait sərf olunub.

Zəfər Muzeyinin ümumi sahəsi 4278 $m^2$ olan bina, 8 sərgi zalı, auditorium zonası (90,7 $m^2$) və s. ilə ziyarətçilərin istifadəsinə təqdim olunacaq. Muzeyin inşası üçün 59,5 milyon manat məbləğində vəsait ayrılıb.

Tarixi Zəfərimiz, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütün Azərbaycan xalqı kimi, "PAŞA Holding" üçün də xüsusi önəm kəsb edir. İstər işgüzar fəaliyyətində, istərsə də sosial məsuliyyət təşəbbüslərində "PAŞA Holding" bu mövzulara daim diqqət və həssaslıqla yanaşır.

"PAŞA Holding" 2021-ci ildən etibarən azad olunmuş ərazilərin bərpa və yenidənqurma prosesində fəal iştirak edir. Xüsusilə tarixi, dini və mədəni irsin qorunması istiqamətində Holding bir sıra mühüm layihələrə dəstək verib. Şirkətin maliyyə dəstəyi ilə Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Saatlı məscidi, Ağdam Cümə məscidi, Qiyaslı kənd məscidi bərpa olunub. Həmçinin işğaldan azad olunmuş ərazilərimizdə Suqovuşan məscidi, Zəngilan məscidi, Hadrut məscidi və Daşaltı məscidi inşa edilib. Hal-hazırda Şuşa, Cəbrayıl və Laçın məscidlərinin inşası davam etdirilir.

# Zəfər Günü münasibətilə AZƏRTAC-da tədbir təşkil olunub

**Noyabrın 7-də Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib.**

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən danışıb. Qeyd edilib ki, bu böyük Qələbə igid oğullarımızın qanı-canı bahasına əldə edilib. Azərbaycan xalqı öz Liderinin ətrafında sıx birləşərək Ordu-Xalq vəhdətinin möhtəşəm nümunəsini, eləcə də öz gücünü və mübarizliyini bütün dünyaya göstərib.

Vurğulanıb ki, Vətən müharibəsində ölkəmiz təkcə hərbi deyil, siyasi, diplomatik və informasiya sahələrində də qələbə qazanıb. Azərbaycan Prezidenti 44 günlük müharibə dövründə xarici media nümayəndələrinə 30-dan çox müsahibə verərək ölkəmizin haqlı mövqeyini, savaşın səbəblərini siyasi uzaqgörənliklə beynəlxalq auditoriyaya çatdırıb. Bildirilib ki, Vətən müharibəsində Prezident təkcə Ordunun deyil, həmçinin informasiya savaşının önündə idi.

AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini, Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri Dağbəyi İsmayılov çıxışında 44 günlük müharibə dövründə jurnalistlərimizin peşəkarlığından və cəbhə xəbərlərinin geniş ictimaiyyətə operativ çatdırılmasından bəhs edib. Qazanılan Zəfərimiz, azad olunmuş torpaqlarda aparılan bərpa-quruculuq işləri barədə informasiyaların daha geniş coğrafiyada yayılması üçün jurnalistlərin üzərinə böyük məsuliyyətin düşdüyünü vurğulayıb.

Daha sonra AZƏRTAC-ın Vətən müharibəsində Zəfərin beşinci ildönümü ilə əlaqədar hazırladığı "Zirvə" bədii-sənədli filmi nümayiş etdirilib.

# Ermənistan vətəndaşlarının məhkəməsində daha 10 təqsirləndirilən şəxslə bağlı sübutlar elan olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 7-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli məhkəmə iclasında sənədlərin və sübutların təqsirləndirilən şəxs Babayan David Klimi ilə bağlı olan hissəsini diqqətə çatdırıb.

Bildirilib ki, David Babayan Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təcavüzkar müharibə zamanı 1998-ci ildə qondarma qurumun fəaliyyətinə qoşulub, 2023-cü ilədək müxtəlif "vəzifələr"də işləyib. Bu həm onun öz ifadəsi, həm də məhkəmə istintaqı zamanı tədqiq edilmiş ona aid sənədlər əsasında təsdiqlənib.

İşin faktiki halları, məhkəmə istintaqı zamanı tədqiq edilmiş çoxsaylı sübutlar, o cümlədən təqsirləndirilən şəxsə bilavasitə aid sənəd və materiallar, habelə təqsirləndirilən şəxslər tərəfindən verilmiş ifadələr onu göstərir ki, D.Babayan bilavasitə əlinə silah götürüb döyüş əməliyyatlarında iştirak etməsə də, cinayətkar birliyin ideologiyasının, Ermənistanın işğalçı siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində bilavasitə iştirak edib.

O, cinayətkar birliyin məqsədləri üçün törədilən cinayətlər barədə agah olub, imkanları daxilində olsa da, bu cinayət hadisələrinin qarşısının alınması üçün hər hansı tədbir görməyib, nifrəti və düşmənçiliyi alovlandırmaqla yeni cinayətlərin törədilməsinə zəmin yaradıb. Bununla da o, qeyd edilən dövr ərzində baş vermiş cinayət hadisələrinin törədilməsində iştirak edib. Vurğulanıb ki, D.Babayan müsahibələrində və sosial şəbəkə paylaşımlarında Ermənistanın işğalçı siyasətinə və cinayətkar birliyin əməllərinə haqq qazandıran, işğalın davam etdirilməsi, hətta "Azərbaycan Respublikasının yeni ərazilərinin işğal edilməsinin zəruriliyini vurğulayan" fikirlər səsləndirib.

D.Babayan həmçinin müharibə planlarının siyasi əsaslandırıcısı və ideoloji təbliğatçısı qismində çıxış edib.

İttiham tərəfi bildirib ki, Beynəlxalq Hərbi Tribunalın Nürnberq presedentində təsbit edildiyi kimi, təcavüzkar müharibə yalnız əlinə silah alanların deyil, onu planlaşdıran, legitimləşdirməyə çalışanların da cinayət məsuliyyətini ehtiva edir.

Beləliklə, D.Babayan təcavüzkar müharibənin hazırlanması, təşkili, aparılması və legitimləşdirilməsində qəsdən və bilavasitə iştirak etməklə müharibə və sülh və insanlıq əleyhinə olan cinayətlərin törədilməsində iştirak edib.

Dövlət ittihamçısı Təranə Məmmədova təqsirləndirilən şəxs İşxanyan Davit Rubeni barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb.

Bildirilib ki, D.İşxanyan Ermənistanın hərbi-siyasi rəhbərliyinin nəzarəti altında fəaliyyət göstərən cinayətkar birliyə 1989-cu ildə qoşulub. O, 1989-cu ildən azərbaycanlılara qarşı milli düşmənçilik ideyalarını və bununla da milli etnik nifrəti yayan "Daşnaksütyun" partiyasının fəal üzvü olub, müxtəlif vaxtlarda batalyon komandiri, qondarma rejimin "deputatı, "parlamentinin spikeri" və digər "vəzifələr"də işləyib.

Qeyd olunub ki, D.İşxanyan qoşulduğu cinayətkar birliyin tərkibində 1989-2023-cü illərdə Ermənistan tərəfindən Azərbaycan Respublikasının suveren ərazilərinin işğalında iştirak edib, didərgin salınmış şəxslərin öz yerlərinə qayıtmasının qarşısının alınmasında, etnik təmizləmə aparılmasında, insanların qəsdən öldürülməsində, əsir və girov götürülməsində, zorakılıqla yoxa çıxarılmasında, əhalinin kütləvi məhv edilməsində, terror hadisələrində, işgəncə verilməsi ilə bağlı cinayətlər törədilməsində və s. iştirak edib.

Sonra dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev təqsirləndirilən şəxs Babayan Madat Arakeloviç barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona qarşı irəli sürülmüş ittiham üzrə zəruri xüsusatları elan edib.

Diqqətə çatdırılıb ki, təqsirləndirilən şəxs Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı törədiləcək cinayətlərdə iştirak etmək, işğal olunmuş Azərbaycan Respublikasının suveren ərazilərində qanunsuz yaradılan təmas xəttində işğalçı qüvvələrin xeyrinə güc balansını dəyişmək məqsədilə cinayətkar birliyə qoşulub. Madat Babayanın ifadələri ilə, həmçinin təsdiq edilib ki, o, Vamik Petrosyan, Şirin Şirinyan, Arkadi Şirinyan və digər şəxslərlə birgə cinayətkar birliyin üzvü qismində Ermənistan tərəfindən Xocalı soyqırımının törədilməsində bilavasitə iştirak edib. Videoçəkiliş aparılmaqla ifadəsinin yerində yoxlanılması zamanı və məhkəmədə dindirilərkən soyuqqanlılıqla bu dəhşətli əməllərini bir daha təsdiqləyib.

Beləliklə, məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla tam təsdiqlənib ki, M.Babayan cinayətkar birliyin tərkibində cinayətkar birliyin ümumi niyyət və ideologiyasına uyğun olaraq Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibənin aparılmasında, azərbaycanlı əhalinin qanuni yaşadıqları yerlərdən qovulmasında və didərgin salınmasında, etnik təmizlənmə aparılmasında, təqib edilməsində, onlara fiziki ağrılar, psixi iztirablar və işgəncə verilməsində, onların öldürülməsində, Azərbaycan Respublikasının yaşayış məntəqələrinə və müdafiə olunmayan ərazilərə hücum edilməsində, terror aktlarının törədilməsində, hakimiyyətin zorla ələ keçirilməsində və onun zorla saxlanılmasında vahid komandanlıqdan tapşırıq alaraq qanunsuz əmrləri icra etməklə iştirak edib.

Paşayan Melikset Vladimiri barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdıran dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev bildirib ki, təqsirləndirilən şəxs 1992-1995-ci illərdə, 2020-ci ilin sentyabr-noyabr və 2023-cü ilin may-sentyabr aylarında cinayət hadisələrinin törədilməsində iştirak edib. O, Vitali Balasanyanın rəhbərliyi altında fəaliyyət göstərən 31 saylı hərbi hissənin tərkibində Azərbaycanın suveren torpaqlarında döyüşüb.

Qeyd edilib ki, M.Paşayan ümumi cinayətkar niyyəti həyata keçirdiyinə, yəni azərbaycanlıları didərgin salmaqla onların qanuni məskunlaşdıqları ərazini işğal etməklə Ermənistana birləşdirməyə yönələn fəaliyyətdə aktiv iştirak etdiyi üçün Ermənistanın apardığı təcavüzkar müharibə çərçivəsində törədilən cinayətlərə görə məsuliyyət daşıyır.

Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev Martirosyan Qarik Qriqori barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları elan edib.

Müəyyən edilib ki, Q.Martirosyan cinayətkar birliyin üzvü kimi azərbaycanlılara qarşı ağır və xüsusilə ağır cinayətlərin törədilməsi ilə müşayiət olunan təcavüzkar müharibədə ümumi cinayətkar niyyəti həyata keçirdiyinə, yəni azərbaycanlıları didərgin salmaqla, etnik təmizlənmə aparılmaqla, onların qanuni məskunlaşdıqları ərazini işğal etməklə Ermənistana birləşdirməyə yönələn fəaliyyətdə fəal iştirak etdiyi üçün Ermənistan tərəfindən aparılan təcavüzkar müharibə və işğal dövründə törədilən cinayətlərə görə məsuliyyət daşıyır.

Sonra Allahverdiyan Davit Nelsoni barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatlar diqqətə çatdırılıb.

Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev qeyd edib ki, təqsirləndirilən şəxs 2006-2008-ci illərdə, 2020-ci ilin sentyabr-noyabr, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində cinayət hadisələrinin törədilməsində iştirak edib. D.Allahverdiyanın cinayətkar birliyin maraqları naminə Azərbaycan Respublikasının hərbi qulluqçularına atəşlər açması, Ermənistanın törətdiyi cinayətlərin nəticələrinin Azərbaycan Respublikasının hərbi qulluqçuları tərəfindən aradan qaldırılmasına yönəlmiş cəhdin qarşısının alınması ilə bağlı müqavimət göstərməsi, hərbi xidmətdə olduğu müddətdə basdırılmış minaların Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən aşkar edilərək zərərsizləşdirilməsinin qarşısının alınması üçün döyüş növbətçiliyi çəkməsi, qeyd edilən hal aşkar ediləcəyi təqdirdə isə atəş açmaq üçün hər cür ləvazimat, hərbi sursatla təchiz edilməsi, öz cinayətkar niyyətlərini davam etdirmək və digər cinayətlərdə iştirak etməsi təkzibedilməz şəkildə sübuta yetirilib.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev Balayan Levon Romiki barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb.

Qeyd olunub ki, təqsirləndirilən şəxs Azərbaycan Respublikası ərazilərinin Ermənistan tərəfindən işğal edilərək saxlanılması məqsədilə cinayətkar birliyin rəhbərləri tərəfindən işlənib hazırlanmış plana və verilmiş tapşırıqlara uyğun olaraq hücum əməliyyatlarında, ələ keçirilmiş mövqelərin qorunmasında, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yeri, hərəkəti barədə topladığı məlumatları birliyin rəhbərlərinə çatdıraraq başlanılmış təcavüzkar müharibənin planlaşdırılmasında, yeni hücum planlarının hazırlanmasında iştirak edib.

Həmçinin aparılan döyüş əməliyyatlarında Azərbaycan Respublikası Silahlı Qüvvələrini zəiflətmək məqsədilə birbaşa atəş dəstəyi verməklə, işğal xəritəsini genişləndirmək məqsədilə işğalçı qüvvələrin cəbhədə irəliləməsini, hərbi mövqelərin qorunmasını, işğal altında saxlanılan Azərbaycan Respublikasının suveren ərazilərində qanunsuz mühəndis istehkam qurğularının qurulmasını, ətraflarında minalanma işlərinin aparılmasını təmin etməklə və digər hərəkətlərlə çoxsaylı cinayətkar funksiyaları yerinə yetirib.

O, 1995-1998-ci illərdə, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan müddət ərzində cinayət hadisələrinin törədilməsində iştirak edib.

Beqlaryan Vasili İvani barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdıran dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev bildirib ki, təqsirləndirilən şəxs 2012-2013-cü illərdə, habelə 2022-ci ilin sentyabrından 2023-cü ilin sentyabr ayının sonunadək Azərbaycan Respublikasının ərazilərində cinayət hadisələrinin törədilməsində iştirak edib. O, Ağdərə rayonu ərazisində Ermənistan ordusunun tərkibində aktiv fəaliyyətlə məşğul olmasına baxmayaraq, öz cinayətkar fəaliyyəti ilə cinayətkar birliyin digər üzvlərinin və rəhbərlərinin Azərbaycan Respublikasının digər ərazilərində də törədilmiş cinayətlərinə bilavasitə şərait yaradıb.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev Stepanyan Qurgen Homeri barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb.

Bildirilib ki, o, 2005-2007-ci illərdə Ermənistan silahlı qüvvələrinin ən böyük hərbi birləşməsinin tərkibində Füzuli rayonu ərazisində ön cəbhədə "xidmət edib", daha sonra Xocalı rayonunun ərazisində yerləşdirilmiş cinayətkar birliyin struktur qurumu olan Musayelyan Edo Robertoviçin rəhbərlik etdiyi qanunsuz silahlı mütəşəkkil birləşməyə qoşulub, həmin birləşmənin üzvü kimi fəaliyyət göstərib.

Qeyd edilib ki, məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla Q.Stepanyana ibtidai istintaq zamanı elan edilmiş ittihamlar tam şəkildə təsdiq olunub.

Qazaryan Erik Roberti barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona qarşı irəli sürülən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdıran dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev bildirib ki, Ermənistan Respublikasının vətəndaşı olan təqsirləndirilən şəxs 2021-ci ilin aprel ayından 2023-cü ilin sentyabr ayının sonunadək olan müddət ərzində cinayət hadisələrinin törədilməsində iştirak edib.

İttiham tərəfinin çıxışları zamanı məhkəmə zalındakı təqsirləndirilən şəxslərin ittiham olunduğu cinayətlər üzrə fotoşəkillər də nümayiş etdirilib.

Məhkəmə prosesi noyabrın 13-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# "AzərEnerji" "İşığın qayıdışı" adlı Zəfər tədbiri keçirib

**"AzərEnerji" ASC Böyük Zəfərin 5 illiyi münasibətilə respublikanın bir sıra bölgələrində - Mingəçevir, Naxçıvan, Qarabağ və digər ərazilərdə silsilə tədbirlər təşkil edib, şəhidlərin məzarı ziyarət olunub. Zəfər ruhunu əks etdirən bu tədbirlərin əsas mərhələsi Səhmdar Cəmiyyətin Baş İdarəetmə Kompleksində yerləşən 500 nəfərlik Energetiklərin Mədəniyyət Mərkəzində baş tutub.**







Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla anılması ilə başlayıb. Ardınca Prezident İlham Əliyevin tapşırığı əsasında "AzərEnerji" tərəfindən azad edilmiş ərazilərdə son beş ildə görülmüş işlərə həsr olunmuş "İşığın qayıdışı" filmi nümayiş olunub.

"AzərEnerji" ASC-nin sədri Baba Rzayev tədbirdə çıxış edərək Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Zəfərin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın otuz ilə yaxın işğal altında olan torpaqlarını azad etməsi, Şuşada üçrəngli bayrağımızın dalğalanması xalqımızın ən şanlı tarix səhifələrindən biridir. Böyük Zəfərdən keçən 5 il ərzində görülən quruculuq işlərindən danışan Baba Rzayev bildirib ki, cənab Prezidentin tapşırığı ilə "AzərEnerji" ASC də bu müqəddəs missiyada iştirak edib. - "Müharibə bitdikdən sonra cənab Prezidentin energetiklərə verdiyi tapşırıq, dəqiq və aydın idi - azad edilən əraziləri ən qısa zamanda enerji ilə təmin etmək və bu torpaqları 100 faiz "yaşıl enerji" zonasına çevirmək. Bu gün artıq bütün azad edilmiş rayonlarda Azərbaycan işığı yanır. Cəmi beş il ərzində "AzərEnerji" tərəfindən 12 yerdə 330 və 110 kilovoltluq yarımstansiyalar inşa edilib, 1000 kilometrdən çox ötürmə xətti çəkilib, bölgənin dairəvi enerji təchizatı sistemi qurulub. Bundan əlavə, rəqəmsal idarəetmə mərkəzləri yaradılıb və müasir innovativ texnologiyalar tətbiq olunub".

Baba Rzayevin sözlərinə görə, dövlət başçısının tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzurda ümumi gücü 307 meqavat olan 38 su-elektrik stansiyası tikilib. Onların sırasında 42 meqavatlıq "Zəngilan SES"-lər silsiləsi və 22,5 meqavatlıq "Yuxarı Vəng" SES kimi strateji obyektlər də yer alır. Bu stansiyalardan 14-ü Kəlbəcərdə, 11-i Laçında, 9-u Ağdərədə, 4-ü isə Zəngilanda yerləşir.

Baba Rzayev bildirib ki, hazırda bölgənin enerji tələbatı tam şəkildə bu stansiyalarda istehsal olunan "yaşıl enerji" vasitəsilə ödənilir və istehsal olunan enerjinin artıq qalan 60 faizi ölkənin ümumi enerji sisteminə ötürülür. Bu ərazilərdə istehsal olunan "yaşıl enerji"nin maya dəyəri digər stansiyalarla müqayisədə 3-5 dəfə aşağıdır.

Beş il ərzində bu stansiyalarda 1,5 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib, nəticədə 335 milyon kubmetr təbii qaza qənaət olunub, 620 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Ümumilikdə, azad edilmiş ərazilərdə 50-dən çox enerji obyekti - 12 yarımstansiya və 38 su-elektrik stansiyası inşa edilib, daha 8 yeni stansiyanın tikintisinə başlanılıb.

Tədbirdə çıxış edən digər natiqlər də Böyük Zəfərin və onun ardınca həyata keçirilən bərpa prosesinin dövlətimizin qüdrətini və xalqımızın birliyini göstərdiyini vurğulayıblar.

Sonda 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərmiş "AzərEnerji" əməkdaşlarına hədiyyələr təqdim olunub, tədbir bayram konserti ilə başa çatıb.

Sonda onu da qeyd edək ki, "AzərEnerji"də çalışan 700-dən artıq şəhid ailəsinə, qazilərə, Birinci və İkinci Qarabağ müharibələrində iştirak edən əməkdaşlara Səhmdar Cəmiyyət tərəfindən pul mükafatları verilib.

# Vətən müharibəsi haqqında qazax dilində kitab nəşr etdirilib

**Azərbaycanda Zəfər Günü münasibətilə Türk Akademiyası qazax dilində "Azərbaycanın Vətən müharibəsinin tarixi. Şəxsiyyət amili (27 sentyabr - 10 noyabr 2020)" adlı kitab nəşr etdirib.**

AZƏRTAC Türk Akademiyasının mətbuat xidmətinə istinadla xəbər verir ki, nəşrdə 44 günlük İkinci Qarabağ müharibəsinin sənədli xronikası əhatə olunur və Azərbaycan xalqının ədalətli mübarizəsi hərtərəfli şəkildə işıqlandırılır.

Kitabda, həmçinin Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin səbəbləri, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli səyləri, Milli Ordunun yaradılması və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Qələbə strategiyasının əsas aspektləri araşdırılır.

Xüsusilə İkinci Qarabağ müharibəsinin diplomatik aspektlərinə, Azərbaycanın tarixi Qələbəsinin geosiyasi nəticələrinə və İlham Əliyevin Qarabağın müharibədən sonra həyata keçirdiyi sosial-iqtisadi dirçəliş strategiyasına diqqət yetirilir.

Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev nəşrə ön sözündə qeyd edib ki, Qarabağdakı Qələbə təkcə Azərbaycan xalqının Zəfəri deyil, həm də bütün Türk dünyası üçün ortaq sevinc və qürur mənbəyidir.

"Türk Akademiyası adından Azərbaycan xalqının böyük Qələbəsi haqqında etibarlı mənbə olan bu əsəri Qazaxıstan oxucularına təqdim etməkdən məmnunam. Əminəm ki, bu kitab türk xalqlarının ortaq taleyi, vahid missiyası və gələcək əməkdaşlığı kontekstində mühüm töhfə olacaq", - deyə Şahin Mustafayev vurğulayıb.

Kitabın tam versiyası Türk Akademiyasının rəsmi saytında yerləşdirilib.

## BEYNƏLXALQ HƏYAT

# Donald Tramp: "Qazaxıstan rəsmi olaraq İbrahim sazişlərinə qoşulmağa razılıq verib"

**"Qazaxıstan rəsmi olaraq İbrahim sazişlərinə qoşulmağa razılıq verib və imzalanma mərasimi tezliklə keçiriləcək". ABŞ Prezidenti Donald Tramp bunu 2023-cü ildən sonra dövlət başçıları səviyyəsində İkinci ABŞ-Orta Asiya Sammiti çərçivəsində Ağ Evdə keçirilən qala şam yeməyi zamanı açıqlayıb.**

Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev görüşdə iştirak ediblər.

Dövlət başçıları səviyyəsində İkinci ABŞ-Orta Asiya Sammitinin açılışında çıxış edən Tramp İbrahim sazişlərinin Yaxın Şərq və digər bölgələr üçün əhəmiyyətini vurğulayıb. "Qazaxıstanın İbrahim sazişlərinə qoşulmağa rəsmi olaraq razılıq verdiyini elan etməkdən məmnunam. Bu, rəsmi xəbərdir. Təxminən 15 dəqiqə əvvəl güclü lideri olan böyük bir ölkə rəsmi olaraq İbrahim sazişlərinə qoşulub. Bu, böyük şərəfdir. Sizinlə birlikdə olmaq mənim üçün həqiqətən şərəfdir", - deyə Tramp bildirib. ABŞ liderinin sözlərinə görə, Qazaxıstanın İbrahim sazişlərinə qoşulması üçün rəsmi imzalanma mərasimi tezliklə baş tutacaq.

İbrahim sazişləri 2020-ci ildə ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə hazırlanıb. Sazişin ilkin məqsədi ərəb ölkələri ilə İsrail arasında normallaşma prosesini başlatmaq olub.

Bu il mayın 13-də ABŞ sazişin daha geniş ərazini əhatə edəcəyini açıqlamışdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# *İran Prezidenti:* "Əgər quraqlıq davam edərsə, Tehran təxliyə olunmalıdır"

## Məsud Pezeşkian paytaxtın su ehtiyatlarının tükənəcəyi barədə xəbərdarlıq edib

**İran Prezidenti Məsud Pezeşkian uzun sürən quraqlığın yaratdığı su böhranı daha da pisləşərsə, Tehranın təxliyə olunacağı barədə xəbərdarlıq edib. "İtimad" qəzetinin məlumatına görə, prezident bu açıqlamanı ölkənin qərbindəki Sənəndəc şəhərinə işgüzar səfəri zamanı verib.**

Yerli hakimiyyət orqanları ilə görüşdə çıxış edən Pezeşkian ölkədəki bir sıra iqtisadi və sosial problemlərə toxunub. Qeyd edib ki, yüksək inflyasiya və qiymətlərin artması həm daxili idarəetmə səhvlərinin, həm də xarici sanksiyaların nəticəsidir. "İnflyasiya və yüksək qiymətlərə görə məsuliyyət parlamentin və hökumətin üzərinə düşür. İşlər davam edir, lakin maliyyə məhdudiyyətləri layihələri başa çatdırmağımıza mane olur", - deyə Prezident vurğulayıb. O, uzunmüddətli quraqlığın yaratdığı kritik su təchizatı vəziyyətinə də xüsusi diqqət yetirib. "İran təbii çətinliklərlə - yağış çatışmazlığı və su ehtiyatlarının tükənməsi ilə üzləşir ki, bu da ağır nəticələrə səbəb ola bilər", - deyə Pezeşkian bildirib.

İran paytaxtı suyu beş böyük su anbarından - Lar, Məmlu, Əmir Kəbir, Taliqan və Latiandan alır ki, onlardan ən böyüyü Əmir Kəbir bəndidir. Amma son 5 il ölkədə yağıntının davamlı olaraq azalması müşahidə olunub. Meteoroloji məlumatlara görə, Tehranda bu il mövsümi orta göstəricidən 40 faiz az yağış yağıb. Yaz və yay aylarında yağışın, demək olar ki, tamamilə olmaması həmin su anbarlarının suyunun səviyyəsini fəlakətli şəkildə azaldıb. Böhran təkcə səth su ehtiyatlarına deyil, həm də yeraltı sulara təsir göstərib və onların sürətlə tükənməsinə səbəb olub.

İyulun 20-də Tehran Vilayət Su İdarəsi rəsmi olaraq paytaxtı su ilə təmin edən anbarlardakı su ehtiyatlarının son bir əsrdə ən aşağı səviyyəyə düşdüyü barədə xəbərdarlıq edib. Bundan sonra Prezident Pezeşkian mövcud istehlak templərinin davam edəcəyi və problemin həlli üçün heç bir tədbir görülməyəcəyi halda Tehran sakinlərinə suyun çatdırılmasının mümkün olmayacağını bildirib.

Noyabrın 3-də isə Tehran Vilayət Su İdarəsinin baş direktoru Behzad Parsa paytaxtın su ehtiyatlarının maksimum iki həftəyə çatacağını açıqlayıb.

***R.HİLALOĞLU,***
***"Azərbaycan"***

# Dubay Nyu Yorku geridə qoydu

**Daşınmaz əmlak brokeri Savills Plc tərəfindən hazırlanan reytinqdə Dubay sərvətli şəxslər üçün ən cəlbedici şəhər seçilib. Mütəxəssislər 30 qlobal metropolu qiymətləndiriblər.**



Dubayın cəlbediciliyi bir sıra amillərə, o cümlədən miras və kapital mənfəəti vergilərinin olmamasına, inkişaf etmiş infrastrukturun, yüksək təhlükəsizlik səviyyəsinin və beynəlxalq məktəblərin ən yüksək sayına əsaslanır. Bundan əlavə, BƏƏ rezidentlərə 2 milyon dirhəm (544.500 dollar) investisiya əvəzində 10 illik yaşayış və vergi güzəştləri verən "qızıl viza" təklif edir.

Nyu York Savills reytinqində ikinci yeri tutub. Mütəxəssislər onun əlverişli biznes mühitini, vergi güzəştlərini və geosiyasi sabitliyini qeyd ediblər.

Varlı yaşlılar üçün yaşayış yeri seçərkən əsas amillərdən biri miras vergisidir. Xüsusilə həyat keyfiyyəti reytinqində birinci yerdə olan London Böyük Britaniyanın vergi sistemi səbəbindən geriləyib və bu da lüks daşınmaz əmlaka tələbatın azalmasına səbəb olub.

Savills-in məlumatına görə, qlobal sərvət 2022-ci il böhranından sonra bərpa olunur və Asiya-Sakit Okean regionu ən sürətli artım nümayiş etdirir. 2024-cü ildə regionda 680 mindən çox yeni dollar milyonçusu qeydə alınıb. Bu, 1,2 faiz artım deməkdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# VI İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi olub

## Azərbaycan nümayəndə heyəti İslamiadada paraddan birinci keçib

**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində VI İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi keçirilib.**



Əl-Cənadriyahda təşkil olunan tədbirdə əvvəlcə indiyədək yarışa evsahibliyi etmiş ölkələrin adları böyük ekranda nümayiş etdirilib. Onların arasında 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyi Azərbaycan da yer alıb.

Maraqlı rəqs və işıq şoularından sonra idmançıların rəsmi paradı olub. Azərbaycan nümayəndə heyəti paraddan birinci keçib. Paradda üçrəngli Bayrağımızı voleybolçu Nilufər Ağazadə və ağırlıqqaldıran Dadaş Dadaşbəyli daşıyıblar.

Daha sonra təşkilatçı ölkə Səudiyyə Ərəbistanının və yarışın bayraqları səhnəyə gətirilərək ucaldılıb və Oyunlar açıq elan edilib.

Qeyd edək ki, Azərbaycanı VI İslam Həmrəyliyi Oyunlarında 20 idman növündə 179 idmançı təmsil edir. Ümumilikdə isə 57 ölkə 23 növdə medallar uğrunda mübarizə aparır.

Oyunların bağlanış mərasimi noyabrın 21-də keçiriləcək.

***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları İmran Rzayevə əzizi

**SİYANƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova və universitetin professor-müəllim heyəti İzzət Musayevaya və səhiyyə naziri Teymur Musayevə əzizləri

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Bakı Şəhər Dezinfeksiya Mərkəzi" publik hüquqi şəxsin direktoru Akif Məmmədov və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4033
Sifariş 2244

Qiyməti 60 qəpik